Xalqın qəzeti!

# Xalq qəzeti

№ 194 (30888) 12 sentyabr 2025-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# "Qafqaz evi" formatı aktuallığını saxlayır



**Prezident İlham ƏLİYEV:**

**Mən "3+3" formatına müsbət baxıram. Biz bu formatı dəstəkləyirik və ümid edirik ki, digər ölkələr də buna qoşulacaqlar. Burada, ilk növbədə, Zəngəzur dəhlizinin və digər yolların açılması, – çünki təkcə Zəngəzur dəhlizindən söhbət getmir, – bizim Ermənistanla digər nəqliyyat layihələrimiz ola bilər. Ondan sonra ticarət əlaqələrinin bərpası, Cənubi Qafqazda uzunmüddətli sülhün təmin edilməsi. Yəni, bütün bunlar çox önəmli məsələlərdir.**

Səhifə ⇨ 4

## TRIPP geniş dəstək qazanır

*Orta Dəhlizin bu xətti işlək fazaya keçəcək*




**Azərbaycanla ABŞ arasında münasibətlərin yeni məzmun və strateji dərinlik qazanması artıq reallığa çevrilir. Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyevin ABŞ Dövlət Departamentinin Avropa və Avrasiya Məsələləri Bürosunun yüksəkvəzifəli rəsmisi Brenden Hanrahan ilə görüşü də bu prosesin bariz nümunəsidir. Avqustun 8-də Vaşinqtonda imzalanmış sənədlər fonunda iki ölkə arasında əməkdaşlıq yeni müstəviyə qədəm qoyub.**

*(ardı 7-ci səhifədə)*

## Qlobal sülhə sadiqlik nümayişi



səhifə ⇨ 6

## "Sülh bazarı"

*Alen Simonyan "yaxşı"ya köklənib, amma...*



**"Azərbaycanlıların da öz yaraları var. Düz və ya səhv olduğunu demirəm. Azərbaycanda hesab edirlər, belə düşünürlər ki, Ermənistan 30 il ərzində onların ölkəsinin 20 faiz ərazisini işğal altında saxlayıb". Bunu sentyabrın 11-də jurnalistlərlə söhbətində Ermənistan parlamentinin spikeri Alen Simonyan bildirib.**

*(ardı 5-ci səhifədə)*

## Qarabağ qatilinin baş-ayaq müqayisəsi

*Nepal və Fransada baş verənlər Sarkisyanı niyə ümidləndirib?*

**Ermənistanın üçüncü prezidenti, 1980-ci illərin sonlarında Qarabağın dağlıq hissəsində Azərbaycana qarşı etnik separatizm hərəkatının və daha sonra qanlı işğalçılıq müharibəsinin bilavasitə iştirakçısı olan Serj Sarkisyanın günü hakimiyyətdə olduğu dövrdə yol verdiyi qanunsuzluqlarla, daha doğrusu, cinayətlərlə bağlı məhkəmə salonlarında sürünməkdə keçir. Prosesi izləyən jurnalistlər məhkəmə salonlarından çıxarkən adətən, Sarkisyana yaxınlaşaraq ondan müxtəlif məsələlərə münasibət bildirməsini istəyirlər. Jurnalistlərin bu müraciətləri Sarkisyan üçün göydəndüşmə fürsət olur. Keçmişin qalığı, hətta özünün əvvəlki tərəfdarları arasında da dəstəyini çoxdan itirmiş, necə deyərlər, naftalin qoxuyan siyasətçi hər dəfə revanşist şüarlar səsləndirir. O, bununla ermənі müxalifətinin keçmişdə necə dərindən ilişib qaldığını nümayiş etdirir. Sarkisyanın bu günlərdə yenə məhkəmə binası qarşısında jurnalistlərə verdiyi açıqlama bunun daha bir göstəricisi sayıla bilər.**

*(ardı 3-cü səhifədə)*

## Seçkiqabağı "güc" nümayişi

*Yaxud Paşinyanın ictimai reytinqi qaldırmaq taktikası*



**Son dövrlər Ermənistan baş naziri Nikol Paşinyan erməni ictimai rəyində enməyə meyilli reytinqini yüksəltmək məqsədilə pozitiv çıxışlarla gündəmə gəlir. Onun sentyabrın 10-da parlamentdəki çıxışını məhz bu qəbildən saymaq olar. Özü ilə parlamentə Vaşinqtonda imzalanmış sənədin böyük formatda surətini gətirən Paşinyan deyib ki, Ermənistan ərazisində TRIPP adlı infrastruktur olacaq: "Məsələ bundadır ki, protokolun altında ABŞ prezidentinin də, Azərbaycan Prezidentinin də imzası var".**

Paşinyanın bu çıxışı bir neçə müstəvidə şərh oluna bilər. Baş nazir, əslində, real siyasi-hüquqi vəziyyəti deyil, ictimaiyyətə göstərmək istədiyi mənzərəni təqdim edir. O, Vaşinqton bəyanatının altında ABŞ Prezidentinin imzasını xüsusi vurğulayaraq Ermənistanı beynəlxalq arenada "böyük oyunçularla eyni masa arxasında oturan dövlət" kimi göstərməyə çalışır. Bu arqument gələcəkdə seçicilərə "zəif dövlət deyilik, dünya gücləri ilə bərabər tərəf kimi danışıqlar aparırıq" mesajı vermək məqsədi daşıyır.

*(ardı 5-ci səhifədə)*

## Erməni baş nazirin gecikmiş etirafı



Səhifə ⇨ 4

## Ermənistanın çətin konstitusiya sınağı

*İrəvan sülh yolunda son maneəni də aşmağa məhkumdur*

**Ermənistanın qarşıdakı siyasi gündəliyində ən kritik məsələlərdən biri konstitusiya dəyişiklikləri ilə bağlı keçiriləcək referendumdur. Referendum ölkənin daxili siyasi sabitliyi, regional inteqrasiyası və Azərbaycanla paraflanmış sülh müqaviləsinin taleyi ilə bilavasitə əlaqəlidir. Ermənistan hökumətinin gündəliyində sülhün əsas şərtlərindən biri kimi konstitusiyanın preambulasına düzəlişlərin edilməsinin önə çəkilməsi, həm də bu məsələnin parlament səviyyəsində müzakirə olunması göstərir ki, problem strateji xarakter daşıyır.**

*(ardı 3-cü səhifədə)*



## Masallı rayonunun Xıl–Sirəbil–Allahyarlı–Molalan–Çayqıraq avtomobil yolunun əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Səkkiz min nəfər əhalinin yaşadığı 5 yaşayış məntəqəsini birləşdirən Xıl–Sirəbil–Allahyarlı–Molalan–Çayqıraq avtomobil yolunun əsaslı təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 10 yanvar tarixli 445 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.19.21-ci yarımbəndində göstərilmiş məbləğin ilkin olaraq 1,5 milyon (bir milyon beş yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yolunun əsaslı təmirinin davam etdirilməsi üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 11 sentyabr 2025-ci il**

# Hikmət Hacıyev Konqresdə sülh gündəliyindən danışdı




Azərbaycan Prezidentinin köməkçisi - Azərbaycan Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Konqresdə ABŞ-Azərbaycan strateji tərəfdaşlığı, regional məsələlər və qlobal əhəmiyyətli sülh gündəliyi barədə geniş müzakirələr aparıb.

Bu barədə Azərbaycanın ABŞ-dəki səfirliyi məlumat yayıb.

***XQ***




# Serbiyanın dövlət katibi XİN-də



**Sentyabrın 11-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Serbiyanın Xarici İşlər Nazirliyinin dövlət katibi Damyan Yoviçlə görüşüb.**

Görüş zamanı Azərbaycan–Serbiya strateji tərəfdaşlığının müxtəlif aspektləri, o cümlədən regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunub.

İki ölkə arasında mövcud strateji tərəfdaşlıq münasibətlərinin inkişafında liderlərarası təmasların oynadığı rolun vacibliyi vurğulanıb. Münasibətlərin əsasında duran bir-birinin ərazi bütövlüyü və suverenliyinə göstərilən davamlı dəstəyin əhəmiyyəti qeyd olunub. Tərəflər, həmçinin iki ölkə arasında müxtəlif, o cümlədən enerji, müdafiə, humanitar, təhsil və sair istiqamətlər üzrə əməkdaşlıq barədə müzakirələr aparıblar.

Diplomatik akademiyalar arasında əməkdaşlığa dair imzalanmış Anlaşma Memorandumunun əhəmiyyəti qeyd edilib.

Görüş zamanı, o cümlədən regional və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələləri üzrə fikir mübadiləsi aparılıb.

* * *

Həmin gün Azərbaycan və Serbiya xarici işlər nazirlikləri arasında siyasi məsləhətləşmələr keçirilib. Siyasi məsləhətləşmələrə Azərbaycan tərəfindən xarici işlər nazirinin müavini Fariz Rzayev, Serbiya tərəfdən isə Xarici İşlər Nazirliyinin dövlət katibi Damyan Yoviç rəhbərlik edib.

***XQ***

## QHT-lər hansı əsasla orden və medallar təsis edir?

**Bir sıra QHT-lərin qanunla qadağan olunan fəaliyyətə yol verərək ayrı-ayrı şəxsləri saxta orden və medallarla təltif etməsi barədə informasiyalar yayılmaqdadır.**

Bununla əlaqədar Ədliyyə Nazirliyi və QHT-lərə Dövlət Dəstəyi Agentliyi birgə bəyanat yayıb.

Bəyanatda qeyd olunur ki, "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" 1992-ci il tarixli Qanuna 2010-cu ildə əlavə edilmiş 3-cü bəndə əsasən, orden və medal vətəndaşlara xüsusi xidmətlərə görə dövlət tərəfindən verilən dövlət təltifidir. Həmin Qanundan başqa digər normativ-hüquqi aktlarda orden və medallar (o cümlədən "orden" və ya "medal" ifadəsindən hər hansı mənada istifadə edilməklə) təltif növü kimi təsis oluna bilməz.

Həmçinin bildirilir ki, bəzi QHT-lərin orden və medallar təsis etməsi ictimai etimadı sarsıdır, əhalinin aldadılmasına səbəb olur və ciddi hüquqi məsuliyyət yaradır.

***XQ***

# "İlham Əliyev. İnkişaf – məqsədimizdir" çoxcildliyinin 144-cü kitabı çapdan çıxıb

**"Biz Şanxay Əməkdaşlıq Təşkilatının fəaliyyətinə böyük əhəmiyyət veririk və bu təşkilatın təməlində dayanan prinsipləri bölüşürük. Regionda etibarlı tərəfdaş və mühüm dövlət olan Azərbaycan beynəlxalq və regional sülhün, təhlükəsizliyin bərqərar olmasına töhfə verməkdə davam edir, ticarət, kommersiya və investisiya əlaqələrinin genişlənməsinə yönəlmiş, bununla da qlobal iqtisadi inkişafa və Dayanıqlı İnkişaf Məqsədlərinin əldə olunmasına kömək edən irimiqyaslı iqtisadi-ticari, nəqliyyat, infrastruktur və energetika sahələrində layihələr həyata keçirir.**




Əminəm ki, ölkələrimizin sıx ikitərəfli qarşılıqlı fəaliyyəti Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlığının dərinləşməsinə və bu Təşkilatın statusunun artmasına səmərəli surətdə kömək edəcək".

"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin çapdan yeni çıxmış 144-cü kitabında yer alan bu fikirləri dövlətimizin başçısı Çinin Sinxua Agentliyinə müsahibəsində söyləyib.

Çoxcildliyin 144-cü kitabında toplanmış materiallar 2025-ci ilin aprel-may aylarını əhatə edir.

Yeni kitaba Prezident İlham Əliyevin 4-cü Antalya Diplomatiya Forumunda iştirak etmək üçün Türkiyəyə, "Avropa Siyasi Birliyi"nin 6-cı Zirvə toplantısında iştirak etmək üçün Albaniyaya, habelə Macarıstana işgüzar səfərlərinə, Budapeştdə Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirakına dair materiallar daxil edilib. Çoxcildliyin bu kitabında Azərbaycan Prezidentinin Çinə dövlət səfəri, həmin səfər zamanı Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanatın imzalanması, habelə imzalanmış digər sənədlər haqqında informasiyalar, dövlətimizin başçısının Çinin CGTN (China Global Television Network) telekanalına müsahibəsinin mətni də yer alıb.

Oxucular bu kitabda Prezident İlham Əliyevin Azərbaycana səfərə gəlmiş Gürcüstan Prezidenti Mixeil Kavelaşvili, İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian, Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lam ilə görüşləri haqqında materiallarla, habelə "Vietnam News Agency" agentliyinə müsahibəsinin mətni ilə tanış ola bilərlər.

Dövlətimizin başçısı may ayında Qarabağ bölgəsinə səfər edib, Şuşa rayonunun Daşaltı kənd məscidinin, Şuşa Müalicə-Sağlamlıq Mərkəzinin açılışlarında, Şuşada inşa ediləcək 4-cü yaşayış kompleksinin təməlqoyma mərasimində iştirak edib. Prezident, həmçinin "Azəri-şıq" Açıq Səhmdar Cəmiyyətinin "Xocalı" yarımstansiyasının və Rəqəmsal İdarəetmə Mərkəzinin açılışında, "Qoç Ət" Kəndli Fermer Təsərrüfatı MMC-nin Xocalı rayonunun Xanabad kəndi ərazisində yerləşən heyvandarlıq kompleksinin açılış mərasimində iştirak edib. Prezident İlham Əliyev Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksinin, bu rayonun Kəngərli kəndinin bərpasının birinci mərhələsinin açılış mərasimlərində iştirak edib, kəndə köçən sakinlərlə görüşüb, onlara evlərin açarlarını təqdim edib, Kəngərli kənd tam orta məktəb binasının açılışını edib, habelə Ağdam Muğam Mərkəzinin açılış mərasimində çıxış edib. Bütün bunlarla yeni kitabda tanış olmaq mümkündür.

144-cü kitabda Prezidentin Bakı Ekspo Mərkəzində XXX Yubiley Azərbaycan Beynəlxalq Qida Sənayesi - "InterFood Azerbaijan" və XVIII Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı - "Caspian Agro" sərgiləri ilə tanışlığı haqqında materiallar da verilib.

Bu kitabda Azərbaycan Prezidentinin Qlobal Cənub QHT Platformasının təsis konfransının, XXVIII Avrasiya İqtisadi Zirvə toplantısının, "Bakı Ürək Günləri" IX Beynəlxalq Konqresinin, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin Korrupsiyaya qarşı Mübarizə üzrə Hüquq-Mühafizə Orqanlarının Qlobal Əməliyyat Şəbəkəsinin (GLOBE Şəbəkəsi) 6-cı Plenar iclasının, "Qərbi Azərbaycana qayıdış insan hüquqlarının aliliyinin mühüm şərti kimi" mövzusunda beynəlxalq konfransın iştirakçılarına müraciətlərinin mətnləri də toplanıb.

Çoxcildliyin buraxılışına məsul "Azərnəşr"in baş redaktoru Əlövsət Ağalarov-dur.

Bu cildin hazırlanmasında da Azərbaycan Dövlət İnformasiya Agentliyinin materiallarından istifadə olunub.

***AZƏRTAC***

# Milli Məclisin sədri İsrailin yeni səfiri ilə görüşüb

**Sentyabrın 11-də Milli Məclisin sədri Sahibə Qafarova İsrailin ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Ronen Krausz ilə görüşüb.**



Görüşdə dost və tərəfdaş ölkələrimiz arasında bir sıra ənənəvi sahələrdə olduğu kimi, yeni istiqamətlər üzrə də əməkdaşlığın genişlənməsindən məmnunluq ifadə olunub, əlaqələrin daha da inkişafı üçün yaxşı imkanların olduğu diqqətə çatdırılıb.

Həmçinin ölkələrimiz və xalqlarımız arasında dost münasibətlərin bir göstəricisi kimi insanlar arasındakı əlaqələrin önəmi qeyd edilib. Vurğulanıb ki, multikultural və tolerant bir ölkə olan Azərbaycanda yəhudilər əsrlər boyu sülh, dostluq, qarşılıqlı anlaşma şəraitində yaşayıblar və indi də yaşayırlar. Eyni zamanda İsraildə fəaliyyət göstərən Azərbaycan icması, o cümlədən bu ölkədə yaşayan yəhudisilli soydaşlarımız da ölkələrimiz arasında əlaqələrin inkişafına töhfə verirlər.

Görüşdə ölkələrimiz arasında münasibətlərin inkişafında parlamentlərin də özünəməxsus rolu qeyd edilib.

***XQ***

*Xuntaçıların məhkəməsi*

# Günahsız qanlar batmır, cinayətlər üzə durur



**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan vətəndaşları barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası sentyabrın 11-də davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında elan edilən sənədlərdən biri 1990-cı il martın 24-də Sədərəyə Ermənistanın Ararat rayonunun Yerasx kəndi tərəfdən 2 raket atılması faktı ilə bağlı olub. Növbəti sənədlər Şahbuz rayonunun Şada kəndində bir neçə nəfərin xəsarət alması, Tovuz rayonunun Qışlaq və digər kəndlərinin atəşə tutulması faktları ilə bağlı olub. Naxçıvanda məsul şəxs Vəli Zeynalovun öldürülməsi faktı üzrə sənəd də elan edilib.

Elan olunan digər sənədə əsasən, 1990-cı il iyulun 11-də Bərdə-İstisu yolunda Ağdərə rayonunun Qozlukörpü kəndi yaxınlığında 16 avtomobilin daxil olduğu karvanın avtomat silahlardan atəşə tutulması nəticəsində 1 nəfər ölüb, bir çox insan isə yaralanıb.

Elan olunan digər sənədlər 1990-cı ilin mart ayında Sədərəyə hücum edilməsi, Şuşada Əşrəf Ağalarovun girov götürülməsi, aprelin 25-də Babək rayonu Gərməçataq kəndini düşmənin odlu silahdan atəşə tutması, nəticədə müxtəlif şəxslərin xəsarət alması, iyunun 13-də Əsgəran rayonunun Badara kəndində avtomobil karvanının atəşə tutulması, nəticədə yaralananların olması faktları ilə bağlı olub.

Gədəbəy rayonunun Göyəlli kəndinə silahlı hücum edilməsi nəticəsində isə İsmayıl Nuriyev, Mədəd Nağıyev və İbrahim Orucov öldürülüb, İlham İsmayılov döyüldükdən sonra girov götürülərək Ermənistana aparılıb. O, girovluqda 21 gün saxlanılıb.

Bundan başqa, Dönməz Əzizovun, Şamo Çobanovun, Səhər Əsgərovanın, İlham Əliyevin öldürülmələri, Eldar Əliyevin girov götürülməsi, Razi Talışovun yaralanması faktları üzrə sənədlər elan edilib. 1990-cı il avqustun 17-də Fazil Mehtiyevin öldürülməsi zamanı Həsənov Viktor və Eminov Kəmaləddin yaralanıb.

Elan olunan növbəti sənədlər Mustafayev Faqət, Məmmədov Məmməd, Quliyev Yunis, Qarayev Ülfət, Nağıyev Tanrıverdi, Poladov Hümbət, Namazov Elçin, Əliyev Etibar və Rəhimov Gündüzün xəsarət almaları ilə bağlı olub. Laçında yerli sakinlər – Elman və Xanoğlan Süleymanov qardaşları qətlə yetirilib, onların qardaşı Elxan Süleymanov isə yaralanıb.

Digər sənədlər 1990-cı il sentyabrın 15-də Xankəndi şəhərində televiziya və radio verilişləri yayımı binasında partlayış törədilməsi, oktyabrın 14-də Xankəndi dəmiryol stansiyasında sərnişin vaqonunun partladılması, sentyabrın 11-də Xocavənd kəndinin atəşə tutulması, Ağdam-Füzuli avtomobil yolunda körpünün partladılması, Kərcivan-Astazur-Naxçıvan stansiyalarının dağıdılması, Möhbalı Əliyev, Rasim Məmmədov, Adil Məmmədov, Əhməd Cavadov və İmamverdi Hacıyevin öldürülməsi, Şakir Məmmədovun girov götürülməsi faktları ilə bağlı olub.

Elan olunan növbəti sənəd isə 1990-cı il noyabrın 30-da Xankəndi şəhəri yaxınlığında körpünün partladılması və avtobusun atəşə tutulması ilə bağlı olub. Həmin gün Göygöl Rayon Daxili İşlər Şöbəsinin əməkdaşlarının həyatına sui-qəsd edilib.

Elan olunan növbəti sənəd oktyabrın 22-də Əsgəran rayonunda "UAZ" markalı avtomobilin sürücüsü Elxan Quliyevin, sərnişinlər Qələmzər Hacıyevanın və onun 12 yaşlı övladı Elşənin girov götürülməsi fakti ilə bağlı olub.

Jurnalist Salatın Əsgərovanın və digərlərinin öldürülmələri faktı üzrə sənədlər də məhkəmədə elan edilib.

Məhkəmə prosesi sentyabrın 12-də davam etdiriləcək.

***XQ***

# Ermənistanın çətin konstitusiya sınağı

(əvvəli 1-ci səhifədə)

Burada mühüm siyasi ziddiyyət formalaşır: xalqın iradəsi ilə beynəlxalq öhdəliklər arasında balans necə qorunacaq? Sual, əslində, Ermənistan siyasətinin bütün sonrakı addımlarını müəyyən edəcək. Əgər xalq referenduma mənfi cavab verərsə, hökumət beynəlxalq tərəfdaşlara hansı arqumenti təqdim edə biləcək? Digər tərəfdən, əgər dəyişikliklər qəbul edilərsə, bu, Ermənistan cəmiyyətinin siyasi yaddaşında "tarixi güzəşt" kimi təqdim olunmayacaqmı?

Siyasi təhlil göstərir ki, Paşinyan hökuməti bu dilemmanı "sülhün alternativsizliyi" tezisi üzərində qurmağa çalışır. Yəni ictimaiyyətə mesaj verilir ki, dəyişikliklərin edilməməsi regional sülh gündəminin dalana dirənməsi deməkdir. Yenə sual doğur ki, hökumət sülh müqaviləsinin uğurunu yalnız konstitusiya dəyişikliyi ilə şərtləndirməklə daxili legitimliyini zəiflətmirmi? Cavab axtaranda görünür ki, Paşinyan siyasi manevr üçün çox dar məkan saxlayıb – referendumun nəticəsi nə olursa-olsun, siyasi məsuliyyət birbaşa onun üzərində qalacaq. Digər mühüm aspekt isə Ermənistan cəmiyyətinin parçalanmış vəziyyətidir. Bir tərəfdə "reallıqların qəbul edilməsi" tərəfdarları var; onlar hesab edirlər ki, konstitusiya dəyişikliyi regionda uzunmüddətli sabitliyin açarıdır. Digər tərəfdə isə "milli kimlik və tarixi yaddaş" məsələsini önə çəkən qüvvələr dayanır. Bəs Ermənistan ictimaiyyəti hansı seçimə üstünlük verəcək – milli romantizmə, yoxsa praqmatik siyasətə? Mövcud siyasi mühit göstərir ki, bu seçim təkcə Ermənistanın gələcəyini deyil, bütövlükdə Cənubi Qafqazın siyasi xəritəsini müəyyən edə bilər.

* * *

Ermənistanda konstitusiya dəyişikliyi ilə bağlı referendum siyasi qüvvələrin real çəkisinin ölçüləcəyi mühüm bir sınaqdır. Paşinyan hökuməti bu prosesi "sülhün yeganə təminat mexanizmi" kimi təqdim etsə də, daxildə həm siyasi elitada, həm də ictimai rəyin formalaşmasında ciddi müqavimət mövcuddur.

Əsas paradoks ondadır ki, Paşinyan öz çıxışlarında dəfələrlə vurğulayır: "Azərbaycanla sülh artıq imzalanıb, amma tam hüquqi qüvvəyə minməsi üçün preambuladakı ziddiyyət aradan qalxmalıdır". Burada sual ortaya çıxır: əgər sülh faktiki olaraq mövcuddursa, referendum nəticələrinin bu qədər taleyüklü təqdim edilməsinin səbəbi nədir? Cavab axtaranda görünür ki, Paşinyan həm beynəlxalq tərəfdaşlara, həm də daxili auditoriyaya fərqli mesajlar göndərir. Xaricdə "sülhə hazırıq" obrazı yaratmağa çalışır, daxildə isə "xalq iradəsinin həlledici rolu" vurğulanır.

Ermənistan müxalifəti isə məsələyə tamam başqa prizmadan yanaşır. Onların arqumentinə görə, Azərbaycanla sülh müqaviləsi üçün konstitusiyanın dəyişdirilməsi "qeyri-legitim güzəşt"dir və belə addım atmaq milli maraqlara ziddir. Lakin



burada yeni bir sual çıxır: əgər dəyişiklik edilməsə, Ermənistanın qarşısında hansı alternativ açıq qalacaq? Analitik baxış göstərir ki, real alternativlər məhduddur – ya sənəd formal olaraq qüvvədən düşəcək, ya da Ermənistan regional layihələrdən kənarda qalmaqla faktiki təcrid vəziyyətinə sürüklənəcək. Paşinyan üçün digər risk isə daxili siyasi parçalanmanın dərinləşməsidir. Referendumda dəyişikliklər dəstəklənsə belə, müxalifət bunu "xalqın məcburiyyət qarşısında səsi" kimi təqdim edəcək və siyasi mübarizə daha da sərtləşəcək. Bütün bunlar hökumətin legitimliyini gücləndirmək əvəzinə, əksinə, zəiflədə bilər. Yenə sual yaranır: Paşinyan referendumla siyasi mövqeyini möhkəmləndirmək istəyir, yoxsa əslində riskli bir qumar oynayır? Cavab çox güman ki, ikinci variantdır. Çünki referendumun hər iki nəticəsi onun üzərində siyasi məsuliyyəti daha da artıracaq.

Beləliklə, Ermənistanın daxili siyasi müstəvisində konstitusiya dəyişikliyi ətrafında gedən müzakirələr bir növ hökumətlə xalq arasında, daha dəqiq desək, reallığın qəbul olunması ilə milli kimlik arasında seçim dilemmasıdır və bu seçim isə Paşinyanın siyasi taleyini də müəyyən edəcək.

* * *

Azərbaycan üçün Ermənistan konstitusiyasının preambulası sülh müqaviləsinin gələcəyini müəyyən edən fundamental siyasi amildir. Bakı dəfələrlə vurğulayıb ki, əgər Ermənistan öz əsas qanununda Azərbaycana qarşı ərazi iddialarını qoruyub saxlayırsa, onda imzalanacaq sülh sənədi reallıqda heç bir təminat verməyəcək.

Azərbaycan niyə bu qədər israrla konstitusiyanın dəyişdirilməsini tələb edir?

Bunun bir neçə səbəbi var. Birincisi, Azərbaycan 2020-ci ildən sonra formalaşmış yeni reallığı hüquqi cəhətdən möhkəmləndirmək istəyir. Qarabağ məsələsi hərbi-siyasi müstəvidə qapansa da, Ermənistan konstitusiyasında hələ də keçmiş narrativlərə istinadın qalması, rəsmi Bakının gözündə, gələcəkdə revanşizm üçün hüquqi zəmin yaradır. İkincisi, Azərbaycan üçün bu dəyişiklik Ermənistanın sülh gündəminə nə dərəcədə sadiq olduğunu yoxlamaq imkanıdır. Əgər İrəvan həqiqətən regional inteqrasiya istəyirsə, bunu, ilk növbədə, öz konstitusiyasında göstərməlidir.

Bəs əgər Ermənistan referendumda dəyişiklikləri rədd edərsə, Azərbaycan hansı addımlar ata bilər? Bu halda Bakı iki istiqamətdə hərəkət edə bilər. Diplomatik planda – Ermənistanı beynəlxalq tərəfdaşların qarşısında "sülh müqaviləsini sabotaj edən tərəf" kimi təqdim edəcək. Bu isə İrəvanın Qərb institutlarından dəstək alma imkanlarını zəiflədə bilər. Regional planda isə Azərbaycan iqtisadi və kommunikasiya layihələrində Ermənistanı kənarda saxlamağa davam edəcək. Beləliklə, Ermənistan bir növ özünü təcrid vəziyyətində tapacaq.

Digər tərəfdən, Azərbaycanın mövqeyi regiondakı güc balansı ilə də sıx bağlıdır. 2020-ci ildən sonra Bakı Cənubi Qafqazda əsas oyunçuya çevrilib və Moskva, Brüssel, Vaşinqton da bu reallığı qəbul edir. Burada yeni bir sual yaranır: Azərbaycanın israrı sırf ikitərəfli münasibətlərə yönəlib, yoxsa regional statusunu möhkəmləndirmək üçün daha geniş strategiyanın tərkib hissəsidir? Cavab aydındır – konstitusiya məsələsi Bakının regional diplomatiyada üstün mövqeyini gücləndirmək üçün vasitədir. Ermənistan bu tələbi yerinə yetirmədiyi halda, Azərbaycan özünün "sülhə hazır, amma reallığı qəbul etdirən tərəf" imicini qoruyacaq.

Beləliklə, Azərbaycanın yanaşması yalnız "milli maraqların qorunması" ilə məhdudlaşmır; bu, həm də Cənubi Qafqazda yeni siyasi nizamın hüquqi əsaslarını möhkəmləndirmək üçün atılan addımdır. Ermənistan referendum nəticəsindən asılı olaraq ya bu nizamın tərkib hissəsinə çevriləcək, ya da kənarda qalmaq riski ilə üzləşəcək.

* * *

Ermənistanın konstitusiya dəyişikliyi məsələsi, eyni zamanda Qərbin və Rusiyanın regiona baxışını da müəyyən edən amildir. Əslində, referendumun nəticələri Ermənistanın hansı geosiyasi xətti seçəcəyinə dair açıq siqnal olacaq. Qərb institutları – ABŞ və Avropa İttifaqı – referendumun nəticələrinə necə yanaşacaq? Əgər dəyişikliklər qəbul olunarsa, bu, Qərbin gözündə Ermənistanın "sülh gündəminə real bağlılığının" sübutu kimi görünəcək. Aİ son illər Ermənistana iqtisadi dəstək paketləri, sərhəd missiyası və siyasi dəstək vəd edib. Konstitusiya dəyişikliyi bu dəstəyin güclənməsinə yol aça bilər. ABŞ isə Ermənistanı Cənubi Qafqazda "demokratik tərəfdaş" kimi təqdim etməyə çalışır. Beləliklə, referendumun müsbət nəticəsi Ermənistanın Qərbə inteqrasiyasını sürətləndirəcək.

Amma əgər dəyişikliklər rədd olunarsa, Qərbin mövqeyi daha mürəkkəb olacaq. Bir tərəfdən, Vaşinqton və Brüssel Paşinyan hökumətini siyasi riskləri qəbul etdiyi üçün müdafiə etmək məcburiyyətində qalacaq. Digər tərəfdən isə sülh müqaviləsinin pozulması faktı qarşısında Ermənistanı açıq şəkildə müdafiə etmək Qərbin reputasiyasına zərbə vuracaq.

Rusiyanın mövqeyi isə tamam fərqlidir. Moskva uzun müddətdir ki, Paşinyan hökumətini Qərbə yaxınlaşmaqda ittiham edir. Konstitusiya dəyişikliyinin qəbul olunması Kremlin gözündə Ermənistanın Azərbaycan qarşısında növbəti güzəştə getməsi və Rusiyanın regiondakı rolunun zəifləməsi kimi təqdim ediləcək. Beləliklə,



beynəlxalq reaksiya ikili xarakter daşıyacaq. Qərb üçün referendum Ermənistanın Qərbə inteqrasiyasının göstəricisi, Rusiya üçün isə İrəvanın geosiyasi tərəddüdlərinin yeni sübutu olacaq. Ermənistan isə bu qüvvələr arasında manevr etmək məcburiyyətində qalacaq.

Ermənistanın qarşısında duran konstitusiya dəyişikliyi məsələsi Ermənistan üçün üç paralel müstəvidə nəticə doğuracaq: daxili siyasətdə hökumətin legitimliyi, regional müstəvidə Azərbaycanla sülh müqaviləsinin gələcəyi və beynəlxalq müstəvidə isə Ermənistanın Qərb və Rusiya arasında geosiyasi seçimi. Əsas sual hələ də açıq qalır: Ermənistan cəmiyyəti tarixi yaddaş və milli kimlik ritorikasına üstünlük verəcək, yoxsa reallıqların qəbuluna əsaslanan praqmatik sülh yolunu seçəcək? Əgər dəyişikliklər qəbul olunarsa, Ermənistanın Qərbə inteqrasiyası sürətlənəcək, regional təcrid riski azalacaq və Azərbaycanla sülh müqaviləsi tam hüquqi qüvvəyə minəcək. Əgər rədd edilərsə, Paşinyan hökuməti həm daxildə, həm də beynəlxalq müstəvidə ciddi legitimlik böhranı ilə üzləşəcək, Ermənistan isə siyasi təcridə sürüklənə bilər.

Son olaraq qeyd edə bilərik ki, referendum, əslində, Ermənistanın gələcək onilliklərinin konturunu müəyyən edəcək. Bir tərəfdə "milli romantizm" dayanır, digər tərəfdə isə "siyasi realizm". Hansı yolun seçiləcəyi isə yalnız Ermənistanın deyil, bütövlükdə Cənubi Qafqazın yeni siyasi xəritəsini formalaşdıracaq.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Qarabağ qatilinin baş-ayaq müqayisəsi

(əvvəli 1-ci səhifədə)

S.Sarkisyan deyib: "Hakimiyyətin dəyişdirilməsi məsələsi hər zaman bizim gündəmimizdə olub və bu gün də aktual olaraq qalır. Ən düzgün və optimal yol baş nazirə etimadsızlıq ifadə etməkdir. Parlament təkcə söz demək deyil, həm də dinləmək yeridir. Kimin qulağı varsa, eşidəcək. Xüsusilə nəzərə alsaq ki, parlament dinləmələrində çıxış edənlər, əsasən, deputat olmayan, ildə cəmi 2-3 dəfə Milli Assambleyanın tribunasından çıxış etmək imkanı əldə edənlərdir".

Sabiq prezident son günlər uzaq Nepalda və Ermənistanın "bacısı" Fransada baş verən iğtişaşlardan vəcdə gələrək bildirib: "O ölkələrdə nə oldu? Xalqın etimadını qazanmayan hökuməti devirməyin iki yolu var: biri zorakılıq və qətl yolu ilə Nepal nümunəsidir, digəri parlament vasitəsilə Fransa nümunəsidir. İndi sual olunur – biz xalqımıza nə təklif edəcəyik?".

Özü xalqın etirazları nəticəsində hakimiyyətdən devrilən Serj Azatoviçin bu açıqlaması onun iqtidarı dövründə baş verən bəzi hadisələri xatırlatmağı zəruri edir. 2008-ci ilin fevralında Sarkisyanın prezident seçkilərində elan edilən qələbəsi "Qarabağ klanı"nın əlində cəmləşmiş informasiya resursları tərəfindən Ermənistanın yeni mərhələyə qədəm qoyması kimi təqdim olunmuşdu. Lakin çox keçmədən onun hakimiyyəti kütləvi narazılıqlar, qanunsuzluqlar, cinayət xarakterli addımlar və dövlət aparatının korrupsiya bataqlığında çürüməsi ilə yadda qaldı. On il ərzində Ermənistan cəmiyyəti həm siyasi repressiyaların, həm də iqtisadi talanların şahidi oldu. Bu dövr həm də ölkənin demokratik inkişaf imkanlarının tamamilə əldən verilməsi ilə səciyyəvidir.

Konkret olaraq Sarkisyanın prezidentliyinin ilk ayı ölkə üçün faciəvi oldu. Müxalifətin etiraz aksiyalarını zor gücünə dağıtmaq üçün hakimiyyət xüsusi qüvvələri səfərbər etdi. Martın 1-də baş verən toqquşmalar nəticəsində azı 10 nəfər həlak oldu, yüzlərlə insan yaralandı və həbs olundu. Bu hadisə Ermənistan siyasi tarixində ən qanlı səhifələrdən biri kimi qalır. Hökumət faktiki olaraq xalqın iradəsini güllə ilə susdurdu. Ölkə daxilində bu, Sarkisyanın legitimliyinə ağır zərbə vurdu, beynəlxalq aləmdə isə Ermənistanın imicini sarsıtdı.

Sarkisyanın hakimiyyət dövrü Ermənistan iqtisadiyyatında vəd edildiyi kimi köklü islahatların aparılması ilə deyil, oliqarxik sistemin möhkəmləndirilməsi ilə xarakterizə olunur. Ölkənin əsas iqtisadi sahələri – enerji, telekommunikasiya, dəmir yolları, tikinti və gömrük sistemi – dar çevrəyə aid oliqarxların nəzarətinə verilmiş, ictimai resurslar şəxsi mənfəət mənbəyinə çevrilmişdi. "Transparency International" və digər qurumların hesabatlarında Ermənistan korrupsiya indeksinə görə postsovet məkanında ən korrupsiyalaşmış dövlətlərdən biri kimi göstərilirdi. Sarkisyan hakimiyyətinin əsas dayağı "Qarabağ klanı" adlanan siyasi-kriminal qrup idi. Bu klan dövlət strukturlarını ələ keçirərək həm siyasi, həm də iqtisadi sahədə monopolist mövqe tutmuşdu. Ermənistan daxilində müxtəlif siyasi qüvvələrin, xüsusilə də müxalifətin basqılarla neytrallaşdırılması məhz bu qrupun maraqlarına xidmət edirdi. Siyasi rəqiblərə qarşı cinayət işlərinin açılması, seçkilərdə kütləvi saxtakarlıqlar, məhkəmə sisteminin tam itaət altına alınması Sarkisyan dövrünün acı reallığı idi.

Bu adamın siyasəti cəmiyyətin müxtəlif təbəqələrində narazılıq doğururdu. Zənnimizcə, 2016-cı ilin iyulunda baş vermiş hadisəni xatırlatmaq yerinə düşər. Həmin vaxt silahlı "Sasna tsrer" qrupu polis alayını ələ keçirərək hakimiyyətə meydan oxudu. Hadisə bir tərəfdən Sarkisyanın təhlükəsizlik sisteminin zəifliyini, digər tərəfdən isə cəmiyyətdəki dərin sosial-siyasi böhranı üzə çıxardı. Hökumət bu böhranı güc yolu ilə yatırsa da, hadisələr Sarkisyan rejiminin əsassız dayaqlar üzərində qurulduğunu nümayiş etdirdi. Onun



hakimiyyəti illərində müxalifətçilərin və jurnalistlərin təqibi, vətəndaş cəmiyyəti institutlarının sıxışdırılması adi hal idi. Beynəlxalq insan haqları təşkilatları Ermənistanı mütəmadi olaraq sərt tənqid edirdi. Hökumət daxili sabitliyi qorumaq üçün polisin zorakılığından və məhkəmə sisteminin asılılığından istifadə edirdi. Beləliklə, hüququn aliliyi şüar olaraq qalmış, real həyatda isə qanunsuzluqlar hakimiyyətin əsas idarəetmə üsuluna çevrilmişdi.

2018-ci ildə Sarkisyanın ikinci prezidentlik müddəti başa çatırdı. Serjik isə hakimiyyət kürsüsündən ikiəlli yapışaraq onu heç kimə vermək istəmir, gələcəkdə hansısa formada iqtidarda qalmağın yolları üzərində siyasi oyunlar qururdu. Belə oyunlardan biri kimi o, 2015-ci ildə konstitusiyanı dəyişdirərək prezident idarəçiliyindən parlament üsuli-idarəsinə keçidi təmin etdi. Məqsəd 2018-ci ildən sonra da hakimiyyətdə qalmaq idi. Sarkisyan bu planı qismən həyata keçirdi. O, 2018-ci ilin aprelin 17-də Ermənistanın Baş naziri təyin olundu. Amma sən saydığını say, gör xalq nə sayır... Sarkisyanın baş nazirliyi cəmi bir həftə çəkdi. Erməni cəmiyyəti illərlə yığılan qalan qəzəbini ifadə edərək inqilaba qalxdı. Sarkisyan aprelin 23-də istefa verməyə məcbur oldu.

* * *

Bu gün ekspertlər belə bir fikirdə həmrəydirlər ki, Sarkisyanın hakimiyyəti Ermənistan üçün itirilmiş onillik oldu. Bu illər ərzində ölkə nə demokratik institutlarını gücləndirə, nə də iqtisadi inkişaf yoluna çıxa bildi. Əksinə, qanunsuzluq, cinayət və korrupsiya halları dövlət idarəçiliyinin əsas mexanizminə çevrildi. Hakimiyyət zorakılıq və saxtakarlıq üzərində qurulduğundan davamlı ola bilmədi. 2018-ci ildə Sarkisyanın devrilməsi erməni xalqının öz taleyinə sahib çıxmaq cəhdinin nəticəsi idi. Lakin o və onun kimi siyasətçilər bu gün də Ermənistanın üzərində ağır yük olaraq qalmaqdadırlar.

Bu gün Sarkisyan siyasi səhnədə formal mövcudluğunu qorumağa çalışsa da, onun ritorikası həm öz dövrünün ab-havasını, həm də bugünkü erməni müxalifətinin ideya kasadlığını açıq şəkildə üzə çıxarır. Serjik hakimiyyətin dəyişdirilməsini əsas gündəm mövzusu kimi qaldırsa da, bu çağırışın cəmiyyət üçün yeni məna daşımadığı, əksinə, keçmişin uğursuz siyasi yanaşmalarının davamı olduğu göz önündədir. Son dövrlərdə verdiyi açıqlamalar, xüsusilə məhkəmə binası qarşısında jurnalistlərə dedikləri onun hələ də müasir siyasi reallığı qəbul edə bilmədiyini göstərir. "Hakimiyyətin dəyişdirilməsi hər zaman gündəmimizdə olub",– deyə o, müxalifətin artıq illərlə təkrarladığı tezisi bir daha səsləndirir. Lakin Ermənistanda baş verənlər göstərir ki, cəmiyyət bu şüarlardan yorulub. İndiki reallıqda xalq sosial-iqtisadi problemlərin həllini, regional təhlükəsizliyi, sabitliyi, dövlət idarəçiliyində şəffaflığı tələb edir. Sarkisyan isə bunların heç birinə konkret cavab vermir, sadəcə müxalifətçilik görüntüsü yaratmağa çalışır.

Sabiq prezidentin son günlərdə Nepal və Fransadakı hadisələrə istinad etməsi isə siyasi populizmin ən sadə formasıdır. Nepalda zorakılıqla hökumətin devrilməsi, Fransada isə parlament mexanizmlərinin işə düşməsi ilə bağlı müqayisə aparan Sarkisyan, əslində, Ermənistan reallığını görməzdən gəlir. Çünki bu ölkələrdə baş verənlər tamamilə fərqli siyasi mühitin məhsuludur. Ermənistan cəmiyyətinin istəyi zorakı yolla dəyişiklik yox, demokratik institutların gücləndirilməsi və sabit inkişafdır. Sarkisyanın "biz xalqımıza nə təklif edəcəyik?" sualı əslində, onun cavabsız qaldığının etirafıdır. Onun ritorikası həm də bütövlükdə, Ermənistan müxalifətinin hansı vəziyyətdə olduğunu göstərir. Bu düşərgə yeni siyasi konsepsiya formalaşdırmaq əvəzinə, köhnə revanşist şüarların ətrafında dolanır. Bu isə onların geniş kütlələri səfərbər etməsinə imkan vermir. Çünki xalq 2008-ci ilin mart hadisələrini, korrupsiya bataqlığına batmış hakimiyyət illərini, iqtisadi talanı hələ də unutmayıb. Sarkisyanın adı bu acı xatirələrlə assosiasiya olunur və onun çağırışları nə qədər pafoslu səslənsə də, real sosial dayaqlardan məhrumdur.

***Səxavət HƏMİD***
***XQ***

# “Qafqaz evi” formatı aktuallığını saxlayır

## *TRIPP-in işə düşməsi “3+3” platformasını gerçəkləşdirəcəkmi?*

**2020-ci il İkinci Qarabağ müharibəsindən sonra gündəmə gələn “3+3” regional əməkdaşlıq platforması Cənubi Qafqaz ölkələri – Azərbaycan, Ermənistan və Gürcüstan ilə yanaşı, regionun qonşuları – Rusiya, Türkiyə və İranı bir araya gətirməyi planlaşdırır. Əsas ideya budur ki, Cənubi Qafqazdakı problemlər regional dövlətlərin iştirakı ilə, kənar güclərin müdaxiləsi olmadan həll olunsun. “3+3”-ü, əslində, “Qafqaz evi” ideyasının genişləndirilmiş variantı kimi qiymətləndirmək olar. Platformanın digər məqsədi regionda sülh, təhlükəsizlik, iqtisadi inteqrasiya və kommunikasiya xətlərinin açılması istiqamətində birgə addımlar atmaqdır. Bu təşəbbüs ilk dəfə Azərbaycan və Türkiyə tərəfindən irəli sürülüb, Rusiya və İran tərəfindən dəstəklənib. Amma ötən illər ərzində bura daxil olan ölkələr arasında bəzi ziddiyyətlərin olması platformanın tam gücü ilə işləməsinə əngəl törədib. Buna baxmayaraq, qonşu ölkələrin rəsmi şəxsləri tərəfindən verilən bəyanatlar formatın aktuallığını göstərir.**




Bu günlərdə Rusiyanın xarici işlər naziri Sergey Lavrov Ermənistan, Azərbaycan və Gürcüstanı Rusiya, İran və Türkiyə ilə birləşdirən “3+3” regional məsləhətçi platformasında görüşlərin bərpasına çağırıb. MDBMİ-də (Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu) tələbələr qarşısında çıxış edən Lavrov xatırladıb ki, bu təşəbbüsün müəllifləri Türkiyə və Azərbaycan olub və hazırda formatın yenidən işə salınması üçün əlverişli zaman yetişib. O bildirib ki, iki il əvvəl nazirlər və nazir müavinləri səviyyəsində bir neçə görüş keçirilib: “İndi hesab edirik ki, bu formatı bərpa etməyin vaxtıdır. İranlı qonşularımız da prosesi dəstəkləyir. Qeyd etdiyim kimi, Türkiyə və Azərbaycan bu platformanın təşəbbüskarlarıdır”.

Ermənistan Xarici İşlər Nazirliyi isə bildirib ki, nazirlərin növbəti görüşünün vaxtı və yeri barədə hələlik qərar verilməyib. Bununla belə, xarici işlər nazirinin müavini Vahan Kostanyan daha əvvəl qeyd etmişdi ki, toplantı həm İrəvanda, həm də Bakıda baş tuta bilər. Belə pozitiv yanaşmanın müəllifi Ermənistan XİN-in görüşə ev sahibliyi etməyə hazır olduğunu təsdiqləyib. Yeri gəlmişkən, Azərbaycan da analoji təklifi irəli sürüb. Lavrov bundan öncə Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanla birgə açıqlamasında “3+3” formatında nazirlərin üçüncü görüşünə hazırlığın getdiyini, növbəti iki iclasın isə Bakıda və İrəvanda keçirilməsinin nəzərdə tutulduğunu demişdi.

Çox güman ki, Ermənistan rəsmilərinin bu məsələdə Rusiyanı dəstəkləməsi, yəni platformanı yenidən aktivləşdirmək cəhdi, bölgədə əməkdaşlığı dəstəkləməklə yanaşı, həm də şimal qonşumuzun “könlünü almağa” yönəlib. Azərbaycan və Ermənistan arasında sülh sazişinin paraflanmasında, həmçinin Zəngəzur dəhlizinin açılmasında vasitəçi kimi ABŞ çıxış etdiyindən, rəsmi Moskva regional proseslərdə müəyyən qədər kənarda qalıb. Ermənistan bu addımı ilə Rusiyada əlavə qıcıq yaratmaq istəmir. Nikol Paşinyan hakimiyyəti hər nə qədər qərbyönlü siyasət yürütsə də, hələlik, tam olaraq Rusiyanın təsir dairəsindən azad ola bilməyib.

Qeyd olunduğu kimi, platforma çərçivəsində “altılıq” tərəfindən iqtisadi əməkdaşlığın və kommunikasiya xətlərinin bərpası nəzərdə tutulur ki, bu da bütövlükdə regionun geosiyasi mənzərəsinə ciddi təsir göstərə bilər. Gürcüstan istisna olmaqla, digər dövlətlər indiyədək “3+3” formatını dəstəklədiklərini açıq şəkildə bildiriblər. İndiyə qədər bu format çərçivəsində üç görüş keçirilib. Birinci toplantı 2021-ci il dekabrın 10-da Moskvada baş tutub və orada Azərbaycan, Ermənistan, Rusiya, Türkiyə və İranın xarici işlər nazirlərinin müavinləri iştirak ediblər. İkinci görüş 2023-cü il oktyabrın 23-də Tehranda xarici işlər nazirlərinin iştirakı ilə təşkil olunub. Azərbaycan torpaqlarının işğaldan azad edilməsindən sonra isə üçüncü görüş İstanbulda keçirilib. Hər üç görüşdə Gürcüstan iştirak etməyib. Bunun səbəbini Gürcüstanın xarici işlər naziri Maka Boçorişvili Antalya Diplomatiya Forumunda yenidən gündəmə gətirmişdi. O zaman nazir “Gürcüstan 3+3 formatının bir hissəsi olmasa da, həmişə belə adlandırılır. Biz bu platformanın üzvü deyilik. Biz bütün qonşularımızla əməkdaşlıq edirik – bir istisna olmaqla, o da Rusiyadır. Bunun da səbəbi var: Gürcüstanın iki rayonu Rusiyanın işğalı altında qalır və orada Rusiyanın hərbi mövcudluğu davam edir...”, – deyə bildirmişdi.

***

Hazırkı mərhələdə bu əməkdaşlıq çərçivəsindən kənarda qalan yeganə tərəf Gürcüstan olsa da, digər tərəflər dəfələrlə rəsmi Tbilisi üçün qapıların açıq olduğunu bildirib. Bununla yanaşı, ötən ilin dekabrında Moskva ilə Bakı arasında baş vermiş məlum təyyarə qəzasından sonra iki ölkə arasında yaranan gərgin münasibətlər də “3+3” mexanizminin fəaliyyətinə və onun gələcək konfiqurasiyasına mühüm maneədir. Digər tərəfdən, regionda təsir dairəsi uğrunda rəqabət aparan qüvvələr də mövcuddur. Xüsusilə, Rusiyanın və İranın ənənəvi rəqibləri, həmçinin ABŞ-ın Cənubi Qafqaza, o cümlədən Zəngəzur dəhlizi (TRIPP) istiqamətinə maraq göstərməsi bu əməkdaşlıq modelinin gələcəyinə bilavasitə təsir edə bilər. Çünki böyük güclərin regiondakı mövqelərinin toqquşması “3+3” platformasının fəaliyyət imkanlarını məhdudlaşdıra və iştirakçı ölkələr arasında ziddiyyətləri dərinləşdirə bilər. Məhz bu amillər “3+3” çərçivəsində əməkdaşlığın o qədər də sadə olmadığını göstərir.

“3+3” təşəbbüsünün taleyinə təsir göstərəcək məqamlardan biri də İranın region siyasətidir. Rəsmi Tehran hər nə qədər bu platformaya müsbət yanaşsa da, digər tərəfdən hakimiyyətdə cəmlənən mühafizəkar qanad Zəngəzur dəhlizi əleyhinə bəyanatlar verməkdə davam edir. Mehriban qonşuluq münasibətlərinə kölgə salan bu cür açıqlamalar Bakı–Tehran xəttində müəyyən narazılıqlar yarada bilər. Belə olan təqdirdə, format çərçivəsində hər hansı irəliləyişin əldə edilməsi müşkül məsələyə çevriləcək. Göründüyü kimi, “Qafqaz evi” formatının aktivliyi daha çox Rusiya və İranın atacağı addımlardan asılı olacaq.

Son hadisələri nəzərə alsaq, “3+3” modelinin işlək vəziyyətə gətirilməsində əsas təkanverici amil kimi Azərbaycan–Ermənistan münasibətlərini göstərmək olar. Artıq hər iki ölkə üçün əməkdaşlıq dövrü başlayır. Bu baxımdan, əgər bütün tərəflər siyasi iradə nümayiş etdirərlərsə, “Qafqaz evi” ideyasının gerçəkləşməsi reallığa çevrilə bilər. Regionda baş verən problemlərin, məhz bölgə xalqları tərəfindən həll edilməsi daha məqsədəuyğundur. Dünyada buna bənzər nümunələr mövcuddur. Skandinaviya ölkələri – Norveç, İsveç və Danimarka uzun illər sosial, iqtisadi və təhlükəsizlik sahələrində əməkdaşlıq edir, NATO üzvlüyü və regional layihələr vasitəsilə ortaq maraqları qoruyurlar. “Benilüks”ə daxil olan Belçika, Niderland və Lüksemburq isə iqtisadi inteqrasiya və ortaq siyasi təşəbbüslərlə regional sabitliyi təmin edir.

***Musa BAĞIRLI***
***XQ***

# Erməni baş nazirin gecikmiş etirafı

## *İlham Əliyevin ədalətli mövqeyinin Ermənistanın siyasi xəttinə önəmli təsiri*

**Zamanın diktəsi ilə deyil, reallığın məcburiyyəti ilə edilən etiraflar əslində, siyasi məğlubiyyətin təsdiqidir. Cənubi Qafqazın siyasi xəritəsi uzun illər beynəlxalq vasitəçilik mexanizmlərinin səmərəsizliyi və Ermənistanın daxili siyasətinin qərəzli, hesablanmamış addımları ucbatından mürəkkəbləşib. ATƏT-in Minsk qrupu regionda gərginliyi azaltmaq əvəzinə, status-kvonu qorumağa xidmət edib. Bu, açıq şəkildə göstərir ki, İrəvanın strategiyası fiasko ilə üz-üzədir. Rəsmi Bakı reallığı düzgün qiymətləndirərək regionda siyasi və hərbi üstünlüyünü möhkəmləndirib. Ermənistan isə bu gün gecikmiş etiraflarla vəziyyəti düzəltməyə çalışır, amma görünür, reallıq artıq İrəvanın əlindən çıxıb.**



Sentyabrın 10-da Nikol Paşinyanın yay tətilindən sonra Ermənistan parlamentində ilk çıxışı maraqlı fikirlərlə yadda qaldı. Baş nazir açıq şəkildə etiraf etdi ki, ATƏT-in Minsk qrupu illərlə regionu gərginlikdə saxlamaq üçün istifadə edilən faydasız mexanizm olub. Onun Minsk qrupu ilə bağlı fikirləri dörd il əvvəl Prezident İlham Əliyevin dediklərinin gecikmiş təsdiqidir. Dövlət başçımız 2021-ci ildə İtaliyanın “İl Sole 24 Ore” qəzetinə müsahibəsi zamanı məhz bu fikirləri səsləndirmişdi: “Əgər Minsk qrupunun həmsədrləri – dünyanın aparıcı ölkələri, Təhlükəsizlik Şurasının 5 daimi üzvündən 3-ü, 3 nüvə dövləti, dünyanın ən güclü ölkələri Ermənistanın işğalına son qoya bilmədilərsə və ya bunu etmək istəmədilərsə, bu, o deməkdir ki, onların fəaliyyəti uğursuz idi. Onlar 28 il fəaliyyət göstərdilər”.

Bəli, həqiqətən də, aydın olur ki, Prezident cənab İlham Əliyevin fikirləri əsasında bu gün Ermənistan öz siyasi xəttini müəyyən edir. Bu etirafın gecikməsi heç də təsadüfi deyil. Avqustun 8-də Vaşinqtonda imzalanan sənədlərlə Ermənistanın suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı təsdiqləndi. Rəsmi İrəvan həmin sənədlərə istinad edərək Minsk qrupunun buraxılmasına razılıq verdiyini elan etdi. Bu, Ermənistanın uzun illər mövcud olan “status-kvo aludəçiliyindən” imtinası demək idi. Paşinyan yaxşı anlayır ki, nə Vaşinqton, nə Paris, nə də Moskva regionda artıq əvvəlki kimi oyun qura bilmir. Bakının bütün sferalarda qələbəsi yeni reallıqlar yaradıb.

Bununla yanaşı, Paşinyan daxildə xunta rejiminin qalıqlarına, Koçaryan-Sarkisyan tandeminin revanşist “quyruğuna” xəbərdarlıq göndərir. Baş nazir göstərməyə çalışır ki, müxalifətin beynəlxalq dəstək ümidləri əbəsdir və ölkəni yeni qarşıdurmaya sürükləmək cəhdləri nəticəsiz qalacaq. Bu, həm də cəmiyyətə psixoloji hazırlıq mesajıdır: “Daqlıq Qarabağ” artıq yoxdur, Minsk qrupu yoxdur, yeni mərhələ başlayır”.

***

Sentyabrın 1-də ATƏT-in Nazirlər Şurasının Minsk qrupunun ləğvi ilə bağlı qərarından sonra Ermənistan daxilində daşnak-radikallar əl-ayağa düşərək sərsəm bəyanatlar səsləndirməyə başladılar. Özünü separatçıların lideri hesab edən Samvel Şahramanyan, Sarkisyan-Köçəryan cütlüyü, Ermənistanın katolikosu, Kilikiya katolikosu, bəzi müxalif partiyaların sədrləri ATƏT-in Minsk qrupunu “klonlamaq” və bu yolla kütləni ələ almaq üçün çağırışlar edirlər. Baş nazir Nikol Paşinyan isə nə yolla olur-olsun seçkilərə qədər rəsmi Bakı ilə münasibətləri nizamlayaraq sülh müqaviləsinin altına imzasını atmaq istəyir. Bu baxımdan, Nikol öz siyasi xəttində mütəmadi olaraq manevrlər edərək Bakının irəli sürdüyü şərtləri qəbul edir.

Minsk qrupunun ləğvinə dəstək məhz buna əyani misaldır. Sadəcə olaraq, N.Paşinyan bu qərarların icrasını ləngidərək hadisələrin məntiqi sonluğuna birbaşa yox, dolayısı yolla gedir ki, bu da erməni əhalinin etirazlarının qarşısının alınmasına yönəlib. Erməni mediası yazır ki, Nikol Paşinyan Azərbaycan tərəfinin təşəbbüsünü dəstəkləyərək ATƏT-in Minsk qrupunun buraxılması prosesinə qoşulmaqla öz hökumətinin təsdiqlənmiş proqramından kənara çıxıb. Ermənistanın 2021–2026-cı illər üçün hökumət proqramında Minsk qrupuna dəstək və onunla əməkdaşlığın davam etdirilməsi xüsusi vurğulanırdı və bu məsələ sənədin əsas istiqamətlərindən biri kimi göstərilirdi. Lakin Paşinyan bu öhdəliyi yerinə yetirməyərək faktiki olaraq həmin qurumun fəaliyyətinin dayandırılması prosesinə razılıq verdi. Bu addım “Vətəndaş sazişi” partiyasının seçkiqabağı vədlərindən və proqramda təsbit olunmuş əsas müddəalardan imtina deməkdir ki, nəticədə hakim komanda öz seçici bazasının qarşısında verdiyi sözlərə sadiq qalmadığını nümayiş etdirmiş oldu.

Bəli, hər şey gün kimi aydındır. Erməni baş nazir siyasi xəttini 180 dərəcə dəyişərək yeni qərarlar qəbul edir. Nikol ikinci Gümrü fiaskosuna razı ola bilməz. Əgər bu baş verərsə, o zaman müxalifət dərhal hərəkətə keçər və növbəti prezident seçkiləri üçün mühüm nailiyyət qazanar. Bu baxımdan, Paşinyanın rəsmi Bakının bəlirlədiyi yolla hərəkəti normaldır və qəbuledilendir. Lakin burada sual yaranır: Paşinyanın etirafları gecikmiş addım deyilmi? Əgər o, bunları 2018-ci ildə hakimiyyətə gələndə desəydi, bəlkə də 44 günlük müharibə acısını yaşamasına ehtiyac qalmazdı. Bu mənada Paşinyanın çıxışı həm də siyasi peşmançılıq nümunəsi kimi görünür. Sanki baş nazir keçmiş səhvlərinə bəraət qazandırmaq istəyir. Lakin “sonrakı peşmançılıq” həyatda olduğu kimi, elə siyasi müstəvidə də fayda vermir.

Region üçün əsas nəticə aydındır: ATƏT-in Minsk qrupunun tarixi missiyası rəsmi olaraq başa çatdı. Bu, Cənubi Qafqazda yeni təhlükəsizlik arxitekturasının qurulması üçün əlavə imkanlar açır. Azərbaycan artıq sülh gündəliyini irəli aparmaqda sərbəstdir və Ermənistanın da buna qoşulmaqdan başqa alternativi yoxdur. Paşinyanın çıxışı bir daha göstərdi ki, Bakının strateji və ədalətli mövqeyi zamanla rəqiblərini də həqiqəti etiraf etməyə məcbur edir.

Beləliklə, Nikol Paşinyanın parlamentdə çıxışı həm Ermənistanın daxili siyasi həyatında, həm də regionun geosiyasi mənzərəsində dönüş nöqtəsidir. O, illərlə manipulyasiya obyekti olmuş Minsk qrupunun maskasını çıxardı, amma bunu yalnız məğlubiyyətdən sonra etdi. Bu, həm İrəvana, həm də Qərbə bir dərsdir: reallığı nə qədər gec qəbul etsəniz, onun qiyməti bir o qədər baha başa gəlir.

***Tacir SADIQOV***
***XQ***

**Ekspert rəyi**



**Züriyyə QARAYEVA,**
**politoloq**

Nikol Paşinyanın ATƏT-in Minsk qrupu barədə son açıqlaması, əslində, Ermənistan siyasi rəhbərliyinin 30 ildən çox davam edən illüziyasının dağılması kimi qiymətləndirilə bilər. O, parlamentdə açıq şəkildə bildirdi ki, Minsk qrupunun fəaliyyətində faydalı heç nə olmayıb və bu format münaqişənin həllinə deyil, onun uzanmasına xidmət edib. Bu, Azərbaycan Prezidentinin hələ dörd il əvvəl səsləndirdiyi fikrin təsdiqi deməkdir. Beləliklə, Paşinyan indi faktiki olaraq Bakının öncə dediyi həqiqəti qəbul etmək məcburiyyətində qalıb.

Bu açıqlamanın əsas motivlərindən biri daxili auditoriyaya yönəlib. Ermənistan daxilində hələ də köhnə “xunta rejiminin” qalıqları və revanşist dairələr mövcuddur. Paşinyan bu bəyanatla göstərməyə çalışır ki, onların illər boyu əsaslandıqları Minsk qrupu konsepsiyası, əslində, boş ümid imiş. Bu, daxildə həm siyasi rəqiblərə siqnal, həm də cəmiyyətin fikrini Qərbə inteqrasiya kursuna kökləmək üçün atılmış addımdır.

Eyni zamanda Paşinyanın çıxışı Qərbə ünvanlanmış mesaj xarakteri daşıyır. O, Vaşinqtonda imzalanmış sənədlərə istinad etməklə göstərir ki, Ermənistan artıq sülh gündəliyinə daha yaxın dayanır. Burada məqsəd həm ABŞ və Avropa İttifaqı ilə münasibətləri möhkəmləndirmək, həm də regionda yeni geosiyasi reallıqları qəbul etdiyini nümayiş etdirməkdir.

Nəticə etibarilə, Paşinyanın “gecikmiş etirafı” yalnız reallığın qəbul olunması deyil, həm də siyasi zərurətdən doğan bir addımdır. O, bu bəyanatla həm beynəlxalq aləmə, həm də daxili siyasi rəqiblərinə mesaj verir. Amma mahiyyət etibarilə bu, artıq gecikmiş bir bəyanatdır – çünki Minsk qrupunun sıradan çıxması Azərbaycan və region üçün çoxdan fakt idi. Ermənistan rəhbərliyi isə indi yalnız gecikmiş peşmançılığın dadını yaşayır.



# İmkanı uğura çevirmək modeli

## Azərbaycanın sülh siyasəti bölgəni sabitliyə və tərəqqiyə aparır

**Dünya gündəmi, yeni reallıqlar, “böyük güclər”in dəyişən mübarizə üsulları və bu müstəvidə Azərbaycanın özünütəsdiq və qlobal çağırışlara cavab vermək qabiliyyəti. Qərbi Kaspi Universitetinin professoru, politoloq Fikrət Sadıxovla söhbətimiz bu və digər mövzular ətrafındadır.**

**– Fikrət müəllim, əvvəlcə dünyada baş verən qlobal dəyişikliklər və bu dəyişikliklərin fonunda Azərbaycanın yerinə və mövqeyinə nəzər yetirmənizi istərdik...**



– Onu qeyd edim ki, geosiyasi dəyişikliklər və xüsusilə də təhlükəsizliklə bağlı dünya birliyinin narahatlığı beynəlxalq münasibətlər sistemində yeni reallıqlar formalaşdırıb. Belə mürəkkəb və çoxqütblü vəziyyətdə hər bir dövlət üçün, təbii olaraq, müstəqil və çevik xarici siyasətin aparılması ön plana çıxır. Bu isə milli maraqların effektli müdafiəsi ilə bağlıdır. Azərbaycanın xarici siyasəti məhz bu nöqteyi-nəzərdən atdığı diplomatik addımlar, rəsmi Bakının yürütdüyü kurs praqmatik düşüncəyə və milli maraqların müdafiəsinə söykənir. Bu yanaşma ölkəmizə beynəlxalq səhnədə böyük uğurlar gətirib. Azərbaycan etibarlı tərəfdaş kimi mövqeyini gündən-günə möhkəmləndirir. Ölkəmiz, eyni zamanda Avropanın enerji təhlükəsizliyinin təminatında önəmli rol oynayır, Asiya ilə əlaqələrini genişləndirir, Türk dünyası ilə inteqrasiyanı daha da dərinləşdirir. Və dünya birliyi bunu yüksək qiymətləndirir. Xarici diplomatiyamızın əsas cəhətlərindən biri məsələlərə və subyektlərə balanslaşdırılmış, praqmatik yanaşmadır. Biz bu siyasətimizin nəticəsində böyük dövlətlərlə, nüfuzlu beynəlxalq təşkilatlarla daha yaxın münasibətlər qurmuşuq. Bunun ən bariz nümunəsi kimi Prezident İlham Əliyevin Pekinə dövlət səfəri zamanı Azərbaycan və Çin arasında strateji tərəfdaşlıq haqqında sənədin imzalanmasını göstərə bilərik. Bəli, Çin Azərbaycanı Cənubi Qafqazda özünün sabit və etibarlı tərəfdaşı kimi qəbul edir, dünyanın digər “böyük gücləri” də ölkəmizlə hesablaşırlar.

**– Ötən ilin dekabrında AZAL-ın sərnişin təyyarəsinin vurulmasından sonra gərginləşən Azərbaycan–Rusiya münasibətləri hələ də normal məcraya düşməyib. Siz bu məsələnin “razvyazka”sını necə görürsünüz?**

– Azərbaycanın xarici siyasət kursunun digər, həm də çox vacib aspekti qonşu ölkələrlə münasibətlərdir. Aydın məsələdir ki, bu münasibətlər qarşılıqlı hörmət və anlaşma əsasında qurulur. Bu mənada İran Prezidenti Məsud Pezeşkianın Azərbaycana səfərini misal göstərə bilərik. Bu tarixi səfərin baş tutması faktının özü ikitərəfli münasibətlərdə yeni bir səhifənin açıldığına dəlalət edir. Həmin səfər zamanı Bakıda imzalanan sənədlər ondan xəbər verir ki, iki qonşu ölkə və dövlət başçıları arasında qarşılıqlı etimad həm yüksəlib, həm də dərinləşib. Bu kontekstdə Azərbaycan–Rusiya münasibətlərinə toxunmamaq mümkün deyil. Dediyiniz kimi, keçən ilin dekabrından Moskva ilə ikitərəfli münasibətlərdə gərginlik zolağı başlanıb. Sərnişin təyyarəmizin Rusiya ərazisində vurulması və 38 nəfərin həlak olması çox ciddi hadisədir. Bu faciə ilə bağlı Bakının tələbləri və şərtləri beynəlxalq hüquq normalarına, eləcə də ikitərəfli münasibətlərin xarakterinə əsaslanır. Faciədə həlak olmuş və yaralanmış sərnişinlərə, onların ailələrinə təzminat ödənilməlidir. Bu cinayəti törədən şəxslər mütləq cəzalandırılmalıdır. Məqamına düşdüyü üçün yada salaq ki, beş il bundan əvvəl Ermənistan ərazisindən Azərbaycan sərhədinə yaxınlaşan hərbi helikopter vurulanda Bakı beynəlxalq hüquqa və ikitərəfli münasibətlərin ruhuna uyğun davranaraq, üzrxahlıq etdi və ekipajın ailələrinə təzminat ödədi. Münasibətlərdə gərginliyin ikinci mərhələsi Rusiyanın Yekaterinburq şəhərində azərbaycanlılara qarşı vəhşicəsinə həyata keçirilən həbslər və bu zaman iki soydaşımızın ölümündən sonra başladı. Polisin soydaşlarımıza qarşı zorakılığa yol verməsini əks etdirən videogörüntülər də yayımlandı. Bu hərəkətlərdən sonra münasibətlərin normallaşmasından necə danışa bilərik? Təbii ki, Azərbaycan da adekvat addımlar atmalı oldu. Bunlar hamıya məlumdur.

**– İkitərəfli münasibətlərin yumşalması yönündə Rusiya hökumətinin bəzi rəsmilərinin, Dövlət Duması üzvlərinin, hətta XİN rəsmisinin açıqlamalarında pozitiv təşəbbüslər hiss olunmaqdadır. Amma Kreml hələ də susur...**

– Son günlər Rusiya baş nazirinin müavini Aleksey Overçukun açıqlamalarını da eşitdik. İki ölkə arasında iqtisadi əlaqələrin yüksək səviyyədə olduğunu bildirən Overçukun “ev tapşırığı”nı yerinə yetirdiyi qənaətindəyik. Həmin rəsmilər yaxşı başa düşürlər ki, həm regionda, həm də beynəlxalq münasibətlər sistemində söz sahibinə çevrilmiş, aparıcı rola malik Azərbaycanla münasibətlərin pozulması özlərinin ziyanınadır. Onu da nəzərə alaq ki, Ukrayna ilə müharibə səbəbindən Rusiya ciddi sanksiyaların məngənəsindədir. Şimal qonşumuz həm də buna görə Azərbaycandan asılı vəziyyətdədir. Enerji potensialımızdan, iqtisadi-ticari dövriyyəmizdən yararlanan Rusiya bundan yalnız fayda götürür. Onların qorxusu Bakının bu münasibətləri də poza bilməsindəndir.

O ki qaldı Çində dövlət başçımızın Rusiya lideri ilə ayaqüstü salamlaşmasına, bunu böyük bir hadisə kimi qiymətləndirmək lazım deyil. Sadəcə, tədbirin protokoluna və diplomatik etiketə uyğun davranış qaydası idi. Kreml bir tərəfdən Azərbaycana qarşı ideoloji və siyasi hücumların təşkili ilə məşğuldur, digər tərəfdən isə iqtisadi amili qabartmağa çalışır. Hesab edirəm ki, Azərbaycan–Rusiya münasibətləri hələ bir müddət gərgin olaraq qalacaq. Çünki 8 avqust Vaşinqton görüşü, burada Azərbaycan və Ermənistan tərəfindən sülh sazişinin mətninin paraflanması Kremli kifayət qədər qıcıqlandırıb. Axı, Rusiya Bakı və İrəvanın Vaşinqton bəyannaməsindən sonra sülhə yaxınlaşması prosesindən kənarda qalıb. Moskva bu məsələyə zahirən normal yanaşdığını göstərsə də, əslində, başqa cür davrana bilmir. Çünki özü həmişə deyirdi ki, Cənubi Qafqazda sülhün və təhlükəsizliyin bərpa olunmasının tərəfdarıdır. Amma əsl mövqeyi hərdən aşağılayıcı siyasi ritorika, diplomatik ironiya ilə büruzə verməkdən də çəkinmir. Bunun ən parlaq nümunəsini Rusiya xarici işlər naziri Sergey Lavrov Beynəlxalq Əlaqələr İnstitutunun tələbələri ilə görüşdə nümayiş etdirdi. Kremlin əsas narazılığı Zəngəzur dəhlizinin (TRIPP) işə düşməsi prosesində ABŞ-ın yaxından iştirak etməsidir. Rusiya rəhbərliyi hesab edir ki, 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın imzalanmasının təşəbbüskarı özü olub və bu marşrutun reallaşmasında iştirak etməsindən ötrü əlində kifayət qədər əsaslar mövcuddur. Sanki Moskva başa düşmür ki, həmin bəyanatı imzalamaqla müharibədə hücumu dayandıran, Ermənistana möhlət verən tərəf Azərbaycandır. İrəvan bizim müəyyən tələblərimizi yerinə yetirəcəyi barədə yazılı öhdəlik götürüb. Bəli, sonradan birgünlük antiterror əməliyyatı ilə ərazilərimiz üzərində nəzarəti və suverenliyimizi tam bərpa etdik, rus sülhməramlılarını da Qarabağdan yola saldıq. Danılmaz həqiqət bundan ibarətdir.

**– Rusiya son günlər Ermənistana iqtisadi rıçaqlardan istifadə etməklə təzyiqi artırıb. Bu təzyiqlərin səbəbləri barədə nə deyərdiniz?**

– Əlbəttə, Rusiya hansısa icarədar şirkətin timsalında ABŞ-ın bölgədə, konkret olaraq Ermənistanda mövcudluğu ilə barışmaq istəmir. Çünki yaxşı anlayır ki, bu baş verəcəyi təqdirdə, onların Cənubi Qafqazda təsir dairəsinə ciddi zərbə dəyəcək. Məhz buna görə Kreml Ermənistana qarşı təzyiqi xeyli gücləndirib. Bu təzyiqlər xüsusilə ticari-iqtisadi sahələrdə açıq müşahidə olunmaqdadır. Məlum səbəblərdən təzyiqlərin hələ bir müddət davam edəcəyinə əminəm. Amma, eyni zamanda başqa bir reallıq da var. O da ondan ibarətdir ki, sülh təşəbbüsünü əlinə alan ABŞ kifayət qədər güclü dövlətdir. Və Ağ Evin bu məsələyə yanaşması və tutduğu mövqeyi qəti, birmənalı və prinsipialdır. Sözümüzü ona gətiririk ki, dünyanın “supergücü” ilə zarafat eləmək, onunla qarşıdurma vəziyyətinə düşmək Rusiyanın maraqlarına qətiyyən cavab vermir. Hesab edirəm ki, rəsmi Moskvanın bölgədə baş verənlərə skeptik yanaşmasına baxmayaraq, indiki şəraitdə bu istiqamətdə ABŞ-a qarşı heç bir addım ata bilməz.

**– Şimal–Cənub, Orta Dəhliz layihələri ətrafında müzakirələr səngimək bilmir. Bu zaman bütün tərəflər Azərbaycanın bu nəqliyyat şəbəkəsində oynadığı önəmli rolu etiraf edirlər...**

– Çünki hamı reallığı görür və anlayır ki, Azərbaycan regional nəqliyyat və tranzit layihələrinin reallaşmasında çox vacib rol oynayır. Orta Dəhliz vasitəsilə daşınan yüklərin həcmi ilbəil artmaqdadır. Bu, faktiki olaraq, Şərqlə Qərbi birləşdirən olduqca əhəmiyyətli bir marşrutdur. Onun ölkəmizin ərazisindən keçməsi nəinki regional, hətta qitələrarası inteqrasiyanın genişləndirilməsi deməkdir. Burada Bakı limanı, Bakı–Tbilisi–Qars dəmir yolu, eləcə də digər infrastruktur layihələr həm Azərbaycanın logistik imkanlarını yüksəldir, həm də Avrasiya qitəsində ölkəmizi nəhəng nəqliyyat habına çevirir. Dünyanın aparıcı dövlətlərinin etiraflarına görə, Azərbaycan hazırda enerji və nəqliyyat sektorlarında özünün etibarlı tərəfdaş statusunu təsdiqləyib. Mövzuya onu da əlavə etmək istərdim ki, dünyada çoxqütblü nizamın formalaşması fonunda “orta güc” düşərgəsinə mənsub dövlətlərin mövqeləri güclənməkdədir. Ümumi siyasi balansın formalaşmasında bu dövlətlərin rolu daha qabarıq şəkildə özünü göstərir. Dünyanın siyasi mənzərəsinə baxdıqda görürük ki, qlobal oyunçularla yanaşı, “orta güc” sabit inkişafa, əməkdaşlığa meyilli, dünyanın çağdaş gündəliyinə təsir göstərmək imkanına malikdir. Azərbaycan da özünü “orta güc” kimi təsbit etmiş, özünün müstəqil xarici siyasətini yürüdən dövlətlərdəndir. Müasir dövrdə əməkdaşlıq və tərəfdaşlığın birtərəflilik prinsipi aktuallığını itirib. Gündəmə çoxvektorlu xarici siyasət modelləri daxil olub. Bunlar, ilk növbədə, milli maraqların qorunmasında mühüm vasitəyə çevrilirlər. Azərbaycan çoxvektorlu modeli prioritet seçdiyini Laçında düzənlədiyi üçtərəfli sammitlə bir daha təsdiqlədi. Türkiyə və Pakistan liderlərinin iştirak etdiyi bu görüş həm də Bakının irəli sürdüyü yeni bir formatdır. Təcrübə göstərir ki, məhz bu format qarşılıqlı etimad və ümumi maraqlar əsasında güclü ittifaqların yaranmasını şərtləndirir. Yəni regional çağırışlara birgə və effektiv reaksiya iqtisadi, siyasi və humanitar əlaqələrin möhkəmlənməsi ilə paralel baş verir. Bu müstəvidə Azərbaycan–Türkiyə münasibətləri əlahiddə əhəmiyyət kəsb edir. Biz daim yanaşıyıq, Bakı və Ankara arasında yüksək təmasların intensivliyi bölgədə sabitliyin və tərəqqinin əldə olunması üçün ən ümdə amildir.

***Söhbəti qələmə aldı:***
***İmran BƏDİRXANLI***
***XQ***

# “Sülh bazarı”

(əvvəli 1-ci səhifədə)

Əslində, A.Simonyan, bütövlükdə erməni cəmiyyətinin anlamağı olduğu mühüm reallığa diqqət çəkib və onun kimi yüksəkvəzifəli birinin məsələdən söz açması təqdirəlayiqdir. Ümumən, Simonyanın açıqlamasını pozitiv qiymətləndirmək mümkündür.

Bəli, Azərbaycana Ermənistanın bir daha işğalçılığa köklənməyəcəyinə, torpaqlarımıza qəsb reallaşdırmayacağına dair real təminat lazımdır. Əslində, rəsmi Bakının İrəvanla sülh müqaviləsinin imzalanması üçün irəli sürdüyü iki şərt də məhz bundan qaynaqlanır.

Özündə münaqişə məntiqini və ərazilərimizin işğalına leqallıq qazandıran ATƏT-in Minsk qrupu fəaliyyətini rəsmən dayandırıb. İndi qalır Ermənistan konstitusiyasının dəyişdirilməsi, daha doğrusu, sənədin İstiqlaliyyət Bəyannaməsinə istinadının aradan qalxması. İstinad isə ona görə aradan qalxmalıdır



ki, bəyannamədə müstəqil Ermənistanın formalaşması üçün əsaslardan biri qismində ölkənin ərazisində mövcud olmayan keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Milli Şurası deyilən saxta orqanın qondarma qərarı götürülür. Dərindən düşünəndə, bu, Ermənistanın özünə də ziyanlı haldır və anormaldır.

A.Simonyan isə açıqlamasında dolayısı ilə ziyanlardan uzaq durmağı və xeyirə can atmağı təbliğ edir. Bu barədə söz açacağıq. Hələlik isə spikerin sırf Azərbaycanın təminat istəyi xüsusunda daha nələri bildirdiyinə nəzər salaq. “Aydındır ki, Azərbaycan üçün hər hansı gələcək təhlükənin qarşısını almaq və məsələn, 50 və ya 100 ildən sonra nə isə baş verməsinə imkan verməmək vacibdir. Hər şey ola bilər”, - deyən parlament sədrinin örtülü şəkildə rəsmi Bakının irəli sürdüyü və haqqında söz açdığımız şərtin əsaslı olduğunu vurğuladığı aşkardır. Amma Simonyanın başqa diqqət yetirdiyi məqamlar da var.

Erməni spikerin sözlərinə görə, məsələ elə deyil ki, ermənilərin əksəriyyəti azərbaycanlı sərhədçiləri görmək istəsin. “Bu (görmək istəməmək – red.), pisdir, amma zamanla bu da ötüb keçəcək. Həmin o ermənilər və azərbaycanlılar Moskvada biznes qurur və dostluq edirlər. Eyni şey başqa ölkələrdə də baş verir. Gərginlik var, yaralar təzədir. Bəs biz, insanları öldürmədikmi? Azərbaycan tərəfdən insanlar ölmədimi? Etimadın bərpası dövründə məqsəd ünsiyyəti minimuma endirməkdir. Bu, o demək deyil ki, 5-10 ildən sonra belə bir zərurət olacaq”, - deyən Simonyanın dediklərindən gəlinən daha bir qənaət budur ki, qarşılıqlı etimadın bərpası üçün vacib olan məqam ticarətdir. Buna görə də erməni spiker kommunikasiya xətlərinin mümkün qədər tez açılmasının vacibliyini vurğulayarkən bildirib ki, “bu emosional məsələlər tez həll olunacaq”. Yəni yaraları sağaldan ticarət və gəlirlər olacaq…

Simonyanın nikbinliyinin növbəti fazası isə budur ki, o, çox qısa müddət ərzində ermənilərin və azərbaycanlıların ticarətlə məşğul olacaqlarını vurğulayıb: “Bizim ortaq bazarımız olacaq. Mağazalarımızda Azərbaycan məhsulları, Bakıda və Azərbaycanın digər şəhərlərində isə erməni məhsulları satılacaq. Bu, qaçılmazdır. Ermənilər də (Azərbaycanın – red.) benzinini almağa gedəcəklər. Çünki bu, sərfəlidir”.

A.Simonyan açıqlamasında Ermənistan üçün sərfəli yolun konturlarından da söz açıb və bu zaman “Tramp marşrutu” üzərində dayanıb. O marşrut ki, onu Azərbaycan Zəngəzur dəhlizi adlandırır. Söhbət Naxçıvana maneəsiz yoldan gedir. Erməni spikerin yolla bağlı izahı da maraqlıdır və daha çox daxili auditoriyaya hesablandığı aydındır. Belə ki, o, “Zvartnos” hava limanını idarə edən Argentina şirkətinin modelini misal gətirib. “Abstrakt desək, şərti olaraq enerji infrastrukturunun tikintisi ilə erməni şirkəti, dəmir yolunun tikintisi ilə isə başqa bir şirkət məşğul ola bilər. Bu məsələləri birgə Erməni-Amerikan təşkilatı həll edəcək”, - deyən Simonyan əlavə edib ki, hər şey beş məlum prinsip əsasında həyata keçiriləcək və həmin prinsiplərdən kənarda heç nə baş verməyəcək. Bilavasitə Naxçıvana yolda hərəkətə gəlincə: “Şərti olaraq, belə bir şey istisnadır ki, biz bilməyək Ermənistana bomba gətirilir və o, yolun ortasında partlayar. Ermənistan hansı yüklərin daşındığını biləcək. Bunlar texniki məsələlərdir. İndi skanerlər və başqa texniki vasitələr mövcuddur”.

Əlbəttə, istər Simonyan, istərsə də başqa hansısa erməni tam əmin ola bilər ki, Naxçıvana yolda bomba daşınmayacaq. Təkcə ona görə yox ki, elə bir niyyətimiz yoxdur. Həm də o səbəbdən ki, bomba lazım olsa, alternativ marşrutlarımız var. Çox güman, Simonyan da məsələyə sırf təhlükəsizlik nöqteyi-nəzərdən izah verir və sadəcə arqument gətirir. Onun arqumentinin nə dərəcədə yerində olduğuna münasibət bildirmək istəməzdik, əsas odur ki, erməni spiker gələcəyə pozitiv baxır və bu bu məqamı vurğuladıq.

Sonda onu da deyək ki, A.Simonyanın açıqlaması bir el misalımızı xatırladır – avazın yaxşı gəlir, oxuduğun Quran olsa. Əlbəttə, demək istəmirik ki, erməni spiker fikirlərində qeyri-səmimidir. Bunu ölçəcək hansısa cihazımız da yoxdur. Başlıca məsələ Azərbaycanla Ermənistan arasında inam və etimadın yaranmasıdır. Bu yerdə Simonyanın lap əvvəldə səsləndirdiyi fikirlərə diqqət yetirək. Çünki, o, sanki oxu atıb yayı gizlədən ampluasındadır.

Məsələ ondadır ki, Azərbaycan torpaqlarını işğal edən, bir milyona yaxın soydaşımızı öz doğma yurd-yuvasından didərgin salan, onları olmazın məşəqqətlərə sürükləyən, otuz ilə yaxın müddətdə işğalı davam etdirən Ermənistan olub. Bu o deməkdir ki, Azərbaycana təcavüzün təkrarlanmayacağına dair maksimum təminatı erməni xalqı verməlidir. Təminat verməlidir ki, Azərbaycanla Simonyanın arzuladığı və təsəvvüründə canlandırdığı sərfəli ticarət reallaşsın, kiçik Ermənistan, ən azından, Azərbaycan kimi böyük bazar əldə etsin. Nəzərə alaq ki, bu bazarın daha böyük perspektivləri var.

Ən sonda onu da bildirək ki, A.Simonyanın təmsil olunduğu iqtidar komandası üçün 2026-cı ilə qədər vaxt var. Bu iqtidar spikerin müştərək bazar anlayışının nə demək olduğunu, hansı fayda və mənfəətlər gətirəcəyini erməni cəmiyyətinə anlatmalıdır. O şəkildə anlatmalıdır ki, ölkədəki revanşist və şovinistlərin meydana başqa siyasi gündəlik daşımaq cəhdləri iflasa uğrasın. Nəhayət, o şəkildə anlatmalıdır ki, erməni xalqı referendumda konstitusiya dəyişikliyinə “hə” desin.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Seçkiqabağı “güc” nümayişi

(əvvəli 1-ci səhifədə)

Trampın imzasını qabartmaq, eyni zamanda Ermənistan cəmiyyətində “güclülərin himayəsi altında olmaq” təsəvvürünü yaratmaq üçün istifadə olunan vasitə kimi qiymətləndirilə bilər. Paşinyanın parlamentdəki çıxışı zamanı diqqətçəkən daha bir məqam onun TRIPP layihəsinin Ermənistan–ABŞ arasında ikitərəfli müzakirə mövzusu olduğunu vurğulamasıdır. Baş nazir layihəni “ABŞ–Ermənistan gündəmi” kimi təqdim etməklə həm də daxili auditoriyaya İrəvanın artıq Moskvanın asılılığından qoparaq Qərbin siyasi dəstəyini qazandığını göstərir. Bu, onun seçkiqabağı mövqeyini möhkəmləndirmək üçün vacibdir. Çünki erməni cəmiyyətində Rusiyadan narazılıq getdikcə artır.

Paşinyanın ritorikasında müəyyən manipulyativ elementlər də var. O, layihənin regional çərçivədə Azərbaycanla bağlılığını etiraf etsə də, Ermənistan prosesin “mərkəzi fiqurudur” obrazını formalaşdırmağa çalışır. Halbuki bu tip layihələrin mahiyyəti regional əməkdaşlıqdan keçir və Ermənistanın mövqeyi təkbaşına həlledici deyil. Paşinyan Ermənistanı zəif və təcrid olunmuş ölkə imicindən xilas etmək istəyir. Bundan başqa, o, çıxışında ABŞ Prezidenti Donald Trampla Ermənistanın “Dünyanın kəsişməsi” layihəsinin inkişafı ilə bağlı niyyət protokolunu imzaladıqlarını da vurğulayıb. Bununla ABŞ-ın ölkəsinə investisiya qoymaqda maraqlı olduğu mesajını verir.

Baş nazirin erməni cəmiyyətində nüfuzunun aşağı düşməsinin səbəbini yalnız bir amillə izah etmək mümkün deyil. Proses həm daxili, həm də regional kontekstdə dəyərləndirilməlidir. Ən önəmli səbəb İkinci Qarabağ müharibəsindəki ağır məğlubiyyətdir. Müharibə sonrası erməni ictimaiyyəti Paşinyanın ölkənin təhlükəsizliyini qorumaqda yetərsiz olduğunu düşünürlər. Daxili iqtisadi və sosial problemlər də Paşinyanın reytinqinin düşməsində həlledici rol oynayır. Müharibədən sonrakı dövrdə Ermənistan iqtisadiyyatı ciddi böhranla üzləşdi – inflyasiya yüksəldi, işsizlik artdı, sosial xidmətlərin səviyyəsi aşağı düşdü. Bu, xüsusilə gənc və fəal seçici qrupunda məyusluq yaratdı. Baş nazirin xarici siyasət kursu onu erməni ictimaiyyətinin “istənməyən” liderinə çevirdi. Paşinyanın Rusiya ilə münasibətləri gərginləşdirməsi və Qərbə yaxınlaşma cəhdləri müəyyən qruplar, xüsusilə sovet dönəmi təhlükəsizlik paradiqmasına öyrəşmiş ictimaiyyət tərəfindən narazılıqla qarşılandı. Bu, baş naziri həm daxildə, həm də regional səhnədə riskli marionet kimi tanıtdı. Cəmiyyətin bir hissəsi onu “milli maraqları kifayət qədər qorumayan lider” kimi dəyərləndirdi və bu rəy zamanla seçicilər arasında geniş yayıldı. Paşinyanın siyasi idarəetmə üslubu və kommunikasiya tərzi də onun nüfuzunu zəiflətdi. Müxalifətlə dialoqda bəzən sərt və ya laqeyd mövqedə dayanması, parlamentdə qərarların açıqlığı və şəffaflığın yetərli olmaması, eləcə də kritik məsələlərdə informasiya çatışmazlığı ictimaiyyətin narazılığına səbəb oldu. Məlumatlı və fəal seçici qrupları arasında Paşinyanın dəstəkçiləri azaldı.

Ermənistan daxilində baş nazirin kommunikasiya və yanlış media strategiyası barədə də fikir ayrılıqları mövcuddur. Paşinyan müasir media alətlərindən istifadə etməyə çalışsa da, informasiyanın auditoriyaya düzgün ötürülməməsi və ya ziddiyyətli ritorikanın meydana çıxması onun imicinə mənfi təsir göstərir. Həmçinin xarici layihələr və beynəlxalq protokolların mahiyyətini cəmiyyətə aydın şəkildə çatdıra bilməməsi, seçici üçün real nailiyyətləri göstərə bilməməsi də baş nazirə qarşı artan narazılığın səbəblərindəndir. Paşinyan vəziyyəti yumşaltmaq üçün mövcud narazılığı yumşaltmağa çalışır. O deyir ki, siyasət, diplomatiya və beynəlxalq münasibətlər sistemində tərəflər öz narahatlıqlarını bölüşür və problemi aradan qaldırmaq və ya minimuma endirmək üçün əməkdaşlıq yollarını axtarırlar. Daim tənqid atəşinə tutulan və vaxtilə ölkəsindəki narahatlıqları heçə sayan Paşinyanın bu fikirləri söyləməsi kənardan hər nə qədər gülünc görünsə də, gələcək perspektivdə müsbət tendensiyaya çevriləcəyi sezilir.

Sonda qeyd edək ki, Paşinyanın zəifləmiş nüfuzunu bərpa etmək üçün parlamentdə pozitiv çıxışlarla gündəmə gəlməyi, TRIPP layihəsi və ABŞ ilə əməkdaşlıq kimi təşəbbüslərin qabardılması ictimaiyyətdə həm daxildə, həm də xaricdə “hər şeyin nəzarət altında olduğu” təəssüratını yaratmaq məqsədi daşıyır. Görünür, seçkilərə qədər parlamentdən Paşinyanın gur səsli çıxışları hələ çox eşidiləcək...

***Nəzrin ELDARQIZI***
***XQ***

### Ekspert rəyi



**Oğuz MİRZƏYEV,**
**Beynəlxalq Avrasiya Mətbuat Fondunun vitse-prezidenti**

Paşinyanın parlamentdə səsləndirdiyi çıxışında TRIPP layihəsinə xüsusi yer ayırması təsadüfi deyil. O, Vaşinqton Bəyannaməsini təqdim edərkən sənəddə həm ABŞ, həm də Azərbaycan prezidentlərinin imzasını qabartdı. Bu, bir tərəfdən Ermənistanın daxili auditoriyasına "biz regionda təcrid vəziyyətində deyilik" mesajı vermək məqsədi daşıyır. Digər tərəfdən isə onun seçkilər ərəfəsində siyasi imicini möhkəmləndirməyə hesablanıb. Obyektiv reallıq ondan ibarətdir ki, Azərbaycan və Ermənistan Vaşinqtonda bir daha bir-birinin ərazi bütövlüyünü və suverenliyini tanıyıblar. Bu, region üçün strateji dönüş nöqtəsidir. Paşinyan isə TRIPP layihəsini Ermənistan–ABŞ münasibətlərinin ikitərəfli formatı kimi təqdim etməyə çalışır. Halbuki layihənin təməli regional xarakter daşıyır və onun uğuru kommunikasiyaların açılması ilə birbaşa bağlıdır.

Paşinyanın ritorikasında diqqətçəkən daha bir paradoks var. O, həm Azərbaycanın bu layihəyə inteqrasiyasını etiraf edir, həm də bunu daxili auditoriyaya Ermənistanın “müstəqil təşəbbüsü” kimi göstərməyə çalışır. Ancaq şübhəsiz ki, Ermənistanın kommunikasiya xətlərinin davamlılığı razılaşmaya əməl etməklə və regionun bütöv nəqliyyat şəbəkəsinə qoşulmaqla təmin oluna bilər. TRIPP layihəsi regionda gələcək təhlükəsizliyi, qarşılıqlı etimadı və hətta geosiyasi balansı formalaşdıracaq strateji alətdir. İstənilən halda Ermənistanın populist şüarları daxili auditoriya üçün qısamüddətli təsir yarada bilər, lakin real nəticə gətirməz. Hazırkı mərhələdə əsas sual odur ki, Paşinyan bu çıxışları yalnız seçkilərqabağı reytinq toplamaq üçün edir, yoxsa həqiqətən də Ermənistan adına regionun sabitliyinə yönəlmiş liderlik nümayiş etdirmək istəyir? Cavab isə yaxın aylarda atılacaq konkret addımlarda görünəcək və həmin addımlar Ermənistanın gələcək geosiyasi mövqeyini müəyyən edəcək.

# Konstitusiya və suverenlik: müasir müstəqil Azərbaycan dövlətçiliyi kontekstində




### III məqalə

**Dövlət müstəqilliyi, ərazi bütövlüyü və xalqa ləyaqətlə xidmət Konstitusiyanın Preambulasında dövlətin müstəqilliyi, ərazinin bütövlüyü və xalqa ləyaqətli xidməti özündə ehtiva edən 4 konstitusion niyyət əksini tapmışdır. Onlar aşağıdakılardır:**

*1. "Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq;*

*2. Vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq;*

*3. Xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq;*

*4. Ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsini təmin etmək".*

Sonuncu bənddə vurğulanan şərtlərdən beynəlxalq miqyasda dövlətin və cəmiyyətin identikliyinin əsas qayəsi ifadə edilmişdir: "ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək".

Bu məqamın fəlsəfi anlamı çox mühümdür. Çünki həmin hissədə Azərbaycanın daxili suverenliyi ilə xarici suverenliyini vahid məntiqi müstəviyə gətirən başlıca faktor yığcam vurğulanmışdır. Həmin faktor xalq suverenliyinin yalnız substantiv deyil, həm də funksiya aspektində dövlətin daxili və xarici suverenliyinin təməlini təşkil etməsi ideyası ilə bağlıdır. Konstitusiyada vurğulanan "vətəndaş cəmiyyəti", "xalqın iradəsi" və "ədalətli iqtisadi və sosial qaydalar" terminlərinin məzmunca qarşılıqlı münasibətlərinin başlıca siyasi, hüquqi və sosial mənasını bu məqam təşkil edir. Ümumi nəzəri səviyyədə bu, Konstitusiyada xalq suverenliyi, dövlət suverenliyi, ali təsisedici sənəd statusu və ictimai münasibətlərin tənzimlənməsi aspektlərinin vəhdəti kimi ifadə olunmuşdur.

Konstitusiyanın bu cür yüksək daxili məntiqi ziddiyyətsizliyi həm də onun praktiki səmərəsinin bazasını yaradır! Azərbaycan Respublikası dövlətinin fəaliyyət təcrübəsi bu qiymətli keyfiyyətin real mövcudluğunu əldə edilən qələbələr timsalında sübut etməkdədir.

Özlüyündə hər bir müstəqil dövlət üçün müstəqillik, suverenlik, ərazi bütövlüyü kimi məsələlərin xalqa (yəni cəmiyyətə, topluma) ləyaqətlə xidmət etməklə ziddiyyətsiz vəhdəti arxiaktualdır. Burada hüquqi "ölçülməsi" çox çətin olan "ləyaqətli xidmət" termininin hər bir nümunədə özəl məzmun alması kimi vacib məsələ də unudulmamalıdır. Çünki "ləyaqət" etik anlayışdır, ona siyasi-hüquqi anlam vermək ayrıca prosesdir. Burada cəmiyyətin təkamülünün tarixi ənənəsi ilə yanaşı, müasir siyasi-elmi kriteriyalara görə "ləyaqətli xidmət"in nə demək olduğu da müəyyən olunmalıdır. Azərbaycan Respublikasının 1993-cü ilin iyunundan başlayaraq keçdiyi yol göstərir ki, Ulu öndər bu vəzifənin də öhdəsindən yüksək səviyyədə gəlmişdir.

İndi hər kəsə aydındır ki, xalqa ləyaqətli xidmət hər bir Azərbaycan vətəndaşı üçün Azərbaycançı olmaq çərçivəsində multikultural dəyərlərə üstünlük vermək, milli adət-ənənələrə və müstəqil dövlətçiliyə istənilən şərtlər daxilində sədaqətli olmaq, Vətənsevər olmaq, ölkənin, dövlətin, cəmiyyətin müdafiəsinə həmişə hazır olmaq kimi əhəmiyyətli keyfiyyətləri özündə ehtiva edir. Dövlətin başçısı üçün bu məsələ xüsusi və dəqiq müddəalarla müəyyən edilmişdir. Azərbaycan dövlət başçısı və liderinin fəaliyyəti baxımında olduqca əhəmiyyətli olan bu məqamın Konstitusiyada vurğulanmış iki ümumi müddəası üzərində dayanaq.

### "And içirəm..."

Azərbaycan Respublikasının Prezidenti seçilən şəxsin andının birinci bəndi aşağıdakı məzmuna malikdir: "Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirərkən Azərbaycan Respublikasının Konstitusiyasına əməl edəcəyimə, dövlətin müstəqilliyini və ərazi bütövlüyünü qoruyacağıma, xalqa ləyaqətlə xidmət edəcəyimə and içirəm".

Birincisi, Azərbaycan Respublikasının Konstitusiyasına əməl ediləcəyinə, ikincisi, dövlətin müstəqilliyi və ərazi bütövlüyünün qorunacağına, üçüncüsü, xalqa ləyaqətlə xidmət ediləcəyinə and içilir. Deməli, xalqa ləyaqətlə xidmətin dövlət müstəqilliyi və ərazi bütövlüyünün qorunması ilə vəhdətdə olması şərtinin ödənməsi təminatçısı Konstitusiyadır! Bu, elə təməl şərtdir ki, seçilən dövlət başçısı mütləq ona əməl etməlidir. Prezidentin Andının siyasi-hüquqi, sosial və mədəni-mənəvi "ağırlığı" bu şərtlə müəyyən olunur. Azərbaycan Prezidenti seçilən şəxsin birinci bəndlə bağlı məsuliyyəti əlini Konstitusiyaya basaraq həmin sözləri deməsində ifadə olunur. Bu, Andın siyasi, hüquqi və sosial aspektlərinin konstitusion şərtlər daxilində nəzərə alınması deməkdir. Yəni Azərbaycan Respublikası dünyəvi pinsipləri əsas tutan müstəqil dövlətdir!

Bu baxımdan Andın ikinci bəndi dövlətçilik və xalqa ləyaqətlə xidmətin qarşılıqlı münasibətlərinin məzmunu üçün başqa kontekstdə ciddi prinsipial əhəmiyyət daşıyır.

Andın ikinci bəndi belədir: "Azərbaycan xalqının əsrlər boyu yaratdığı milli mənəvi dəyərlərə və ənənələrə sadiq qalacağam, onları daim uca tutacağam". Bundan sonra Prezidentin "Qurani-Şərif"ə əl basması yalnız rəmzi məna kəsb etmir, həm də praktiki fəaliyyət üçün böyük məsuliyyəti qəbul etməyi ifadə edir.

Bu, Azərbaycan xalqının dövlətçilik həyatında mədəniyyət, mənəviyyat, əxlaq, törə, adət-ənənə, dil kimi faktorların yüksək səviyyədə rol oynadığının konkret nümunəsidir! Burada Prezident seçilən şəxsin məhz "Qurani-Şərif"ə əl basması İslamın, ümumiyyətlə, xalqın həyatında mental səviyyədə tutduğu yeri və oynadığı rolu təsbit edir.

Andiçmənin yekun mərhələsi çox əlamətdardır.

### "Gözümün qarası-ağı, Azərbaycan bayrağı"

Azərbaycan Prezidenti olan şəxs yalnız dövlət bayrağına təzim edir, onun qarşısında diz çökür! Bayraq hər bir Azərbaycan vətəndaşı kimi dövlətin başçısının da "gözünün qarası-ağıdır"! Bayraq elə bir müqqədəslik rəmzimizdir ki, ruhu qəlbimizdə, ideyası beynimizdə və məsuliyyəti çiynimizdədir. Bu mənada dövlətin başçısı bayrağı öpüb gözünün üstünə qoyur!

Onun üç ideyası – türkçülük, müasirlik və İslam, bizim üçün üç müqəddəs dəyərin, fikrin, dövlət və mədəniyyət fenomeninin pozulmaz vəhdətini ifadə edir. Türkçü olmağın mühüm aspektlərindən biri milli ilə bəşəriliyin yüksək sintezinin daşıyıcısı olmaq deməkdir, irqi ayrı-seçkilikdən uzaq vətən, yurd, xalq, millət sevər olmaq deməkdir. Türkçü olmaq Azərbaycanda hər bir insana hörmət, sayğıyla, dürüstlüklə və qardaş kimi baxmaq deməkdir. Türkçü olmaq Vətən uğrunda hər bir anlamda Şəhid olmağa hazırlıq səviyyəsinə yüksəlmək deməkdir!

Türkçü irqçi deyil, Vətənçidir, Bəşəridir, ailə, törə, yurd sevəndir! Türkçü əsl Azərbaycançıdır! Azərbaycanı sevməyən azərbaycanlı türkçü deyildir, əksinə, türkçülüyün düşmənidir. Əsl türkçü bəşəriliyi, mədəniyyəti, çalışqanlığı, dürüstlüyü və vətənsevərliyi milli ruhunda yaşatmağı bacarandır.

Müasirlik həmişə inkişafa hazır olmağı ifadə edir. Elə bir inkişafa ki, sivilliyə, dünyada meydana gələn yeni dəyərlərə, müxtəlif mədəniyyətlərə milliliyi gözləməklə açıq olmağı nəzərdə tutur. Müasirləşmək dünyanın inkişaf və yeniləşmə fəlsəfəsinin ruhunu özündə daşımaq anlamını verir.

İslam isə Azərbaycan insanının həmişə mədəniyyət, mənəviyyat, əxlaq, ailə kimi faktorlara üstünlük verməsinin ifadəsidir. Bayraqda Azərbaycan dövlətinin din amilinə yüksək qiymət verdiyi əks olunmuşdur. Azərbaycan xalqı və dövləti əbədi olaraq İslamı ən yüksəkdə tutacaqdır!

Vurğulanan məqamlar bizi özlüyündə Konstitusiyanın ictimai münasibətləri tənzimləyən güc kimi konseptual dərki məsələsi üzərində geniş dayanmağa gətirib çıxarır. Bunun bir tərəfi Konstitusiyanın özünün mahiyyəti ilə əlaqəlidirsə, digər cəhəti Azərbaycan dövlətçilik ənənəsinin özəlliyinə bağlıdır. Bu tezisin mənasını açmağa çalışaq.

### Dövlət və cəmiyyət: münasibətlərin Azərbaycan təcrübəsi

Bütövlükdə Azərbaycanda dövlətlə cəmiyyət arasında münasibətlərin üç hüquqla (qanunla) tənzimləndiyi haqqında mənbələr mövcuddur. Onların müəyyən qismi "Xalq" qəzetində dərc edilmiş məqalələrdə də əksini tapmışdır. Burada məsələyə Konstitusiya və suverenlik kontekstində qısa nəzər salmaq istəyirik.

Vurğulanan tənzimləyici və təsisedici hüquqlar - hökmdar hüququ, parlament (və ya Divan) hüququ və Yosun (və ya mamır) hüququdur. Türklər hüququ əsas olaraq ontoloji anlamda dərk etdiklərinə görə, vurğulanan hüquq sistemlərini (Əgər belə demək elmi cəhətdən korrektdirsə. Hərçənd bu prinsipial tezisi konseptual olaraq əsaslandırmaq gərəkdir, çünki dünya tədqiqatçıları adətən Roma hüquq sistemindən bəhs edirlər və Konstitusiya kontekstində türk hüquq sisteminin özəllikləri aydınlaşdırılmalıdır) həm də fərdi və kollektiv səviyyələrdə real mövcud olmanın təbii şərtləri kimi qəbul edirlər.

Hökmdar hüququ dövlət başçısının yaratdığı hüquqi dəyərləri əhatə edir. Bu, özünün təcəssümünü fərmanlarda, sərəncamlarda, əmrlərdə və başqa uyğun sənədlərdə tapır. Parlament hüququnun əsasında birgəyaşam formasından asılı olmayaraq kollektivin təmsilçilərinin yaratdıqları qanunları əhatə edir. Yosun (mamır) hüququ isə xalqın (tayfanın, qövmün, cəmiyyətin, millətin) özünüyaratmasının ümumi qəbul edilən qanunlarını və bu anlamda xalqın hüququnu əks etdirir.

Azərbaycan dövlətçilik ənənəsində xalqın özünü yaratması qanunu (və ya hüququ) təməl rol oynamışdır. Yəni son məqamda Yosun hüququ hökmdar və parlament hüququnu müəyyən etmişdir. Cəmiyyətə verilən bu yüksək imtiyaz tarix boyu Azərbaycanın siyasi, sosial, mədəni və iqtisadi həyatında özəl dəyərlər formalaşdırmışdır. O cümlədən dövlət qurmaq anlayışına xüsusi çalar vermişdir. Onun hüquqi aspektdə ümumi mənası müasir mərhələdə "xalq suverenliyi" və "dövlət suverenliyi" anlayışlarında ehtiva olunmuşdur. Dövlətçiliyin geniş təsbiti kontekstində isə Konstitusiyada xüsusi anlamda işlədilməkdədir.

Beləliklə, tarixin hər bir dönəmində özəl məna çalarlarının meydana gəlməsi istisna olunmaqla, bütövlükdə xalqın hüququ, qanunu və özünütəşkiletmə fəlsəfəsi sosial-mədəni səviyyə ilə yanaşı, dövlət quruculuğu konteksti üçün də aparıcı olmuşdur.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

**Çin xalqının yapon təcavüzünə qarşı müqavimət müharibəsində və İkinci Dünya müharibəsində qələbənin 80 illiyi münasibətilə Pekində möhtəşəm hərbi parad təşkil olundu. Çin lideri Si Cinpinin rəhbərliyi ilə keçirilən bu tədbir sadəcə xatirə mərasimi deyildi. Bu, Çinin tarixi qurbanlarının dərin ehtiramı, sülhə sarsılmaz bağlılığının və qlobal miqyasda məsuliyyətli liderliyin bariz ifadəsi idi.**

# Qlobal sülhə sadiqlik nümayişi

Cənab Sinin paradda etdiyi çıxış həm təntənəli, həm də uzaqgörən xarakter daşıyırdı. O, dünyaya xatırlatdı ki, Çin xalqının İkinci Dünya müharibəsində göstərdiyi müqavimət ayrı-ayrı bir regional mübarizə deyildi, faşizmə qarşı qlobal döyüşün həlledici cəbhəsi idi. Çin xalqı nəhəng qurbanlar verdi – on milyonlarla insan həyatını itirdi, şəhərlər dağıdıldı, bütöv nəsillər dərin mənəvi və fiziki travmalar yaşadı. Bütün bunlar yalnız vətəni qorumaq üçün deyil, həm də bəşəriyyətin ortaq dəyərlərini müdafiə etmək üçün idi. Bu baxımdan, Çinin həmin müharibədəki rolu bu gün onun mənəvi nüfuzunun təməl daşlarından biri kimi qeyd edilməlidir.

Si Cinpin vurğuladı ki, tarix bir güzgüdür və keçmişin dərsləri gələcəyimizə yol göstərməlidir. Onun sözləri tarixi yaddaşsızlığın, keçmişin faciələrini təhrif etməyin və ya kiçiltməyin təhlükələri barədə xəbərdarlıq idi. Bəzi ölkələr hələ də tarixi həqiqətləri tam şəkildə qəbul etməkdən yayınsa da Çin daim səmimiyyətə, yaddaşın silinməzliyinə və barışığa çağırıb. Bu məqam Çinin beynəlxalq münasibətlərdəki yetkinliyini və mənəvi aydınlığını bir daha önə çıxarır. Odur ki, hərbi parad güc nümayişi deyil, sülhə ehtiram idi. Bu, Çin xalqının və onun silahlı qüvvələrinin belə faciələrin bir daha təkrarlanmamasına dair iradəsinin rəmzinə çevrildi. Tədbir təcavüz deyil, təntənə və birlik nümayiş etdirdi. Geosiyasi prizma ilə tez-tez qiymətləndirilən Çin Xalq Azadlıq Ordusu (ÇXAO) yalnız hərbi gücünü deyil, həm də həmrəyliyini, peşəkarlığını və sülhün qorunması, milli müdafiə ilə bağlı dərin missiya hissini ortaya qoydu.



**Mühəmməd Zamir ƏSSƏDİ,**
**Çin Beynəlxalq Mətbuat və Kommunikasiya Mərkəzinin media mükafatçısı**
**zamirasadi@gmail.com**

rixin ədalətli və doğru tərəfində dayanır. Bu, daha ədalətli və inklüziv beynəlxalq nizam axtaran ölkələrin böyük əksəriyyətinin mövqeyi ilə üst-üstə düşür.

Parad və Sinin müşayiətçi çıxışında həmçinin Çinin beynəlxalq ədalət və haqlılığın qətiyyətli müdafiəçisi kimi mövqeyi bir daha təsdiqləndi. Böyük güclər arasındakı rəqabətin qlobal idarəetməni tez-tez zəiflədiyi bir dünyada, Birləşmiş Millətlər Təşkilatını, beynəlxalq hüququ və mübahisələrin sülh yolu ilə həllini müdafiə edən Çinin ardıcıl mövqeyi getdikcə daha həyati əhəmiyyət kəsb edir.

Çinin mövqeyi passiv neytrallıq deyil, fəal sülh quruculuğudur. İqlim dəyişmələri ilə bağlı danışıqlardan tutmuş qlobal ictimai sağlamlığa, infrastrukturun inkişafından yoxsulluğun azaldılmasına qədər bir çox sahədə Çin məsuliyyətli qlobal tərəfdaş kimi irəli çıxıb. COVID-19 pandemiyası da daxil olmaqla qlobal böhranlara verdiyi cavab həmrəyliyin bariz nümunəsinə çevrildi. Beləliklə, Çin 150-dən artıq ölkə ilə tibbi ləvazimatları, vaksinləri və mütəxəssis potensialını bölüşdü.



Si Cinpin bir daha vurğuladı ki, sülh yolu ilə inkişaf Çinin milli strategiyasının mərkəzində yer alır. Tez-tez hərbi müdaxiləyə və birtərəfli sanksiyalara əl atan bəzi qlobal güclərdən fərqli olaraq, Çin dialoqu, qarşılıqlı hörməti və diplomatik həlləri müdafiə edir. Bu, sadəcə ritorika deyil. Praktiki müstəvidə Çin suverenliyin qorunmasına, daxili işlərə qarışmama prinsipinə və çoxtərəfli əməkdaşlığa daim önəm verir. Bu prinsiplər inkişaf etməkdə olan ölkələrlə və sülhsevər xalqlarla dərin rezonans doğurur. Cənab Si Cinpin bir daha vurğuladı ki, sülh yolu ilə inkişaf Çinin milli strategiyasının əsasını təşkil edir. Tez-tez hərbi müdaxiləyə və birtərəfli sanksiyalara əl atan bəzi qlobal güclərdən fərqli olaraq, Çin dialoqu, qarşılıqlı hörməti və diplomatik həlləri müdafiə edir. Bu, sadəcə ritorika deyil. Əslində Çin dəfələrlə suverenliyi, daxili işlərə qarışmama prinsipini və çoxtərəfli əməkdaşlığı önə çəkib. Bu prinsiplər isə inkişaf etməkdə olan ölkələr və dünyanın sülhsevər xalqları ilə dərin şəkildə səsləşir.

Münaqişə, proteksionizm və blok yanaşmalarının getdikcə daha çox üstünlük təşkil etdiyi beynəlxalq mühitdə Çin qlobal əməkdaşlığı təşviq etməkdə və hərbiləşmə dalğasına qarşı çıxmaqla prinsipial mövqeyini qoruyub. Məsələn, "Bir kəmər, bir yol" təşəbbüsü təkcə iqtisadi layihə deyil, həm də qitələr arasında əlaqələri, mədəni mübadiləni və ortaq rifahı təşviq edən sülh təşəbbüsüdür. Çinin beynəlxalq münasibətlərə yanaşmasının ən cəlbedici məqamlarından biri hökmranlıq deyil, diplomatiyaya üstünlük verməsidir. Müşahidəçilərin qeyd etdiyi kimi, Çin strateji məqsədlərinə zor gücü ilə deyil, danışıqlar və tərəfdaşlıq yolu ilə nail olmağın nümunəsinə çevrilib. Bu, Çinin regional mübahisələrin həllində fəal vasitəçi kimi çıxışında, sülh danışıqlarına dəstəyində və BMT sülhməramlı missiyalarına töhfəsində aydın görünür.

Birtərəfli sanksiyalar tətbiq edən və ya rejim dəyişikliyi siyasəti aparan güclərdən fərqli olaraq, Çinin yüksəlişi əsasən sülh yolu ilə baş verib. Çin nə ideologiya ixrac edir, nə başqa ölkələrin daxili siyasətinə qarışır, nə də kiçik dövlətləri itaətə məcbur edir. Əksinə, Çin konsensus əsasında qurur, milli suverenliyə və mədəni özünəməxsusluğa hörmət edən inkişaf modelini təqdim edir. Bu mövqe Çinə Qlobal Cənub ölkələrində geniş hörmət qazandırıb. Bir çox dövlətlər Çini öz arzularını və çətinliklərini anlayan tərəfdaş kimi görürlər. Si çıxışında vurğuladığı kimi, Çin ta-

Çinin gücü əsasən müdafiə və inkişaf xarakteri daşıyır. ÇXR sədrinin açıq şəkildə bəyan etdiyi kimi, Çin həm öz sülh yolu ilə inkişafını qorumaq gücünə malikdir, həm də qlobal sülhə töhfə vermək iradəsini daşıyır. Onun hərbi modernləşməsi ekspansionist məqsədlərə deyil, müharibənin qarşısını almağa və regional sabitliyi qorumağa xidmət edir. Bu fərq olduqca vacibdir. Çin rəhbərliyi yaxşı anlayır ki, həqiqi sülh silah üstünlüyü ilə deyil, ortaq rifah, etimad və qarşılıqlı hörmət yolu ilə mümkündür. Dünya getdikcə daha sıx inteqrasiya proseslərinə cəlb edildikcə bu vizyonun əhəmiyyəti də misilsiz dərəcədə artır. Beynəlxalq ictimaiyyət, xüsusən də ŞƏT, BRİCS və inkişaf etməkdə olan ölkələr Çinin sülh yolu ilə inkişafına artan dəstək ifadə edir. Onlar Çini təhdid kimi deyil, qarışıq bir dünyada sabitləşdirici qüvvə kimi görür. İstər Cənub-Cənub əməkdaşlığının təşviqində, istər humanitar yardımlara töhfədə, istərsə də çoxtərəfli əməkdaşlığın müdafiəsində Çin konstruktiv tərəfdaş kimi çıxış edir.

Prezident Sinin yerində söylədiyi kimi, sülh və inkişaf bəşəriyyətin ortaq arzularıdır. Çinin baxışı bu qlobal istəklə yalnız sözlərdə deyil, davamlı fəaliyyətdə də üst-üstə düşür. Onun sülh yolu ilə yüksəlişi təkcə müharibə dövrlərində yaşadığı təcrübələrdən irəli gələn tarixi zərurət deyil, həm də Konfutsi fəlsəfəsinə, sosialist dəyərlərə və beynəlxalq məsuliyyətə əsaslanan şüurlu strateji seçimdir.

Çinin faşist təcavüzünə qarşı qələbəsinin 80 illiyinə həsr olunmuş yubiley təkcə milli düşüncə anı deyil, həm də qlobal mesaj oldu. O, bir daha xatırlatdı ki, sülhü qazanmaq böyük qurbanlar hesabına başa gəlir və daim qorunmalıdır. Diplomatik fəaliyyəti, inkişaf təşəbbüsləri və tarixi yaddaşı vasitəsilə Çin sülhün, ədalətin və qlobal əməkdaşlığın müdafiəçisi rolunu davam etdirir.

Münaqişələr və rəqabət səbəbindən parçalanan bir dünyada Çinin mesajı aydın və inandırıcıdır: sülh yeganə yoldur və Çin bu yolu güc, müdriklik və sarsılmaz iradə ilə davam etdirəcək.

# TRIPP geniş dəstək qazanır




(əvvəli 1-ci səhifədə)

Energetika naziri Pərviz Şahbazovun Brendan Hanrahan ilə görüşü də Azərbaycan – ABŞ münasibətlərinin yeni mərhələyə qədəm qoyduğunu təsdiqlədi. Söhbətin əsas qayəsini 8 avqust tarixində Vaşinqtonda Prezident İlham Əliyev və ABŞ Prezidenti Donald Tramp arasında keçirilmiş tarixi görüşün nəticələri təşkil edib. Həmin danışıqların ikitərəfli münasibətlərə və bütövlükdə, regiona verdiyi strateji töhfələr, xüsusən də enerji əməkdaşlığını daha yüksək müstəviyə qaldırması diqqət mərkəzində olub.

Görüşdə enerji sahəsində sərmayələrin təşviqi, eləcə də regional bağlantıları möhkəmləndirəcək iri infrastruktur layihələri üzrə əməkdaşlıq imkanları müzakirə edilib. Bununla yanaşı, Azərbaycanla ABŞ arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması istiqamətində Strateji İşçi Qrupunun yaradılmasından irəli gələn məsələlər gündəmə gətirilib.

Azərbaycanın enerji təhlükəsizliyinə dair qlobal əhəmiyyətli layihələrinin həyata keçirilməsində ABŞ-ın xüsusi rol oynadığı vurğulanıb. Ölkəmizin Avropaya enerji təchizatında etibarlı tərəfdaş kimi çıxış etməsi fonunda Birləşmiş Ştatlarla bu sahədə əməkdaşlığın davamlılığının vacibliyi qeyd edilib. Bu çərçivədə Azərbaycanın uzunmüddətli tərəfdaşı "ExxonMobil" ilə quruda yeni layihələrin icrası müzakirə olunub. Paralel olaraq, "SOCAR Trading" vasitəsilə ABŞ bazarında mayeləşdirilmiş təbii qaz (LNG), xam neft və neft məhsullarının ticarətinə dair əməkdaşlığın mövcud vəziyyəti və gələcək perspektivləri nəzərdən keçirilib.

Göründüyü kimi, tranzit imkanları, rəqəmsal infrastruktur, süni intellekt, kibertəhlükəsizlik kimi sahələr ABŞ – Azərbaycan dialoqunda ana xətti təşkil edir. Bu, XXI əsrin tələblərinə cavab verən, gələcəyin inkişaf trayektoriyasını müəyyənləşdirən mövzuların gündəmdə olduğunu göstərir. Lakin danışıqların mərkəzində xüsusi yer tutan məsələ Orta Dəhliz və onun ayrılmaz hissəsi olan Zəngəzur dəhlizi (TRIPP) idi. Çünki məhz bu layihə Azərbaycanla ABŞ arasında iqtisadi və strateji əməkdaşlığı daha konkret müstəviyə daşıyır.

Məlumdur ki, Zəngəzur dəhlizinin fəaliyyətə başlaması Orta Dəhliz boyunca yeni nəqliyyat qolunun açılması baxımından böyük əhəmiyyətə malik olacaq. Bu gün dünyanın ən iddialı iqtisadi təşəbbüslərindən biri sayılan layihə Çini Avropa ilə müasir magistrallar, yüksəksürətli dəmiryol xətləri, enerji ötürücü xətlər, limanlar, boru kəmərləri və digər infrastruktur vasitələri ilə birləşdirməyi qarşısına məqsəd qoyub.

Layihə 65-dən çox ölkəni əhatə edir və dünya iqtisadiyyatının ümumi həcminin təxminən 40 faizini təşkil edən bir məkanı özündə birləşdirir. Dünya Bankının hesablamalarına görə, "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində dəhliz üzərində yerləşən 70 ölkəyə yatırılmış investisiyaların dəyəri artıq 575 milyard ABŞ dollarına çatıb.

Öz növbəsində, işğaldan azad edilən ərazilərimizdə yeni nəqliyyat infrastrukturunun qurulması, xüsusilə də Zəngəzur dəhlizinin işə düşməsi Orta Dəhlizin marşrut xəritəsinə əlavə güc verəcək, yeni nəqliyyat damarının formalaşmasına yol açacaq. Hazırda Azərbaycan dövlətinin həyata keçirdiyi transmilli enerji və nəqliyyat layihələrinin davamlı inkişafı Orta Dəhlizin potensialını yüksəldəcək, həm siyasi, həm də investisiya dəstəklərinin daha da genişlənməsinə təkan verəcək.

Zəngəzur dəhlizi (TRIPP) Avrasiyanın nəbzini sürətləndirən, Şərqlə Qərbi daha da yaxınlaşdıran yeni iqtisadi arteriyadır. Bu dəhlizin işə düşməsi ilə Orta Dəhlizin marşrutu qısalır, yükdaşımalar daha səmərəli olur, Cənubi Qafqaz isə qlobal logistika şəbəkəsinin əvəzsiz qovşağına çevrilir. Bu, Azərbaycanın illərdir apardığı məqsədyönlü siyasətin məntiqi nəticəsidir. Bakı – Tbilisi – Qars dəmir yolu, Ələt Azad İqtisadi Zonası, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kimi nəhəng layihələr məhz bu strateji baxışın ayrılmaz həlqələridir.

*Nurlan ABDALOV*
*XQ*

### Ekspert rəyi



**Elman SADIQOV,**
**iqtisadçı-ekspert**

**Yeni düzəndə ən vacib məqamlardan biri ticarət marşrutlarının və nəqliyyat dəhlizlərinin açılması, formalaşması və istiqamətlərinin müəyyən edilməsidir. Hazırda istər Yaxın Şərqdə, istərsə də Rusiyada baş verən proseslər Orta Dəhlizi daha çox gündəmə gətirir, onun aktuallığını artırır. Əslində, üç böyük dəhliz nəzərdə tutulmuşdur – Orta Dəhliz, Cənub Dəhlizi və Şimal Dəhlizi. Yəni Çin və Cənub-Şərqi Asiya ölkələrinin Avropa İttifaqına çıxışını təmin edən əsas üç marşrutdan söhbət gedir.**

Cənub Dəhlizi Yaxın Şərqdə baş verən hadisələr səbəbindən təhlükəsizlik məsələlərini ön plana çıxardı. Bütün güc mərkəzləri isə əslində Zəngəzur dəhlizinə (TRIPP) yaşıl işıq yandırıblar. Bu marşrutun ən böyük maneəsi, başqa sözlə desək, qırılan halqası Ermənistanın mövqeyi idi.

Artıq bu məsələ də həllini tapıb və gözlənilir ki, Zəngəzur dəhlizi 2026-cı ilin sonuna qədər istifadəyə verilsin. Bu isə o deməkdir ki, gələn ildən etibarən həm avtomobil, həm də dəmir yolu ilə yüklərin daşınmasına başlanacaq. Beləliklə, Qafqazın Türkiyə ilə əlaqələri daha da möhkəmlənəcək. Eyni zamanda dəhliz Ermənistanın Türkiyə və Avropaya birbaşa quru yolu ilə çıxışını təmin edəcək ki, bu da olduqca əhəmiyyətli məqamdır. Bundan əlavə, Şimal – Cənub dəhlizinin Türkiyə vasitəsilə Yaxın Şərqə çıxış imkanları da genişlənəcək.

Xüsusilə qeyd edilməlidir ki, Rusiya da bu dəhlizə qarşı ciddi etiraz irəli sürmür. Moskvanın əsas narahatlığı yalnız dəhlizə kimin nəzarət edəcəyi ilə bağlı idi. Lakin avqustun 8-də keçirilmiş Vaşinqton görüşündə Prezident Tramp bu məsələyə aydınlıq gətirərək mübahisələrə son qoydu. Nəticə etibarilə, Zəngəzur dəhlizi artıq daha çox iqtisadi məna kəsb edən strateji bir yol kimi formalaşır.

### Ekspert rəyi



**Eldəniz ƏMİROV,**
**iqtisadçı-ekspert**

**Zəngəzur dəhlizi yalnız Azərbaycan üçün deyil, bütün Avrasiya üçün mühüm əhəmiyyət daşıyır. Çünki o, Şərq – Qərb dəhlizinin mühüm bir seqmenti kimi çıxış edəcək. Eyni zamanda Şimal – Cənub dəhlizi də Azərbaycandan keçdikdən sonra dördüncü seqmentini təşkil edəcək.**

Hazırda bir xətt Mərkəzi Asiya respublikalarından keçir, digəri Xəzər dənizi üzərindən, üçüncüsü isə Azərbaycan ərazisindən keçir. Bundan əlavə, Azərbaycan üzərindən keçərək Zəngəzur dəhlizi vasitəsilə davam edən marşrut isə dördüncü seqment olacaq. Lakin məsələ ondadır ki, bu dəhlizlə bağlı açıq qalan suallar kifayət qədər çoxdur. Bu səbəbdən ABŞ, Ermənistan, Azərbaycan və digər maraqlı tərəflərin həm gizli, həm də açıq formatda müzakirələrinə ehtiyac var.

Hələ də cavablandırılmalı suallar çoxdur. Məsələn, dəhliz hansı xətlərdən ibarət olacaq? Yüklərin əsas hissəsi dəmir yolu ilə, yoxsa avtomobil yolu vasitəsilə mi daşınacaq? Neft, qaz və digər enerji resursları buradan keçəcəkmi? Hansı ölkələrin tranzit maraqları üstünlük təşkil edəcək? Gömrük və tarif mexanizmləri necə tənzimlənəcək? Deməli, Zəngəzur dəhlizinin gələcəyi ilə bağlı müzakirə olunmalı məsələlər hələ də çoxdur.

İstənilən halda, qalib ölkə kimi Azərbaycanın Zəngəzur dəhlizindən əldə edəcəyi iqtisadi dividendlər mövcud dövrdə regional inkişafa öz töhfəsini verəcək.

# Qlobal su böhranını cilovlamaq platforması

**Sentyabrın 11-də Bakı Su Həftəsi çərçivəsində Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin (ADSEA) təşkilatçılığı ilə 2-ci Beynəlxalq Su Təsərrüfatı Sərgi və Konfransı keçirilib.**

Konfransda çıxış edən ADSEA sədrinin birinci müavini Xəyyam Məmmədov su ehtiyatlarının idarə olunmasının artıq milli deyil, qlobal əhəmiyyət daşıyan məsələ olduğunu diqqətə çatdırıb.

Qeyd olunub ki, Azərbaycanda su resurslarının qorunması və səmərəli istifadəsi dövlət siyasətinin əsas prioritetlərindəndir: "Ölkəmizdə keçirilən genişmiqyaslı islahatlar və layihələr məhz bu məqsədə xidmət edir. Lakin biz yaxşı bilirik ki, su qıtlığı və iqlim dəyişimləri kimi çağırışlar yalnız bir ölkənin imkanları ilə həll edilə bilməz. Ona görə də əməkdaşlıq, təcrübə mübadiləsi və birgə təşəbbüslər xüsusi önəm daşıyır. Bu konfrans məhz belə bir platformadır - burada müzakirə ediləcək ideyalar və irəli sürüləcək təkliflər gələcək addımlarımıza istiqamət verəcək. Biz inanırıq ki, burada aparılacaq dialoq nəticəsində yeni tərəfdaşlıqlar formalaşacaq, su idarəçiliyi sahəsində regional və qlobal səviyyədə daha səmərəli həll yolları ortaya çıxacaq".




Konfrans çərçivəsində keçirilən "Su idarəetməsində liderlik: regional və qlobal perspektivlər" adlı panel müzakirələrində çıxış edən Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov bildirib ki, ölkəmizin su siyasəti strateji prinsiplərə əsaslanır və qəbul olunmuş Milli Su Strategiyası yaxın onilliklər üçün aydın hədəflər müəyyənləşdirir. Onun sözlərinə görə, bu sənəd su ehtiyatlarının ədalətli və rasional idarə edilməsini, infrastrukturun müasirləşdirilməsi və rəqəmsal texnologiyaların tətbiqini, alternativ və dayanıqlı su mənbələrinin inkişafını, eləcə də elm, innovasiya və beynəlxalq əməkdaşlığın gücləndirilməsini nəzərdə tutur.

Qeyd olunub ki, bu istiqamətdə yeni su anbarlarının tikintisi, suvarma sistemlərinin yenilənməsi, şəhər və kəndlərdə içməli su təminatının yaxşılaşdırılması üzrə genişmiqyaslı layihələr həyata keçirilir, rəqəmsal idarəetmə platformaları vasitəsilə su balansı, sərfiyyat və itkilər real vaxt rejimində izlənir. Agentlik sədrinin sözlərinə görə, ənənəvi mənbələr kifayət etmədiyi üçün alternativ həllərə – yağış sularının toplanması, təkrar istifadənin təşviqi və duzsuzlaşdırma texnologiyalarının tətbiqinə xüsusi diqqət ayrılır.

Diqqətə çatdırılıb ki, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, Kənd Təsərrüfatı, Ekologiya və Təbii Sərvətlər, Rəqəmsal İnkişaf və Nəqliyyat nazirlikləri, "Azərkosmos", eləcə də digər qurumların iştirakı ilə ölkəmizdə çaylardan, yeraltı və yerüstü su mənbələrindən başlayaraq son istehlakçıya qədər suyun balans və uçotunu əldə etməyə imkan verən elektron su təsərrüfatı informasiya sisteminin və coğrafi informasiya texnologiyalarına əsaslanan milli su atlasının yaradılması üzrə işlərə başlanılıb.

Kənd təsərrüfatı naziri Məcnun Məmmədov çıxışında bildirib ki, ölkəmizdə mövcud 1,4 milyon hektar suvarma sahəsinin, təxminən, 11 faizi müasir suvarma sistemləri ilə təmin olunub. Həmin göstəricinin həddindən artıq aşağı olduğunu vurğulayan nazir bu istiqamətdə daha çox təşviqlər irəli sürülməsinin, fermerlərin maarifləndirilməsinin vacibliyini diqqətə çatdırıb. Azərbaycanın su ehtiyatlarının 70 faizindən çoxunun ölkə xaricində formalaşdığını bildirən M.Məmmədov Beynəlxalq Təbii Ehtiyatlar İnstitutunun 2040-cı il üçün hazırladığı hesabatda quraqlıqdan əziyyət çəkəcək 33 ölkə siyahısında Azərbaycan 18-ci yerdə qərarlaşdığını söyləyib.

Su ehtiyatlarının azalmasının və quraqlıqların kənd təsərrüfatında suyun qənaətli istifadəsini zəruri etdiyini bildirən kənd təsərrüfatı naziri vurğulayıb ki, işğaldan azad edilmiş ərazilərdə selləmə suvarma tamamilə qadağan olunacaq: "Bu, gələcəkdə Azərbaycanda selləmə suvarmanın ölkə üzrə mərhələli şəkildə dayandırılması istiqamətində ilk addım olacaq. Biz müasir suvarma sistemlərinin geniş tətbiqi ilə həm suya qənaət etməli, həm də məhsuldarlığı artırmalıyıq".

Ölkəmizdə fermerlərə göstərilən ciddi dəstəkdən bəhs edən nazirin sözlərinə görə, avadanlıqların dəyərinin 80 faizə qədəri dövlət tərəfindən maliyyələşdirilir. Bildirilib ki, bu ildən etibarən yerli istehsal olan müasir suvarma avadanlıqlarının subsidiyalaşdırma səviyyəsi də 60 faizə çatdırılacaq.

Azərbaycan Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev çıxış edərək bildirib ki, su qıtlığı ilə bağlı risklərin qarşısını tam almaq mümkün olmasa da, dövlətlərin və beynəlxalq təşkilatların fəal iştirakı ilə adaptasiya planlarının hazırlanması vacibdir. Onun sözlərinə görə, artıq illərdir ki, Azərbaycan beynəlxalq təşkilatlar və maliyyə institutları ilə birlikdə bu məsələləri müzakirə edir, müxtəlif su layihələri həyata keçirir.

Hazırda Azərbaycanda buzlaqların əriməsi və qar ehtiyatlarının azalması prosesinin davam etdiyini diqqətə çatdıran nazirin sözlərinə görə, hər il Böyük Qafqaz və xüsusilə Kiçik Qafqaz dağlarına təşkil olunan ekspedisiyalar da bu gedişatı təsdiqləyir: "Dağlarımızda qar ehtiyatları ilbəil azalır, buzlaqlar isə əriməyə məruz qalır. Təəssüf ki, bu proses bütün dünyada müşahidə olunur. Əsas səbəb iqlim dəyişikliyi və orta temperaturun artmasıdır, digər səbəb isə yağıntıların qeyri-bərabər bölüşdürülməsi və intensivliyidir. Nəticədə su ehtiyatları azalır, daşqınlar, sel və digər hidrometeoroloji hadisələr daha çox baş verir".

Dünyada suya tələbatın artmasını narahatedici məqam kimi səciyyələndirən M.Babayev bildirib ki, şərti su qıtlığı riski ilə üzləşən ölkələrin siyahısı hər il genişlənir və Azərbaycan da bu siyahıda yer alır. Ölkəmizin su anbarlarında 16 milyard kubmetr həcmində su ehtiyatının mövcudluğunu diqqətə çatdıran nazirin sözlərinə görə, bu ehtiyatlardan səmərəli istifadə xüsusi əhəmiyyət kəsb edir: "Su ehtiyatlarından düzgün istifadə etməyi bacarmalıyıq. Azərbaycan çayların aşağı axınında yerləşən ölkədir və buna görə də biz həmişə qonşularımızla su məsələsini gündəmdə saxlamalıyıq. Təəssüf ki, hər zaman tam razılığa gələ bilmirik. Çünki regionda yalnız Azərbaycan su konvensiyasının üzvüdür, digər ölkələr isə üzv deyil və onlar çayların yuxarı axınında yerləşirlər. Bu səbəbdən su məsələlərini daim diqqətdə saxlamalıyıq".

Qeyd edək ki, II Beynəlxalq Su Təsərrüfatı Konfransında 10-a yaxın ölkədən 40 məruzəçinin çıxışı dinlənilib. Ümumilikdə, Bakı Su Həftəsinin 2-ci günündə "Su idarəetməsində liderlik: Regional və qlobal perspektivlər" mövzusunda plenar sessiya, "Su strategiyaları: İnfrastruktur və rəqəmsallaşdırma", "Alternativ su mənbələrinin idarəedilməsində innovativ yanaşmalar", "Su diplomatiyası: Sərhədləri aşan əməkdaşlıq", "Su ehtiyatlarının davamlılığı: elm və innovasiyanın rolu" adlı panel müzakirələri keçirilib. Eyni zamanda dövlət və özəl sektoru təmsil edən qurum və şirkətlər arasında anlaşma memorandumları imzalanıb.

*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Çəltik əkinləri də subsidiyalaşdırılır

**Son illər Azərbaycanda çəltikçiliyin inkişafına dövlət dəstəyi xeyli gücləndirilib. Ölkə Prezidentinin müvafiq sərəncamı ilə çəltikçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı təsdiq olunub. Həmin sənədə əsasən, 2025-ci ildə ölkə üzrə çəltik əkini sahələrinin 10 min hektara, hektarlığın orta məhsuldarlığının 40 sentnerə, düyü istehsalının isə 40 min tona çatdırılması nəzərdə tutulur.**

Aqrar Subsidiya Şurasının bu il sentyabrın 1-də qəbul etdiyi qərara əsasən isə 2026-cı təsərrüfat ilində çəltik əkinlərinin hər hektarına görə fermerlərə 380 manat dövlət dəstəyi veriləcək. 2025-ci il iyunun 1-dən avqustun 31-dək aparılmış təkrar çətlik əkinlərinə görə isə fermerlərə 120 manat subsidiya verilməsi nəzərdə tutulur. Yeri gəlmişkən, bu bitki üzrə subsidiya yalnız Ağdaş, Ağsu, Astara, Biləsuvar, Göyçay, Lənkəran, Masallı, Salyan, Samux, Ucar, Yevlax, Şəki və Zərdab rayonlarında aparılan çəltik əkinlərinə görə ödəniləcək.

Qeyd edək ki, Azərbaycanda çəltikçilik əsasən, Şəki-Zaqatala və Lənkəran-Astara iqtisadi rayonlarında geniş yayılıb. Sözügedən rayonlarda çəltiyin "Ağ-qılçıq", "Sarı-qılçıq", "Uzros, "Ağ-ənbərbü" və "Sədri" kimi yerli sortları becərilir. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2024-cü ildə ölkəmizdə 18 min 399 ton düyü istehsal olunub ki, bu da əvvəlki illə müqayisədə 4 min 426 ton və ya 31,7 faiz artım deməkdir. 2025-ci ilin məhsulu üçün isə ölkə üzrə 4 min 863,1 hektar sahədə çəltik əkilib. Bu isə ötən ilə nisbətən 414,3 hektar və ya 9,3 faiz çoxdur.



Yeri gəlmişkən, hazırda ölkənin düyüyə olan illik tələbatı 40 min tondan yuxarıdır və onun böyük bir hissəsi idxal hesabına təmin olunur. Bununla belə, Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrası, eləcə də çəltik sahələrinin subsidiyalaşdırılması daxili bazarın idxaldan asılılığını azaldacaq.

*XQ*

# Sosial müdafiə xərcləri 9 faiz artıb

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun (DSMF) gəlirləri bu ilin 8 ayında proqnozla müqayisədə 6 faiz və ya 307 milyon manat çox olmaqla 5 milyard 273 milyon manat təşkil edib.**

Hesabat dövründə fondun gəlirlərinin tərkibində məcburi dövlət sosial sığorta daxilolmaları proqnoza nisbətən 8 faiz və ya 297 milyon manat artaraq 4 milyard 182 milyon manat olub.

Yanvar-avqust aylarında DSMF-nin xərcləri 5 milyard 5 milyon manat təşkil edib ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 9 faiz və ya 425 milyon manat çoxdur.

*XQ*



# Asta sür maşını, amandır, sürücü!

## *Heç nə insan həyatından qiymətli deyil*

**Yay səyahət mövsümüdür. İnsanlar şəhərin səs-küyündən uzaqlaşıb, az da olsa, istirahət etmək istəyirlər. Bu məqsədlə də ölkənin müxtəlif regionlarında yerləşən istirahət mərkəzlərinə üz tuturlar. Belə səfərlər, turizm axını yollarda nəqliyyat hərəkətində sıxlıq yaradır, həm də yol hərəkəti qaydalarının pozulmasını və qəza hallarını çoxaldır.**



Araşdırmalar göstərir ki, qəzalar ən çox iyul, avqust aylarında baş verir, ölümlə də nəticələnir. Məsələn, bu günlərdə İmişli rayonunda baş verən ağır yol-nəqliyyat hadisəsi 3 nəfərin ölümü, 1 nəfərin isə xəsarət alması ilə nəticələnib. Şəmkirdə baş vermiş yol-nəqliyyat hadisəsi nəticəsində isə 7 nəfər həlak olub, bir neçə nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Qax rayonunda yol qəzası 1 nəfərin, Sumqayıtdakı qəza isə 1 ailənin ölümü ilə nəticələnib.

Təəssüf ki, siyahını bir qədər də uzatmaq olar. Bu artım, sadəcə, statistik göstərici deyil, eyni zamanda ailələrin faciəsi, insanların həyatı və cəmiyyətin təhlükəsizliyinə yönəlmiş faciəli prosesdir. Mövcud vəziyyətin təhlili göstərir ki, qəzalara səbəb olan amillər çoxşaxəlidir və kompleks yanaşma tələb edir.

**Bununla bağlı nəqliyyat üzrə ekspert Elməddin Muradlı XQ-yə bildirdi ki, yol–nəqliyyat hadisələrinin artmasının bir sıra obyektiv və subyektiv səbəbləri var:**

– Bu hadisələrin baş verməsində 3 mühüm amil ön plana çıxır: sürücü, yol infrastrukturu və avtomobilin texniki vəziyyəti. Bu amillər bir-biri ilə sıx bağlı olmaqla yanaşı, hər biri ayrıca qəzanın baş verməsində həlledici rol oynayır. Yol hərəkəti təhlükəsizliyi ilə bağlı tədris olunan elmi və texniki yanaşmalar da məhz bu istiqamətlərə diqqət yetirir.

Texniki universitetdə tədris olunan SAYM sistemi çərçivəsində isə 4 əsas komponent götürülür. Bu yanaşmada sürücü, avtomobil, yol şəraiti və mühit rol oynayır. Lakin bu komponentlər arasında birmənalı şəkildə ən həlledici və risk yaradan amil sürücüdür. Çünki sürücü təkcə avtomobili idarə etmir, eyni zamanda onun verdiyi qərarlar qəzanın qarşısını ala və ya ona səbəb olar bilər.

**E.Muradlı vurğuladı ki, sürücü, ilk növbədə, yol hərəkəti qaydalarını bilməlidir:**

– Eyni zamanda bu qaydalara ciddi əməl etməlidir. Təəssüf ki, bəzi hallarda sürücülər arasında öz gücünə həddindən artıq güvənmək, özündən razılıq və yersiz cəsarət müşahidə olunur. Bəziləri “illərin sürücüsüyəm”, “peşəkaram”, “bu yollarda böyümüşəm” kimi ifadələr səsləndirir, təhlükəli manevrlərə yol verirlər. Bununla yalnız özlərinin deyil, digər yol hərəkəti iştirakçılarının da həyatını təhlükəyə atırlar.

Digər tərəfdən, bəzi sürücülər yol hərəkəti qaydalarını bilsələr belə, onları pozmağa meyillidirlər. Bunu əsaslandırmaq üçün isə “radarın, kameranın yerini bilirəm”, “ yol mənimdir”, “məni heç kim saxlamaz” - deyirlər. Bu cür davranışlar təkcə qanun pozuntusu deyil, həm də məsuliyyətsizlikdir.

Yol hərəkəti qaydalarının pozulması heç kimə güzəşt etmir. Qəza nə pula, nə vəzifəyə, nə də sosial statusa baxır. Bu səbəbdən də yol hərəkətində məsuliyyətli olmaq hər bir vətəndaşın borcudur və bu borcun yerinə yetirilməməsi bəzən geri dönüşü olmayan nəticələrə səbəb olur”.

**Nəqliyyat eksperti qeyd etdi ki, yol qəzalarının əsas səbəblərindən biri, bəlkə də birincisi sürücülərin sürət həddini aşmasıdır:**

– Xüsusilə yüksək sürətlə hərəkət edən sürücülərin nəqliyyat vasitəsinə nəzarəti itirmələri tez-tez baş verir. Bu, qəza riskini əhəmiyyətli dərəcədə artırır, eyni zamanda onun nəticələrini də ağırlaşdırır.

Çünki sürət artdıqca sürücünün reaksiya vermə vaxtı azalır. Yəni yolda qəfil bir manea, piyadanın yola çıxması və ya digər nəqliyyat vasitəsinin qəfil manevri kimi hallarda sürücünün vaxtında qərar verməsi çətinləşir. Bundan əlavə, yüksək sürət zamanı əyləc məsafəsi də artır. Sürücünün əyləcə basmasından avtomobilin tam dayanmasına qədər keçdiyi məsafə uzanır. Nəticədə qəzanın qarşısını almaq çətinləşir, nəqliyyat vasitəsində olan insanların xəsarət alması və ya həyatını itirməsi ehtimalı artır. Bundan başqa, avtomobilin strukturu ağır deformasiyalara uğrayır, təhlükəsizlik sistemləri (airbag, təhlükəsizlik kəməri və s.) təsirsiz qalır.

Müsahibimizin dediyinə onu da əlavə edək ki, Qazaxda baş vermiş ağır yol–nəqliyyat hadisəsi də bu səbəbdən baş vermişdir. İlkin araşdırmalara əsasən müəyyən edilib ki, Bakı şəhər sakini Ramal Vəliyev BMW markalı avtomobillə Əskipara kəndindən Fərəhli kəndi istiqamətində hərəkətdə olarkən nəqliyyat vasitəsinə nəzarəti itirib. Nəticədə avtomobil əvvəlcə işıq dirəyinə, daha sonra yol kənarında dayanan digər bir avtomobilə və sonda daş hasara çırpılıb. Qəza nəticəsində sürücü Ramal Vəliyev və avtomobildə olan üç sərnişin hadisə yerində həyatlarını itiriblər. Qəzanın baş verməsinə səbəb isə nəqliyyat vasitəsinin yüksək sürətlə və sərxoş halda idarə edilməsi olub. Araşdırma zamanı həmçinin məlum olub ki, sürücü Ramal Vəliyev il ərzində mütəmadi olaraq yol hərəkəti qayda pozuntularına yol verib. Qayda pozuntularının əksəriyyəti sürət həddinin aşılması ilə bağlı olub. Bu faktlar yol hərəkəti qaydalarına məsuliyyətsiz yanaşmanın sonda nə qədər ağır faciələrə səbəb olduğunu göstərir.

**E.Muradlı sürücülərin sükan arxasında məsuliyyətsiz davranışlarının da qəzalara səbəb olduğunu vurğuladı:**

– Bu məsuliyyətsizlik müxtəlif formalarda özünü göstərir: alkoqol və narkotik maddələrin təsiri altında avtomobil idarə etmək, diqqətsizlik, yuxusuzluq və fiziki yorğunluq. Belə sürücülər qəza törətməyə daha çox meyilli olurlar. Xüsusilə alkoqol qəbul etmiş sürücülər sükan arxasında özlərini həddən artıq inamlı hiss edir, öz imkanlarını olduğundan üstün qiymətləndirir və nəticədə riskli manevrlərə yol verirlər. Halbuki, alkoqol insanın reaksiya vermə sürətini azaldır, diqqətini yayındırır, qərarvermə qabiliyyətini zəiflədir və vəziyyəti düzgün qiymətləndirmək bacarığını pozur.



Bu isə sükan arxasında olduqca təhlükəli nəticələrə səbəb olur. Xüsusilə gecə saatlarında baş verən ölümcül qəzaların əksəriyyətində alkoqol əsas səbəb kimi göstərilir.

Ümumilikdə, yol nəqliyyat hadisələrinin 15–30 faizinə səbəb alkoqollu vəziyyətdə avtomobil idarə olunmasıdır. Məlumdur ki, qanında 1.0 promil alkoqol olan bir şəxsin qəza törətmə riski ayıq sürücülərlə müqayisədə 7–10 dəfə çoxdur. Bu faktlar göstərir ki, alkoqollu halda sükan arxasına keçmək yalnız şəxsi məsuliyyətsizlik deyil, eyni zamanda ciddi ictimai təhlükədir. Halbuki belə halların qarşısını almaq mümkündür. Sərxoş vəziyyətdə taksi sifariş etmək, ictimai nəqliyyatdan istifadə etmək və ya avtomobili etibarlı, ayıq sürücüyə təhvil verməklə faciənin qarşısını almaq olar.

Narkotik maddə qəbul etmiş sürücülər də eyni şəkildə məsuliyyətsiz və təhlükəli davranışlar sərgiləyirlər. Bu halda vəziyyəti dəyərləndirmə qabiliyyəti daha da zəifləyir, reaksiya gecikir və nəticədə baş verən qəzalar çox vaxt ağır faciələrlə nəticələnir”.

**Ekspert yeni texnologiyaların gündəlik həyatımıza daxil olmasının yol hərəkətinə təsirinə də toxunaraq bildirdi ki, bu, bir tərəfdən rahatlıq yaratsa da, digər tərəfdən sükan arxasında diqqətin yayınmasına səbəb olur:**

– Bu gün yol-nəqliyyat hadisələrinin əsas səbəblərindən biri diqqətsizlikdir. Sürücü avtomobili idarə edərkən diqqətini yola yönəltməlidir. Təəssüf ki, bu qaydaya hər zaman əməl olunmur.

Ən çox rast gəlinən yayındırıcı amillərdən biri isə mobil telefondur. Zənglərə cavab vermək, mesaj yazmaq, sosial şəbəkələrdə vaxt keçirmək və ya GPS-dən istifadə sürücünün diqqətini yayındırır. Real hadisələrdən biri kimi Ağ Şəhərdə baş vermiş yol qəzasından danışmaq istərdim. Mobil telefonla məşğul olan sürücü "Toyota Prius" markalı avtomobillə dayanma nişanına məhəl qoymadan yolayrıcına daxil olub və digər avtomobillə toqquşaraq qəza törədib.

Siqaret çəkmək, sükan arxasında yemək, sərnişinlə uzun-uzadı söhbətlər də sürücünün diqqətini yoldan yayındırır. Bu da zolaqdan çıxma, məsafəni düzgün qiymətləndirməmə və təhlükəli manevrlərə səbəb olur. Belə hallar, xüsusilə şəhərdaxili, sıx hərəkətli və piyadaların çox olduğu ərazilərdə qəzalarla nəticələnir. Ani diqqətsizlik nəticəsində piyadanın vurulması və ya avtomobillə toqquşma kimi faciələr yaşana bilər. Biləcəridəki qəzada olduğu kimi. Bu qəza 3 nəfərin həyatına son qoydu. Sürücülər anlamalıdırlar ki, bir zəng və ya mesaj heç vaxt insan həyatından daha önəmli deyil.

**Yuxusuzluq və fiziki yorğunluğun da qəzalara səbəb olduğunu deyən E.Muradlı vurğuladı ki, uzun müddət fasiləsiz avtomobil idarə edən, kifayət qədər istirahət etməyən sürücülərdə reflekslər zəifləyir.**

Yorğun halda sükan arxasında olmaq alkoqollu vəziyyətdə avtomobil idarə etməyə bərabərdir. 24 saat yatmayan bir sürücünün davranışı, qanında 1.0 promil spirt olan bir sürücünün davranışına bənzəyir. İstirahət etmədən, fasiləsiz uzun müddət avtomobil idarə etmək həm sürücü, həm də digər hərəkət iştirakçıları üçün olduqca təhlükəlidir. Əsasən də sərnişindaşıma fəaliyyəti ilə məşğul olan bəzi sürücülər daha çox qazanc əldə etmək məqsədilə uzaq məsafəli yolu gün ərzində istirahət etmədən, əzgin halda bir neçə dəfə gedib-gəlməyə çalışırlar. Normal yuxu rejiminə əməl etməyən insanı təbii olaraq yolda yuxu tuta bilir və bu, ağır hadisənin baş verməsinə şərait yaradır.

Bundan başqa, istehsal ili köhnə olan bəzi nəqliyyat vasitələrinin mühərrikindən ixrac olunan qazların qoxusu texniki nasazlıq nəticəsində avtomobilin salonuna daxil olur ki, bu özü də insana yuxu gətirir. Bəzən səhhəti ilə bağlı müəyyən problemlər yaşayan sürücülər olur, müxtəlif dərman preparatları içərək sükan arxasına əyləşirlər ki, həmin dərmanlar da müəyyən əzginlik, yuxululuq yarada bilir və bu da öz növbəsində yol qəzalarının baş verməsinə səbəb olur.

Sürücülərin qəza törətdikdən sonra “yuxulu olmuşam”, “yorğun olmuşam” ifadəsini işlədərək özlərinə bəraət qazandırmağa çalışması isə qəbuledilməzdir. Çünki bu səbəbdən baş vermiş hadisələr bəzən bir neçə şəxsin həyatını, sağlamlığını itirməsinə gətirib çıxarır, neçə-neçə ailələrdə faciə yaşanır.

Bu kimi bədbəxt hadisələrdən qorunmaq üçün iş və istirahət rejiminə düzgün riayət edilməlidir. Sürücü heç olmasa 2–3 saatdan bir fasilə edib, sonra yola davam



etməlidir. Enerji içkiləri və qəhvə yalnız müvəqqəti təsir göstərir və əsas problemi aradan qaldırmır. Sürücülərin qısa müddət dayanıb dincəlməsi mənzilbaşına sağ-salamat çatmaları, həm özləri, həm də digər hərəkət iştirakçılarının təhlükəsizliyi üçün mühüm əhəmiyyət kəsb edir.

Onu da qeyd edək ki, Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, dünyada yol-nəqliyyat hadisələrinin 10–20 faizi yuxusuzluqla bağlıdır. Azərbaycanda da bu səbəbdən baş verən qəzalarda artım müşahidə edilir. Təkcə iyul ayında sürücülərin sükan arxasında yuxulaması ilə bağlı 21 qəza qeydə alınıb.

**Müsahibimizə görə, yol-nəqliyyat hadisələrinə səbəb olan əsas faktorlardan ikincisi avtomobillərin texniki vəziyyəti ilə bağlıdır:**

– Bəli, avtomobil yüksək təhlükə mənbəyidir. Bəzi sürücülərin, ümumiyyətlə, avtomobilin texniki parametrlərindən xəbəri yoxdur. Bunları isə bilmək, vaxtı-vaxtında ona texniki qulluq göstərmək lazımdır. Buna baxmayaraq, bəzi sürücülər nəqliyyat vasitələrinə mütəmadi texniki qulluq göstərməyə biganə yanaşır və texniki baxış prosesini sadəcə formal qaydada yerinə yetirirlər.

Ən təhlükəli texniki nasazlıqlar sırasında isə əyləc sistemindəki problemlər xüsusi yer tutur. Əyləc sisteminin düzgün işləməməsi qəfil vəziyyətlərdə nəqliyyat vasitəsinin vaxtında dayandırılmasına imkan vermir və bu da ağır yol-nəqliyyat hadisələri ilə nəticələnir. Təkərlərin köhnəlməsi və balanssızlığı, xüsusilə yüksək sürətlə hərəkət zamanı avtomobilin idarə olunmasını çətinləşdirir və yolda sürüşmə riskini artırır.

Sürət qutusu və sükan sistemindəki nasazlıqlar da sürücünün manevr qabiliyyətini məhdudlaşdıraraq qəfil yol dəyişmələrində və döngələrdə təhlükə yaradır. Həmçinin lampaların düzgün işləməməsi, gecə və ya dumanlı hava şəraitində yolun kifayət qədər işıqlandırılmamasına səbəb olur, bu da həm sürücünün görmə sahəsini azaldır, həm də qarşıdan gələn sürücülərin görmə qabiliyyətinə mənfi təsir edir.

Təəssüf ki, bəzi hallarda sürücülər bu problemləri aradan qaldırmaq əvəzinə, texniki baxışı, sadəcə, sənəd əldə etmək üçün keçirirlər və nəqliyyat vasitəsinin real vəziyyəti yoxlanılmadan yollarda hərəkət etməyə davam edirlər. Bu cür yanaşma təkcə sürücünün öz həyatını deyil, digər yol istifadəçilərinin təhlükəsizliyini də ciddi şəkildə risk altına qoyur.

Bundan başqa, avtomobillərin köhnə olmasını da nəzərdən qaçırmaq olmaz. Dünyanın avtomobil sənayesi baxımından inkişaf etmiş ölkələrində istehsal tarixi yeni olan avtomobil qəza törədəndə baxırsan heç kim xəsarət almır. Həmin modelin köhnə versiyası Azərbaycanda qəza törədəndə avtomobildə olan sərnişinlər həyatını itirirlər. Deməli, avtomobilin texniki parametrləri qaydasında deyil. İstismar müddəti çoxdan başa çatıb. Texniki vəziyyəti ürəkaçan deyil. Ona görə də bu qəzalar ağır nəticələr verir. “Avtomobil ucuz olsun, ayağımı yerdən götürsün” deyib alırıq, amma texniki vəziyyətinə nəzər salmırıq. Bu da ciddi problemdir. Nəticəsi də göz qabağındadır.

Araşdırmamızın nəticəsi olaraq, yollarla bağlı da danışmaq istərdim. O, qəzalara səbəb olan ən önəmli amillərdən biridir. Yol təbii ki, sürücülər üçün təhlükəsiz və rahat olmalıdır. Bu, “Yol hərəkəti haqqında” qanunun 7-ci maddəsində də göstərilib. “Ay bu yolun tikintisinə və ya təmirinə çox pul gedəcək, xərc çıxacaq” deyimi artıq keçmir. Qanunun 7-ci maddəsinə nəzər salanda görünür ki, yollar dövlətin məsuliyyətindədir, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsinə görə dövlətin məsuliyyəti yol hərəkətində iştirak edən insanların məsuliyyətindən üstündür. Dövlət, aidiyyəti qurumlar məsuliyyəti daha da artırmalıdırlar. Onlar bu qəzaların baş verməsinə cavabdehdirlər. Heç bir iqtisadi amil insan həyatından üstün tutula bilməz, tutulmamalıdır da.

Qəzaları artıran 3 amildən biri də yol strukturudur. Onu da deyək ki, yollar tam qaydasında deyil, problem var, bəzi yerlərdə tikinti-quraşdırma işləri aparılır. Pis infrastruktur isə qəza riskini birbaşa artırmaqla yanaşı, sürücülərin və piyadaların davranışlarına da mənfi təsir göstərir. Çox hallarda yol qəzalarının başlıca səbəblərindən biri də məhz texniki baxımdan yararsız və ya qeyri-standart yollar olur. Ən çox rast gəlinən problemlər sırasına çuxurlu və bərbad yol örtüyü, düzgün yerləşdirilməmiş və ya ümumiyyətlə, olmayan yol nişanları, zəif və ya natamam işıqlandırma, həmçinin nişanlanmamış və ya çətin görünən piyada keçidləri daxildir. Bəli, bir çox yollar normal işıqlandırılmır, qaranlıqdır. Artıq dünyada bu, əsas məsələ kimi nəzərə alınır. Məsələn, dünyanın hər yerində Bakı–Şamaxı, Bakı–Quba, İsmayıllı–Qəbələ, cənubdan Astaraya qədər olan yollara bənzər avtomobil yolu tam şəkildə işıqlandırılır. Bizdə isə gecə vaxtı süni işıq olmayan zaman belə yollarda hərəkət etmək çox çətindir.

Bəzi yerlərdə yol nişanları da çatışmır. Bu səbəbdən də sürücülər qarşılıqlı münasibətlərdə səhvə yol verirlər. Qəza şəraitini qiymətləndirmədə də bu səbəbdən səhv edirlər. Həmçinin ağaclar, kollar yol nişanlarının qarşısını kəsir. Bu gün nişanlanma xətlərini çəkirlər, 3 aydan sonra boyası gedir. Üstəlik, səkilər də zəbt olunub. Piyada keçidlərində də vəziyyət ürəkaçan deyil. Təbii ki, məsuliyyətsiz piyadalar da var. Keçidin yaxınlığında vurulan piyadalar da az deyil. Bu da onu deməyə əsas verir ki, keçidlərdən düzgün və qaydalar çərçivəsində istifadə olunmur.

Bundan əlavə, bəzi döngələrin əyriliyi və bu döngələrdə təhlükəsizlik tədbirlərinin olmaması da sürücülərin qəfil qərar verməsinə səbəb olur və bu, ciddi qəzalarla nəticələnir. Kənd və ucqar ərazilərdə vəziyyət daha da kritikdir. Bu problemlər həm də nəqliyyatın normal axınını pozur, sığorta xərclərini artırır və ölkə üzrə yol hərəkəti sisteminə olan ictimai inamı azaldır. Unutmayaq ki, yol infrastrukturu təkcə rahatlıq deyil, həm də həyat amilidir. Onun müasir tələblərə cavab verməsi qəzaların azalması üçün əsas şərtlərdən biridir.

Bir məsələyə də toxunmaq istərdik. Bu, mühitlə bağlıdır. Yəni havanın və ətraf şəraitin vəziyyəti yol hərəkətində təhlükəsizliyə birbaşa təsir göstərən əsas amillərdəndir. Havanın yağışlı, qarlı və ya həddindən artıq isti olması insanların həm fiziki, həm də psixoloji durumuna təsir edir, bu da yol hərəkəti qaydalarına münasibətdə səhlənkarlıq yaradır.

İsti havalarda bəzən sağlamlıq problemi olan insanlar uzaq səfərlərə çıxırlar. Nəticədə yolda onların halı pisləşir, ürək tutması və ya digər ciddi narahatlıqlar baş verir. Belə hallarda nəqliyyat vasitəsinin idarə edilməsi mümkün olmur və qəza baş verir. Bəzən bu, yalnız həmin şəxsin deyil, digər insanların həyatına da təhlükə yaradır.

Yağışlı hava zamanı sürücülər çox vaxt yolun sürüşkən olduğunu nəzərə almadan, sürət həddinə əməl etmədən hərəkət edirlər. Bu isə idarəetməni çətinləşdirir və qəza ehtimalını artırır. Qarlı havada isə sürücülər avtomobillərinin təkərlərinin vəziyyətini və qış şəraitinə uyğun olub-olmadığını yoxlamadan yola çıxırlar. Yol buz bağlayanda nəqliyyat vasitəsi sürüşür, nəticədə ya avtomobil birbaşa divara çırpılır, ya da başqa avtomobillərə və insanlara ziyan yetirir. Unutmayaq ki, hava şəraiti dəyişə bilər, amma məsuliyyət hissi və diqqət daim sabit qalmalıdır. Bu, həm öz həyatımız, həm də başqalarının həyatı üçün vacibdir.

Qeyd edək ki, qəzaların fəsadları uzun müddət davam edir. Yaxınlarını itirən insanlar ağır psixoloji travmalar yaşayır, bəzi şəxslər ömürlük əlil qalır. Buna görə də bu problemin həlli təkcə cərimələrlə, hüquqi tədbirlərlə mümkün deyil. Ən azı maarifləndirmə işi aparılmalıdır. İnsanlara, xüsusən də gənclərə və sürücülərə yol hərəkətinin nə qədər məsuliyyətli bir davranış forması olduğu aşılanmalıdır. Hər bir şəxs bilməlidir ki, bir anlıq etinasızlıq, diqqətsizlik və ya özünə həddən artıq arxayın olmaq bəzən geri dönüşü olmayan faciələrlə nəticələnə bilər. Həyatı qorumaq isə hər birimizin mənəvi borcu olmalıdır.

***Ə.PÜNHAN***
***XQ***

# “Dövlət tarixi əhəmiyyətli abidə kimi qorunur”

## Bakının memarlıq simasında məxsusi yeri olan binalara belə lövhələr vurulur

**“Xalq qəzeti”nin yerləşdiyi (Nəsimi rayonu, Bülbül prospekti, 28) bina üzərinə vurulan məlumat lövhəsində bildirilir ki, redaksiyanın fəaliyyət göstərdiyi bu tikili yerli əhəmiyyətli memarlıq abidəsi kimi qorunur... Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 nömrəli qərarına əsasən qorunması rəsmən elan edilən tikilinin fasadında bir neçə gün əvvəl qanunsuz metal konstruksiyalar quraşdırılaraq görkəminin dəyişdirilməsi isə yoldan ötüb – keçənləri, eləcə də 5 mərtəbəli bu binada fəaliyyət göstərən təşkilatların əməkdaşlarını təəccübləndirdi.**

Paytaxtın mərkəzində, hamının gözü önündə yaşanan bu özbaşınalığın qarşısı yaxşı ki, Bakı Şəhər Memarlıq və Şəhərsalma Baş İdarəsinin müdaxiləsi ilə qısa müddətdə alındı, abidənin fasadına zərər yetirən metal konstruksiyalar söküldü. Eyni zamanda, Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin mütəxəssisləri ilə birlikdə tikilinin tarixi görkəminin bərpası istiqamətində zəruri addımlar atıldı.

Bakı Şəhər İcra Hakimiyyətinin şöbə müdiri İsrafil Kərimov sözügedən məsələ ilə bağlı söhbətində bildirdi ki, paytaxtımızın tarixi binalarının fasadlarında, dam örtüklərində və bəzən, hətta zədələnmiş divarlarında müasir reklam lövhələrinin yerləşdirilməsi, tikililərə əlavələrin edilməsi cəhdlərinin qarşısı hər zaman olduğu kimi, bu gün də qətiyyətlə alınır. Çünki belə hallar diqqətdənkənar saxlanılarsa, şübhəsiz ki, tarixi abidələrin görkəmi pozular, onların orijinallığı və tarixi dəyəri azalar.

İ.Kərimov qeyd etdi ki, Bakı bu gün yalnız müasir göydələnləri və inkişaf etmiş infrastruktur layihələri ilə deyil, həm də zəngin tarixi – memarlıq irsi ilə diqqət çəkir. Şəhərin mərkəzində yerləşən bir çox bina XIX əsrin sonu və XX əsrin əvvəllərində tikilib. Bu abidələr təkcə Azərbaycanın deyil, həm də Qafqaz regionunun memarlıq tarixində özünəməxsus iz buraxıb. Onların qorunması isə dövlət siyasətinin mühüm istiqamətlərindən biridir.

Həmsöhbətim bir müddət əvvəl Bakının mərkəzində, Bülbül prospekti ilə 28 May küçəsinin kəsişməsində yerləşən yerli əhəmiyyətli memarlıq abidəsinin fasadına icazəsiz metal konstruksiyaların quraşdırılması cəhdinə də münasibət bildirdi: – Bakı Şəhər Memarlıq və Şəhərsalma Baş İdarəsi adıçəkilən binaya qanunsuz müdaxilənin qarşısını qısa zamanda aldı, binanın əvvəlki vəziyyətinə qaytarılması gerçəkləşdirildi. Bu fakt bir daha dövlət qurumlarının Bakının memarlıq simasının qorunmasına xüsusi həssaslıqla yanaşmasını göstərdi.

Qeyd edək ki, Bakı şəhəri Qafqazın ən qədim mədəniyyət mərkəzlərindən biri olmaqla yanaşı, həm də Şərq və Qərb memarlıq üslublarını özündə birləşdirən nadir şəhərlərdən biridir. Bu irs təkcə yerli əhəmiyyət daşımır, həm də qlobal mədəniyyət xəzinəsinə böyük töhfə verir. Lakin müasir urbanizasiya, ticarət fəaliyyəti və kommersiya maraqları bir sıra hallarda tarixi abidələrin orijinallığına ciddi təhdid yaradır.

Memar Arif Əliyevin fikrincə, son illər paytaxtın tarixi binalarında müşahidə olunan əsas problemlərdən biri memarlıq abidələrinə əlavələrin edilməsi, eləcə də fasadlarda, dam örtüklərində, hətta zədələnmiş divarlarda icazəsiz reklam lövhələrinin yerləşdirilməsidir. Müasir vizual reklamların tarixi binalara uyğunlaşdırılmadan quraşdırılması isə onların memarlıq harmoniyasını pozur. Bu tendensiyanın bir neçə mənfi təsiri var. Birincisi, tarixi üslubda tikilmiş binanın üzərində parlaq, iri və uyğunsuz reklam lövhələrinin vurulması əsasən bədii dəyəri məhv






edir. Bununla da tikili estetik baxımdan zərər çəkir. İkincisi, abidələrin görünüşündə sonradan edilən müdaxilələr onların ilkin memarlıq simasını dəyişməklə tarixi orijinallığı itirir. Nəhayət, ağır metal konstruksiyalar və böyük ölçülü reklam panelləri köhnə binaların daşıyıcı divarlarına əlavə yük salmaqla uzunmüddətli sabitliyə təhlükə yaradır.

Əslində, Bakının memarlıq irsi yalnız yerli ictimaiyyət üçün deyil, həm də şəhərə gələn turistlərdə xüsusi maraq doğurur. Məhz buna görə də tarixi binaların görünüşünü korlayan hər bir müdaxilə ölkənin turizm potensialına da mənfi təsir göstərir. Azərbaycan Respublikasının “Tarixi və mədəni abidələrin qorunması haqqında” Qanununa əsasən, memarlıq abidələrinin fasadında hər hansı dəyişiklik yalnız müvafiq qurumların razılığı ilə mümkündür. Bakı Şəhər İcra Hakimiyyəti, Mədəniyyət Nazirliyi və aidiyyəti strukturlar mütəmadi olaraq monitorinqlər aparır. Lakin bəzi sahibkarların kommersiya maraqları naminə abidələrin görkəminə zərər vurmaları halları təəssüf ki, hələ də müşahidə olunur.

Son illərdə xüsusilə “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu, eləcə də şəhərin mərkəzi rayonlarında nəzarət tədbirləri diqqətdə saxlanılır. Bu, həm dövlətin məsuliyyətli mövqeyindən xəbər verir, həm də ictimaiyyətin maarifləndirilməsinin zəruriliyini göstərir.

A.Əliyev söhbətinin bu məqamında bildirdi ki, hazırda Azərbaycanda 6 min 300-dən çox tarixi – mədəni abidə var. Onun təxminən, 1800-ü Bakı şəhərində yerləşir. Keçən il aparılan son monitorinqlər nəticəsində 193 memarlıq abidəsində bərpa işlərinin həyata keçirildiyi, reklam və estetik görünüşü pozan konstruksiyaların söküldüyü vurğulanır. Bu göstəricilər ölkəmizdə tarixi irsin qorunmasına verilən



diqqəti nümayiş etdirir. Lakin hələ də bəzi kommersiya qurumları icazəsiz müdaxilələrə yol verir. Qlobal təcrübə isə göstərir ki, bu kimi halların qarşısı yalnız hüquqi sanksiyalar, ictimai nəzarət və maarifləndirmə ilə alınır.

### Beynəlxalq təcrübə

Dünyanın bir çox ölkələrində tarixi binaların qorunması ciddi qaydalara əsaslanır. Məsələn, Parisin mərkəzi rayonlarında yerləşən tarixi abidələrin üzərinə qanunla reklam lövhələri yerləşdirilmir. Yalnız xüsusi icazə ilə, müvəqqəti və müvafiq dizaynla bu, reallaşdırılır. Romada tarixi binaların fasadında dəyişiklik etmək üçün uzunmüddətli ekspertiza aparılır və yalnız bərpa məqsədli layihələrə icazə verilir. İstanbulda isə bənzər problemlərlə mübarizə aparmaq üçün müvafiq təşkilat fəaliyyət göstərir və tarixi binalarda dəyişiklik bu qurumun icazəsi ilə gerçəkləşdirilir. Azərbaycanın da bu təcrübədən yararlanaraq nəzarət mexanizmlərini daha da sərtləşdirməsi zəruridir.

Qeyd edək ki, bu məsələdə cəmiyyətin rolu və maarifləndirmə də mühüm önəm daşıyır. Ona görə ki, tarixi irsin qorunması yalnız dövlət qurumları ilə bərabər, həm də vətəndaş cəmiyyətinin və şəhər sakinlərinin məsuliyyətidir. Bir çox hallarda icazəsiz müdaxilələr məhz ictimai reaksiyanın gücü sayəsində aradan qaldırılır. Media orqanlarının, sosial şəbəkələrin və qeyri-hökumət təşkilatlarının bu sahədəki fəaliyyəti mühüm əhəmiyyət daşıyır. Maarifləndirmə istiqamətində atılacaq addımlar isə sahibkarların və bina sahiblərinin məsuliyyət hissini artırır. Çünki yuxarıda vurğulandığı kimi, abidənin qorunması təkcə dövlətin deyil, eyni zamanda, cəmiyyətin də borcudur.

Nəsimi rayonunda baş verən son hadisə isə göstərdi ki, respublikada dövlət qurumları tarixi binaların qorunmasına prinsipial yanaşır. Bununla belə, problemlərin kökündən həll olunması üçün 3 əsas istiqamətdə tədbirlərin gücləndirilməsi zəruridir:

*– qanunvericiliyin tətbiqi sərtləşdirilməli, icazəsiz müdaxilələrə qarşı sanksiyalar artırılmalıdır;*

*– müasir şəhərsalma ilə tarixi irs uzlaşdırılmalı, reklamlar estetik baxımdan tarixi fasadlara uyğunlaşdırılmalıdır;*

*– ictimai maarifləndirmə daim diqqətdə saxlanılmalı və sahibkarlarda məsuliyyət hissi yüksəldilməlidr.*

Bakı bu gün həm müasirlik, həm də qədimlik elementlərini özündə birləşdirən nadir şəhərlərdən biridir. Bu harmoniyanı qorumaq hər birimizin vətəndaşlıq borcudur. Tarixi abidələr yalnız keçmişin yadigarı deyil, həm də gələcək nəsillərə ötürüləcək milli sərvətdir. Onları qorumaq isə dövlətin və cəmiyyətin birgə vəzifəsidir.

### Unudulan abidələr, yoxsa…

Mütəxəssislər bildirirlər ki, paytaxtda hələ də diqqətdən kənarda qalan, sökülmək, məhv olmaq təhlükəsi ilə üzləşən çox sayda memarlıq abidəsi var. Bu isə onu göstərir ki, tarixi binaların ciddi dəqiqləşdirilməsinə, bu sahədə mövcud siyahının yenilənməsinə ciddi ehtiyac duyulur. Eyni zamanda, bir sıra orijinal tikililər hansı səbəbdənsə tarixi irs siyahısına daxil edilmədiyindən sökülmək təhlükəsi ilə üz-üzədir. Buna görə də Memarlar İttifaqı və digər təşkilatlarla razılaşdırmaqla mədəni-tarixi dəyəri olan memarlıq tikililərinin tam siyahısının qısa müddətdə yenidən müəyyənləşdirilməsi zəruridir.

Xatırladaq ki, tarix və mədəniyyət abidələrinin son siyahısı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 nömrəli qərarı ilə təsdiqlənib. Həmin siyahıda müvafiq prosedurlar həyata keçirilməklə 6 min 308 tarixi mədəniyyət abidələrinin coğrafi koordinatları GPS vasitəsilə təyin edilərək, qorunması təşkil olunub. Eyni zamanda, Memarlar İttifaqı tərəfindən təklif edilən binaların da memarlıq abidələri qismində reyestrə daxil edilməsi istiqamətində müəyyən layihələr reallaşdırılıb.

Yeri gəlmişkən, son təsdiqlənən (2001-ci il) tarixi tikililərin sayı sovet dövründə qeydiyyata alınan binalar əsasında müəyyənləşdirilib. Lakin o vaxt abidələrin müəyən hissəsinin siyahıya salınması “unudulub”. Təəssüf ki, sonrakı mərhələdə, müstəqillik dövründə də məlum siyahı yenilənməyib və təxminən, 300-ə yaxın tarixi tikili “kənarda qalıb”. Tarixi binaların siyahıya alınmasında müəyyən yanlışlıqlara da yol verilib. Mütəxəssislər bildirirlər ki, sovet dönəmində tikilən beton binalardan biri dövlət əhəmiyyətli memarlıq abidəsi kimi siyahıya əlavə olunub. Yaxud İstiqlaliyyət küçəsindəki İsmailiyyə binası yerli, hansısa hamam isə dünya əhəmiyyətli abidə kimi qeydə alınıb. Heç bir məntiqə sığmayan belə bir bölgü ekspertlər tərəfindən subyektiv amillərə əsaslanaraq hazırlanıb. Digər bir misal. Şəhərdə hansısa bir tarixi bina sökülərək yerində yenisinin tikilməsi və üzərində “tarixi memarlıq abidəsi” lövhəsinin vurulması da təəccüblə qarşılanıb… Ümumiyyətlə, tarixi abidələrin siyahıyaalınmasında ümumi memarlıq, binanın tikilmə dövrü, fasadında memarlıq elementlərinin sayı, interyerləri və yerləşdiyi ərazinin strukturunun diqqətdə saxlanılması bu sahədə görülən işlər zamanı qarşıya mühüm vəzifə kimi qoyulub.

* * *

Bakı bu gün qədim və müasir üslubun nadir sintezini özündə əks etdirir. Tarixi abidələrin fasadlarına icazəsiz müdaxilələrin qarşısının alınması, belə tikililərə əlavələrin olunması yalnız lokal tədbir deyil, qlobal mədəniyyət siyasətinin bir hissəsidir. Parisdən Romaya, İstanbuldan Barselonaya qədər bütün dünya şəhərləri bu məsələ ilə üzləşir və hər biri özünəməxsus həll yolu tapır.

Azərbaycanın paytaxtı da bu təcrübədən öyrənərək, tarixi irsi yaşatmaqla yanaşı, müasir inkişafla balansı qorumağa çalışır. Çünki tarixi binalar yalnız keçmişin yadigarı deyil, həm də gələcək nəsillərə ötürüləcək milli kimliyin şahidləridir.

***Vaqif BAYRAMOV***
***XQ***

*Səsli kino – 90*



## “Mavi dənizin sahilində” səsi açılan kinomuz

**Azərbaycan kinematoqrafiyasının şanlı tarixinə qızıl hərflərlə yazılan “Mavi dənizin sahilində” bədii filminin 90 illik yubileyi qeyd olunur. 1935-ci ildə “Azərfilm” kinostudiyası tərəfindən lentə alınan ekran əsəri ölkəmizin ilk səsli filmi olaraq kino tariximizdə yeni bir mərhələnin başlanğıcını qoydu.**

Bu film Azərbaycan kinosunu səssiz ekranlardan səsli dünyaya gətirərək bir çox yeniliklərə imza atdı. Filmin səsləndirilməsi rus alimi və ixtiraçısı Pavel Tagerin səsli kinematoqrafiyada inqilab hesab olunan ixtirası sayəsində mümkün oldu. Onun bu texniki yeniliyi səs və görüntünün sintezini təmin edərək filmin daha canlı və təbii olmasına imkan yaratdı. Azərbaycan dünya kinosunun inkişafı ilə ayaqlaşaraq səsli kinematoqrafiyaya qədəm qoydu.

Filmin quruluşçu-rejissoru, məşhur kinematoqraf Boris Barnet olsa da bu tarixi əsərin ərsəyə gəlməsində azərbaycanlı mütəxəssislərin rolu əvəzsizdir. Moskvada təhsil alan ilk azərbaycanlı rejissor Səməd Mərdanov dördüncü kursda oxuyarkən Boris Barnet tərəfindən ikinci rejissor kimi bu layihəyə dəvət edilmişdi. S.Mərdanovun yaradıcılıq axtarışları və filmə daxil etdiyi bir neçə epizod kino mütəxəssislərinin diqqətini çəkmişdi. Yaradıcı heyətdə, həmçinin operator Mirzə Mustafayev, rejissor assistenti Məmməd Əlili və rəssam Viktor Aden kimi istedadlı sənətkarlar da yer alırdı.

Komediya janrında çəkilən ekran əsəri iki balıqçı dostun – Yusif (Lev Sverdlin) və Alyoşanın (Nikolay Kryuçkov) həyatından bəhs edir. Hadisələr Azərbaycanın cənubunda, Sara adasındakı balıqçılıq kolxozunda baş verir. İki dostun balıqçı qızı Maşenkaya olan sevgisi aralarında mübahisələr və anlaşılmazlıqlar yaradır ki, bu da filmin əsas gülməli məqamlarını təşkil edir. O dövrün gənc, lakin tanınmış aktyorları Lev Sverdlin və Nikolay Kryuçkovun “komediya cütlüyü” kimi uğurlu ifası filmin populyarlığını daha da artırdı.

Filmin səhnələri Bakı ətrafında və Lənkəran bölgəsində, Xəzər dənizinin gözəl mənzərələrində lentə alınmışdır. Sosialist realizmi dövründə çəkilməsinə baxmayaraq, “Mavi dənizin sahilində” tənqidçilər tərəfindən “azad nəfəs” kimi qəbul edilmiş və səsli kino üçün musiqi və səsin sintezinin vacibliyini sübut etmişdir. Filmdə səslənən musiqi parçaları hadisələrin ritmi ilə tam uyğunlaşaraq komik və lirik anları daha da vurğulamışdır.

Kinotənqidçi, Azərbaycan Kinematoqraflar İttifaqı İdarə Heyətinin üzvü Sevda Sultanova dedi: “Mavi dənizin sahilində” filmində əsas məsələ ssenari yox, məhz rejissor işidir. Filmin süjeti mənə banal gəlir, bu mövzu o



dövrdə tez-tez işlənirdi. Buna baxmayaraq, rejissor Boris Barnetin ideoloji təbliğatdan qaçaraq sənətə üstünlük verməsini çox yüksək qiymətləndirirəm.

Filmdəki bəzi kadrlar, xüsusən günəşin dəniz üzərindən doğulması səhnəsi rəssam Ayvazovskinin tablolarını xatırladır. Bəzən isə mənə elə gəlir ki, rejissor Klod Monenin impressionist ovqatını aşılamağa çalışıb. Milli kinomuzda Xəzəri bu qədər müxtəlif biçimdə ekrana gətirən, onu əhvalatın mərkəzinə çevirən ikinci bir film yoxdur.

Məsələn, filmdəki mübahisə səhnəsində fırtınalı dənizlə personajların daxili həyəcanı birlikdə göstərilir ki, bu da çox incə rejissor yanaşmasıdır. Filmi dəyərli edən məhz bu sənətkarlıqdır. Rejissor Barnet süjetin sadəliyini öz peşəkar yanaşması ilə aradan qaldırır. Mənə elə gəlir ki, Barnet bu filmdə ideoloji şüarları önə çəkməyib, əsasən filmin bədii dilinə və vizual həllərinə diqqət yetirib. Məhz buna görə də əsər Azərbaycan kinosunun tarixində əvəzsiz yer tutur.

Filmin ilk nümayişi 1935-ci ilin payızında “Mejrabpomfilm” kinoteatrında baş tutsa da geniş ekranlara 1936-cı ilin aprelində çıxmışdır. O dövrün “Veçernyaya Moskva” qəzeti filmin ilk baxış təəssüratlarını belə təsvir edirdi: “Kiçik bir tamaşaçı qrupu bu yaxınlarda çəkilmiş materialı böyük məmnuniyyətlə izlədi”.

1973-cü ildə Moskvada nəşr olunan “Sovet kinosunun tarixi” kitabında film haqqında fərqli fikirlər irəli sürülmüşdür. Lakin rejissor Boris Barnetin və aktrisa Yelena Kuzminanın film haqqında söylədikləri fikirlər “Mavi dənizin sahilində” əsərinin Azərbaycan kinosunun mühüm tərkib hissəsi olduğunu təsdiqləyir. Filmin ən böyük uğurlarından biri də Dünya Kinosunun 100 illik yubileyi münasibətilə keçirilən sorğuya əsasən ən yaxşı 12 əsər siyahısına daxil edilməsidir. Bu mühüm hadisə 1995-ci ildə Moskvanın “Kinovedçeskiye zametki” jurnalında da geniş işıqlandırılmışdır.

2019-cu ildə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may tarixli 211 nömrəli qərarı ilə "Mavi dənizin sahilində" filmi dövlət mülkiyyətində olan filmlərin siyahısına salındı. Bununla da onun tarixi və mədəni irs kimi dəyəri bir daha təsdiqini tapdı.

“Mavi dənizin sahilində” bədii filmi Azərbaycan kinematoqrafiyasının səsli kino tarixində bir başlanğıc olmaqla yanaşı, həm də gənc nəsil üçün milli sənətimizin köklərini dərindən tanıdan əvəzsiz xəzinədir. Bu film zamanın sınağından uğurla çıxaraq bu gün də aktuallığını qoruyur.

***Arzu ƏLİYEVA***
***XQ***

# Cəmiyyəti irəliyə sağlam ailələr aparır

## *Ailəni isə sevgi, qayğı və məsuliyyət möhkəmləndirir*

**Müasir dövrdə ailə institutunun qorunması, qadın və uşaq hüquqlarının təmin olunması cəmiyyətin sosial sabitliyi və sağlam gələcəyi üçün mühüm şərtlərdəndir. Qloballaşma, informasiya bolluğu, miqrasiya prosesləri və digər amillərin ailə dəyərlərinə təsiri aktual problemlərin elmi əsaslarla araşdırılmasını və dövlət səviyyəsində həlli yollarının müəyyənləşdirilməsini zəruri edir. Məhz bu baxımdan Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin fəaliyyəti xüsusi əhəmiyyət daşıyır.**

**Komitə ailə münasibətlərinin möhkəmləndirilməsi, qadınların ictimai-siyasi və sosial həyatda rolunun artırılması, uşaq hüquqlarının müdafiəsi istiqamətində ardıcıl tədbirlər həyata keçirir. Komitənin hüquqi təminat şöbəsinin müdiri Taliyə İbrahimova ilə müasir dövrdə ailə institutunun qarşılaşdığı problemlər və onların həlli yolları ilə bağlı söhbəti oxuculara təqdim edirik.**



**– Ailədaxili münasibətlərdə milli-mənəvi dəyərlərin qorunması və gələcək nəsillərin formalaşması istiqamətində hansı işlər görülür?**

– Qədim dövlətçilik tarixi olan Azərbaycan xalqı hər zaman milli dəyərlərinə sadiq qalmış və bu mənəvi sərvəti zənginləşdirmişdir. Milli dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması bu gün də aktuallığını qoruyub saxlayır. Milli dəyərlərə əsaslanan ailə modeli yalnız ailə institutunun möhkəmləndirilməsinə deyil, eyni zamanda uşaqların sağlam inkişafına və mənafelərinin qorunmasına birbaşa təsir göstərir. Ailə daxilində uşaqlara mənəvi dəyərlərin aşılanması onların şəxsiyyət kimi formalaşmasına, milli kimlik şüurunun güclənməsinə və cəmiyyət qarşısında məsuliyyət hissinin yaranmasına xidmət edir.

Qloballaşma, urbanizasiya, sosial şəbəkələrin təsiri, ailədaxili münasibətlərdə dəyişikliklər və həyat tərzinin sürətlənməsi ailə dəyərlərini yenidən formalaşdırır. Bütün bunlar isə milli-mənəvi dəyərlərimizin zəifləməsinə və ailə institutunun dağılmasına gətirib çıxarmamalıdır. Burada nəinki dövlət qurumlarının, eyni zamanda vətəndaş cəmiyyətinin və hər bir fərdin üzərinə böyük məsuliyyət düşür. Azərbaycan dövləti ailə institutunun qorunub saxlanılması, milli dəyərlərin təbliği və sosial rifahın gücləndirilməsi istiqamətində ardıcıl siyasət həyata keçirir. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin fəaliyyəti, erkən evliliklərin qarşısının alınmasına, məişət zorakılığının azaldılmasına, ailədaxili münasibətlərin sağlamlaşdırılmasına yönəlmiş maarifləndirici proqramlar və sosial layihələr bu istiqamətdə mühüm əhəmiyyət daşıyır.

**– Son zamanlar məişət zorakılığı, erkən nikahlar və qohum evliliyi kimi mənfi tendensiyalar qarşıya ciddi çağırışlar qoyur. Məişət zorakılığı ilə mübarizə sahəsində fəaliyyət planının icrası barədə nə deyə bilərsiniz?**

– Ailə institutunun zəifləməsinə təsir edən müxtəlif sosial, psixoloji amillər mövcuddur. Xüsusi vurğulanmalı məsələlərdən biri də məişət zorakılığıdır. Bu məsələ dövlət siyasətinin prioritet istiqamətlərindəndir və zorakılığın qarşısının alınması üçün hüquqi baza təkmilləşdirilir, sosial müdafiə mexanizmləri gücləndirilir.

2010-cu ildə "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanun qəbul olunmuşdur. Ölkə rəhbərinin 2020-ci il 27 noyabr tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020-2023-cü illər üçün Milli Fəaliyyət Planı" təsdiq edilmiş və müvafiq sahədə tədbirlərin səmərəliliyinin artırılması, ailələrin möhkəmləndirilməsi məqsədilə uğurla həyata keçirilmişdir. Hazırda aidiyyəti dövlət qurumlarının rəy və təklifləri nəzərə alınmaqla 2-ci "Məişət zorakılığı ilə mübarizəyə dair Milli Fəaliyyət Planı"nın layihəsi hazırlanır.

Bu gün cəmiyyətimizi narahat edən problemlərdən biri də məhz uşaq və qohum evlilikləridir. Azərbaycan demokratik ölkə olduğuna görə azyaşlı uşaqları erkən evliliyə məcbur etmək heç bir halda normal qəbul edilmir, birmənalı olaraq gender əsaslı zorakılığın ən bariz "nümunəsi" kimi dəyərləndirilir. Qeyd edək ki, erkən evliliyin fəsadlarından biri də erkən analıq riskləridir. Erkən analığın yaratdığı tibbi və sosial risklərin mövcudluğu göstərir ki, nikah yaşının qorunması, erkən nikahın qadağan edilməsi yalnız hüquqi tələblərin təminatı deyil, həm də uşaq və gənc anaların sağlamlığının qorunması, cəmiyyətin sosial rifahının yüksəldilməsi baxımından əsaslı və zəruri addımdır.

Erkən evliliklərin qarşısının alınması istiqamətində dövlət tərəfindən mütəmadi olaraq tədbirlər görülür, qanunvericilikdə dəyişikliklər edilir. Qohumlar arasında nikah halları və onların törətdiyi fəsadlar cəmiyyətimizdə narahatlıq doğuran aktual məsələlərdəndir. Belə nikahların baş verməsi bir çox hallarda sağlamlıq imkanları məhdud uşaqların dünyaya gəlməsinə və nəticədə sosial cəhətdən həssas qrupların sayının artmasına səbəb olur.

Qohumlar arasında nikahların mənfi nəticələri Azərbaycan Respublikasının ailə qanunvericiliyində nəzərə alınmışdır. AR Ailə Məcəlləsinin 12-ci maddəsinə əsasən yaxın qohumlar (valideynlər və uşaqlar, baba-nənə və nəvələr, doğma və ögey (ümumi ata və anası olan) qardaş və bacılar), övladlığa götürənlər və övladlığa götürülənlər arasında nikahın bağlanmasına yol verilmir.

Qohum nikahlarının qadağan edilməsi ilə bağlı səslənən neqativ mövqelər və emosional reaksiyalar subyektiv xarakter daşıyır və çox zaman tibbi, hüquqi və sosial reallıqlara əsaslanmır. Qeyd edək ki, qohum nikahlarının qadağan olunması illərlə aparılmış elmi-tibbi araşdırmalar, sistemli maarifləndirmə və beynəlxalq təcrübələrin nəzərə alınması nəticəsində formalaşmış strateji yanaşmadır. Tibb mütəxəssisləri dəfələrlə bildirmişlər ki, yaxın qohumların evliliyi nəticəsində dünyaya gələn uşaqlarda irsi və genetik xəstəliklərin olma ehtimalı təxminən 2 dəfə çoxdur.

Komitə tərəfindən 2021-ci ildə "Ölkədə qohum evlilikləri üzrə vəziyyətin öyrənilməsinə dair analitik hesabat" hazırlanıb. Sorğuda 1394 respondent iştirak edib. Təhlildə qeyd olunduğu kimi, belə nikahlara "əksəriyyət mənfi yanaşsa da müsbət yanaşanlar da var". Respondentlər arasında qohum evlilikdə olan şəxslər də olub. Onlardan 21,2 faizi övladlarında dayaq-hərəkət aparatı problemlərinin, 26,8 faizi talassemiya, 11,8 faizi hemofiliya, 16,3 faizi daun sindromunun, 9,8 faizi isə müxtəlif xəstəliklərin olduğunu bildirib.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, eləcə də Dövlət Komitəsinin uşaq və ailələrə dəstək mərkəzləri tərəfindən mütəmadi olaraq yeniyetmə və gənclərin, valideynlərin erkən və qohum evliliklərinin mənfi nəticələrinə dair məlumatlılıq səviyyəsini artıran, informasiya təminatının yaxşılaşdırılmasına yardım edən görüşlər keçirilir, maarifləndirici vəsaitlər dərc edilir və yayımlanır.

**– Boşanmaların, eyni zamanda selektiv abortların sayının kəskin artması əsasən hansı səbəblərdən qaynaqlanır?**

– Bu gün ailə institutuna təsir edən problemlərin əsasında insanların ailə institutuna münasibətindəki dəyişən yanaşması, sosial-mənəvi məsuliyyətin aşağı olması dayanır.

Cəmiyyət həyatında baş verən yeniliklər ailənin məqsədlərinə, yaşam tərzinə, ümumilikdə birgəyaşayış prinsiplərinə öz təsirini göstərməkdədir. Müasir ailə modelində stresə dayanıqlılıq, tərəflərarası emosional sabitlik və problemi həlletmə bacarığının getdikcə azalması, sosial şəbəkələrdən asılılıq, ailədə asudə vaxtın düzgün təşkil olunmaması kimi bir çox səbəblər ailədaxili problemlərə və ailə institutunun zəifləməsinə gətirib çıxaran əsas amillərdəndir.

Ailədaxili münasibətlərdə hər iki tərəf ailə öhdəliyinin, dəyərlərin, hüquqlarının, ailədə sağlam psixoloji mühitin qorunması müstəvisində eyni dərəcədə məsuliyyət daşıyır. Burada əsas məsələ isə boşanmalara səbəb olan amillərin aradan qaldırılması, bu, mümkün olmadıqda isə nikahların pozulmasından sonra yaranan hüquqi-psixoloji problemlərin qanuni və sivil şəkildə həll olunmasıdır. Düzgün ailə münasibətləri, sağlam ailə modeli barədə təsəvvürlərin yaranmasında kütləvi informasiya vasitələrinin rolu danılmazdır.



Bu gün mediada işıqlandırılan ailə modeli geniş auditoriyanın təsəvvüründə ailə ilə bağlı müsbət və mənfi obrazlar yaradaraq, cəmiyyətdə müəyyən həyati situasiyalarda davranış modelləri formalaşdırır, nəticədə kütləvi informasiya vasitələrində nümayiş etdirilən ailə modeli ictimai münasibətlərin keyfiyyətinə təsir edir.

Statistik göstəricilər daim yenilənir və zamanla dəyişir. Hazırda nikah və ya boşanma hallarının artması və ya azalması barədə fikir söyləmək tezdir. Lakin bununla yanaşı, ailə dəyərlərinin qorunması, ailə institutunun möhkəmləndirilməsi istiqamətində tədbirlər davam etdirilir və maarifləndirici işlərin gücləndirilməsinə xüsusi önəm verilir.

Son 10 il ərzində selektiv abortların artması bir neçə səbəblərlə bağlıdır. Abortların yaş kateqoriyası üzrə bölgüsünə diqqət yetirsək, görə bilərik ki, abortlar 25-34 yaş arası gənclər tərəfindən preventiv vasitə kimi daha çox tətbiq olunur. Bu yaş nikah yaşı dövrüdür. Nikah zamanı aparılan abortlar arzu olunmayan, planlaşdırılmamış və ananın həyatını təhlükə altına qoyan hamiləliyi nəticəsində baş verə bilər. Belə halların mövcudluğu onu göstərir ki, bu gün gənclərin reproduktiv sağlamlığı və ailə planlaşdırılması ilə bağlı bilikləri azdır.

Abortları yaradan digər səbəblər isə cəmiyyətdə hələ də mövcud olan stereotiplər və kənar şəxslərin ailədaxili məsələlərə müdaxiləsidir. Bu kimi halların qarşısının alınması üçün Komitə tərəfindən gender bərabərliyi, reproduktiv sağlamlıq və ailə planlaşdırılması kimi mövzularda daimi görüşlər və layihələr keçirilir, bu maarifləndirmə işləri sistematik olaraq aparılır.

**– Qadının cəmiyyətdə rolu, təhsilə çıxışı, elmdə, texnologiyada, innovasiyada fəallığının artırılması və gələcəyin məhz təhsildən başlanması ideyasının reallaşdırılması ən həssas mövzulardandır. Qadınların və gənc qızların təhsil imkanlarının genişləndirilməsinə yönəlmiş layihə və proqramlar komitənin fəaliyyətində öz əksini necə tapır?**

– Sağlam ailə mühitinin qorunması, qızların təhsil hüququnun təmin edilməsi gələcək nəslin formalaşmasında mühüm rol oynayır. Qızların savadlı, sosial cəhətdən aktiv fərdlər kimi yetişməsi milli-mənəvi dəyərlərin qorunmasına, ailə institutunun möhkəmlənməsinə cəmiyyətin inkişafına birbaşa təsir göstərir. Ucqar bölgələrdə qızların tam orta təhsilə cəlb olunma səviyyəsinin artırılması və bu nisbətin şəhər yerlərindəki yüksək göstəricilərə çatdırılması üçün il ərzində müvafiq tədbirlər və layihələr həyata keçirilir. Dövlət Komitəsi tərəfindən reallaşan "Sən tək deyilsən" adlı layihə çərçivəsində 2023-cü ildə Azərbaycan Banklar Assosiasiyası ilə əməkdaşlıq haqqında memorandum imzalanıb, "Gələcəyə əmin addımlarla" şəhid xanımlarının təhsilinə dəstək proqramı təsis edilib.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Elm və Təhsil Nazirliyinin və Təhsilin İnkişafı Fondunun birgə fəaliyyəti nəticəsində təsis edilmiş "Hənifə Məlikova – Zərdabi" adına təqaüd proqramı çərçivəsində 4 il ərzində respublikanın 58 rayonu üzrə 27 ali təhsil müəssisələrinə yüksək balla daxil olan 145 nəfər qız təqaüdlə təmin olunur.

"Gənc qızların təhsilinə dəstək" layihəsi çərçivəsində 2024-cü ildə Dövlət Komitəsi ilə "Kapital Bank" Açıq Səhmdar Cəmiyyəti arasında anlaşma memorandumu imzalanıb. "Arzumuz var" sloqanı ilə reallaşan təqaüd proqramının ilk mərhələsində Bakı şəhəri və regionlardan (Ağcabədi, Qusar, Göyçay) olan 15 nəfər abituriyent qıza dəstək göstərilir.

**– Uşaq hüquqlarının pozulması, onların mənəvi – psixoloji inkişafına zərər vuran fəaliyyətlərin yolverilməzliyi, uşaq problemləri sahəsində beynəlxalq sənədlərdə tələb olunan müddəaların yerinə yetirilməsi barədə nə deyə bilərsiniz?**

– Uşaq hüquqlarının qorunması dövlətin prioritet istiqamətlərindən biridir. Onların sağlam mühitdə böyüməsi, keyfiyyətli təhsil alması, zorakılıq və istismardan qorunması üçün həm milli qanunvericilikdə, həm də beynəlxalq öhdəliklər çərçivəsində mühüm addımlar atılır.

Bu məsələ ilə bağlı Dövlət Komitəsi digər aidiyyəti qurumlarla koordinasiyalı fəaliyyətin təşkili məqsədilə mütəmadi olaraq tədbirlər həyata keçirir, müxtəlif layihələr icra edir. Uşaqların mənəvi-psixoloji inkişafına zərər vuracaq fəaliyyətlərin qarşısının alınması məqsədilə onların ilk növbədə zərərli informasiyadan qorunmasının təmin edilməsi vacibdir. 2018-ci ildə qəbul edilmiş "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu müasir dövrdə uşaqların sosial media və digər mühitlərdə zərərli informasiya, onun mənfi nəticələrindən müdafiəsi işinin təkmilləşdirilməsinə əhəmiyyətli töhfə verir.

Birləşmiş Millətlər Təşkilatının Uşaq Hüquqları Komitəsinin 2023-cü ildə BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyası üzrə 92-ci sessiyası keçirilmiş, Azərbaycan Respublikası Hökumətinin beşinci və altıncı dövrü məruzəsinin təqdimatı baş tutmuşdur. Sessiyada Konvensiyanın "Uşaqların silahlı münaqişələrə cəlb edilməsinə dair" və "Uşaq alverinə, uşaq fahişəliyinə və uşaq pornoqrafiyasına dair" fakültativ protokolları üzrə hesabatlar ətrafında da dinləmələr aparılmışdır. Dövri məruzə əsasında qəbul olunmuş Yekun Müşahidələrdə Konvensiyasının ölkəmiz tərəfindən implementasiyası istiqamətində növbəti addımların atılmasına dair tövsiyələrin icrası məqsədilə İşçi qrup yaradılmışdır. Hazırda müxtəlif qurumların nümayəndələrindən ibarət İşçi qrup bu istiqamətdə müvafiq tədbirlər həyata keçirilməkdədir.

**– Yetkinlik yaşına çatmayanların hüquqlarının müdafiəsi komissiyalarının fəaliyyətinin günün tələblərinə cavab verməsi üçün hansı işlər görülür?**

– Prezident İlham Əliyevin 27 dekabr 2024-cü il tarixli 113 nömrəli Fərmanı ilə təsdiq edilmiş qanuna əsasən yerli icra hakimiyyətləri yanında fəaliyyət göstərən komissiyalar Uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar olaraq dəyişdirilmiş, yerli komissiyaların fəaliyyətinin təhlil edilməsi, nəticələrə uyğun tövsiyələrin hazırlanması məqsədilə Uşaq hüquqlarının müdafiəsi üzrə Katiblik fəaliyyətə başlamışdır.

Uşaq hüquqlarının müdafiəsi üzrə Komissiyalar haqqında Əsasnaməyə edilmiş yeni dəyişikliyə uyğun olaraq yerli icra hakimiyyətləri yanında Uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar ildə 4 dəfə (rüblük, altı aylıq, doqquz aylıq, illik) olmaqla, həmçinin uşaq hüquqları sahəsində qəbul edilmiş qərarlarla bağlı 3 iş günü ərzində katibliyə məlumat verirlər.

**– Ətraflı məlumata görə təşəkkür edirik.**

***Müsahibəni apardı:***
***Mehparə ƏLİYEVA***
***XQ***

*15 Sentyabr Bilik Günüdür*

**Dünən elm və təhsil naziri Emin Əmrullayevin iştirakı ilə yeni tədris ilinə dair brifinq keçirildi. Nazir bildirdi ki, yeni dərs ilində tədris prosesi 2,2 milyon uşağı əhatə edəcək. Məktəbəqədər müəssisələrdə 226 min, ümumtəhsil məktəblərində isə 1,6 milyon şagirdlə məşğələlər aparılacaq.**

# Məktəb mövsümü gəlir



Nazir qeyd etdi ki, 246 min ali, 40 min peşə, 63 min nəfər isə orta ixtisas üzrə təhsil alacaq. 226 min uşaq isə məktəbəqədər təhsilə cəlb olunacaq. Tərbiyəçilərin sertifikatlaşdırılması istiqamətində qaydalar hazırlanıb və təsdiqlənib: Hazırda 520 məktəbəqədər təhsil müəssisəsində 50 minə yaxın uşaq qida ilə təmin olunur. Müəssisələrdə isə yer çatışmazlığı var, çünki uşağını bağçaya qoymaq istəyənlər çoxdur. Elektron sistem vasitəsilə proses ciddi izlənilir.

Gələn ildən yeni qaydaların tətbiqi nəzərdə tutulur. Yeni tədris ilində, ümumilikdə, 1,6 milyondan çox şagirdin təhsil alması gözlənilir, bunlardan 130 mindən çoxu 1-ci sinfə gedənlərdir. Son 4 ildə lisey və gimnaziyalara qəbul 2 dəfə artıb, gələcəkdə bu tip müəssisələrin sayının artırılması gözlənilir. Lisey və gimnaziyaların sayı 15-dən 39-a çatdırılıb. Gələcəkdə lisey və gimnaziyaların sayının çoxaldılması planlaşdırılır. Məqsəd ölkədə olan 39 liseyin də sayının 100-ə çatdırılmasıdır.

İbtidai sinif üzrə ən zəif nəticə göstərən 4 min nəfərədək müəllimin müqaviləsinə xitam verilib. Son 10 ildə müəllimlərin orta aylıq əməkhaqqı üç dəfəyə qədər artıb. Növbəti illərdə sertifikasiya imtahanında ibtidai sinif, eləcə də Azərbaycan dili və ədəbiyyatı fənni üzrə oxuyub anlamaya yönəlik sualların çox olması planlaşdırılır. Ən böyük problem isə dilə sevginin azalması, oxuyub anlamanın yüksək səviyyədə olmamasıdır: "Biz öz dilimizi sevməliyik. Bəzən dərsliklərə klassik yazıçıların əsərlərinin salınmadığı iddia edilir. Əlbəttə, şeir oxumaq çox gözəldir, lakin oxumaq anlamaq üçün yetərli deyil".

Nazir bildirdi ki, son illərdə qəzalı məktəblərin sayı da 2 dəfəyə qədər azalaraq 400-ə enib, 600-ə yaxın yeni məktəb istifadəyə verilib. 312 ümumtəhsil müəssisəsində metodik dəstək xidməti fəaliyyətə başlayacaq. Tam orta təhsil səviyyəsi üzrə 14 məktəbdə (ümumilikdə 1238 şagird) yeni təmayül tədris modeli pilot rejimdə tətbiq olunacaq.

Monitorinqlər nəticəsində ötən il 28 məktəb direktorunun fəaliyyətinə xitam verilib. Vakant direktor vəzifələri müəssisələrin şagird sayına uyğun olaraq 500-dək və 500-dən çox olmaqla iki kateqoriyada qruplaşdırılacaq.

Şagird sayında da artım müşahidə edilir, 500-dək şagird olan müəssisələrdə əvvəlcə həmin məktəbdə çalışan direktor müavinləri və müəllimlər dəyərləndirilir. Şagird sayı 500-dən çox olan müəssisələrə, eləcə də lisey və gimnaziyalara isə direktor seçimi zamanı ilk mərhələdə şagird sayı az olan müəssisələrin direktorlarının müsahibə nəticələrinə əsasən yerdəyişməsi planlaşdırılır. Ən önəmli məlumatlardan biri də yeni tədris ilində Qarabağ Universitetində 2 mindən çox tələbənin təhsil almasıdır. Qarabağ Universitetində ilk dəfə tibb ixtisası üzrə 70, tibb bacısı (qardaşı) ixtisası üzrə 30 nəfər tələbə adını qazanıb.

Yeniliklərdən biri də müəllimlər üçün vahid geyim formasının yaradılmasının yeni tədris ilində də nəzərdə tutulmamasıdır: "Bəzi yerlərdə belə təcrübə var, amma bizim gələcəklə bağlı belə planımız yoxdur".

Müəllimlərin İşə Qəbul (MİQ) imtahanı da ödənişli olacaq, lakin qiymətlər rəmzi və xərcləri ödəmək üçün təyin ediləcək: "Çünki bəzi şəxslər imtahanda iştirak üçün qeydiyyatdan keçir, amma imtahana gəlmir. Qiymət bazara uyğun, bəzi şəxslər üçün isə pulsuz olacaq. Məqsəd məsuliyyət yaratmaqdır. İmtahanda iştirak üçün 60 minə yaxın müraciət olur, amma onlardan 48 mini gəlir. Bu zaman biz imtahana gəlməyən şəxs üçün kifayət qədər xərc çəkmiş oluruq və bu rəqəm heç də kiçik deyil".

***Ləman TƏHMƏZ***
***XQ***

# Rüstəmxanlı poeziyası sərhədləri aşır

**Azərbaycanın Xalq şairi Sabir Rüstəmxanlının alban dilinə tərcümə edilmiş şeirləri Albaniyanın "Albsprit" dərgisində çap olunub. Hindistanın Benqal vilayətində populyar "Swapner Vela Shaitya Patrike" ədəbiyyat portalı da Sabir Rüstəmxanlının benqal və ingilis dilinə tərcümə edilmiş şeirlərini yayımlayıb. Hər iki dərgidə şeirlər şairin yaradıcılığı haqqında geniş məlumatla təqdim olunub.**

Geniş oxucu auditoriyasına malik "Albsprit" dərgisi və "Swapner Vela Shaitya Patrike" ədəbiyyat portalı mütəmadi olaraq səhifələrində məşhur dünya şair və yazıçılarının yaradıcılığını işıqlandırır.

Qeyd edək ki, 2 ay əvvəl Sarayevonun "Bookline" nəşriyyatında Sabir Rüstəmxanlının ölkəmizdə və onun hüdudlarından kənarda böyük populyarlıq qazanmış "Ömür kitabı" əsəri də ingilis dilində Qərbi Balkan və Avropa oxucularına təqdim edilib. Avqust ayında isə Xalq şairinin AJB üzvü, yazıçı Cahangir Namazova müsahibəsi Albaniya saytında dərc olunub.



***XQ***

# "Ulduzlar"ın çay dəstgahı

## *Xaçmazda ədəbi məclis milli ruha köklənib*

**Murad Qudyalçaylı adına "Ulduzlar" ədəbi məclisinin növbəti toplantısının Əməkdar jurnalist Azər Həsrətin təşəbbüsü ilə çay süfrəsi arxasında keçirilməsi iştirakçıların ürəyincə olub. Söz xiridarları bölgənin ədəbi mühiti, istedadlı gənclərin üzə çıxarılması və onlara dəstək verilməsinin yolları barədə danışıblar.**



"Ulduzlar"ın baş katibi Aqşin Dadaşoğlu deyib ki, bundan sonra ədəbi məclisin toplantıları darıxdırıcı iclas şəklində deyil, asudəlik və rahatlıq şəraitində keçiriləcək. Budəfəki məclisə evsahibliyi edən Azər Həsrət bölgənin ədəbi potensialından yetərincə istifadə edilmədiyi barədə danışaraq qarşıdakı mərhələdə yaradıcı insanları səfərbər etməyin, ortaya dəyərli ədəbiyyat nümunələrinin çıxarılmasının vacibliyini qeyd edib.

Azərbaycan Yazıçılar Birliyi Quba bölməsinin rəhbəri, tanınmış şair Ramiz Qusarçaylı toplantıya onlayn qoşularaq ürək sözlərini söyləyib, səfərdə olduğuna görə məclisə qatıla bilmədiyindən təəssüfləndiyini, ədəbi yaradıcılıq məsələlərində hər zaman istedadlı insanların yanında olduğunu bildirib.

Çay süfrəsi ətrafında davam edən məclisdə baş katib Aqşin Dadaşoğlu, AYB və AJB üzvü olan şairlər – Məmməd Qədir, Cümşüd Aydəmir, Səyyad Sərraf, İbrahim Ağçaylı, Firudin Həvəskar, Gözəl Azayeva, qəzəlxan Mövlan Şahid, gənc şairlər Səməd Asifoğlu və Kənan Rahi yeni əsərlərini oxuyublar.

Məclisdə iştirak edən Xaçmaz rayon Heydər Əliyev Mərkəzinin direktoru Könül Əsgərova və Tarix Diyarşünaslıq Muzeyinin direktoru Pakizə Mehdiyeva çıxışlarında son illər bölgədə yaradıcı insanların çoxaldığını, onların potensialının düzgün dəyərləndirilməsinin vacibliyini vurğulayıblar.

***Fidan ƏLİYEVA***
***XQ***

*Təbiət insafa çağırır*

# Ağstafa və Ramanada da heyvanlar xilas edilib

**IDEA İctimai Birliyinə daxil olan vətəndaş müraciəti əsasında sentyabrın 9-da Daxili İşlər Nazirliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə növbəti təcili araşdırma tədbirləri həyata keçirilib.**







IDEA-nın təşəbbüsü ilə aparılan araşdırma nəticəsində Sabunçu rayonunun Ramana qəsəbəsində yerləşən həyətyanı sahələrdən birində adı Azərbaycanın "Qırmızı Kitab"ına daxil edilmiş 1 qara kərkəs quşunun qanunsuz olaraq qeyri-sərbəst şəkildə saxlanılması müəyyən olunub.

Bununla yanaşı, həmin gün keçirilən digər analoji araşdırma zamanı Ağstafa rayonunun Kolxəlfəli kəndi ərazisində yerləşən "Yaşılbağ" Ailəvi İstirahət Mərkəzinin həyətyanı sahəsində makaka cinsindən olan 2 meymunun qanunsuz saxlanıldığı faktı aşkarlanıb.

Xilas edilən fauna növləri baytar mütəxəssislər tərəfindən ərazidən götürülərək müayinə və reabilitasiya üçün Bakı Zooloji Parkına təhvil verilib.

IDEA İctimai Birliyi vətəndaşları bir daha təbiəti qorumağa çağırır və vəhşi heyvanların qanunsuz olaraq saxlanılması hallarına yol verilməməsini, bu kimi hallarla rastlaşdıqda isə IDEA İctimai Birliyinin 1113 "Təbiətə Təcili Yardım" qaynar xəttinə və ya rəsmi sosial media kanallarına məlumat verməyi xahiş edir.

***XQ***

# Trampı kədərləndirən və qəzəbləndirən iyrənc qətl

**ABŞ Prezidenti Donald Tramp tanınmış sağ-mühafizəkar fəal Çarli Kirkin qətlə yetirilməsi ilə bağlı xalqa müraciət edib. Dövlət başçısı öz çıxışını şəxsi sosial şəbəkə hesabında paylaşaraq baş verən hadisəni "iyrənc qətl" adlandırıb və bunun bütün millət üçün böyük itki olduğunu bildirib.**



"Çarli milyonlarla insana ilham verirdi. Onu tanıyan və sevən hər kəs bu gün şok və dəhşət içindədir. Mən kədər və qəzəb içindəyəm. O, ölkəsini dərindən sevən və həyatını açıq debatlara həsr edən əsl vətənpərvər idi", – Tramp qeyd edib. Prezident faciənin xatirəsinə ABŞ-da dövlət bayraqlarının endirilməsinə çağırış edib.

Rəsmi məlumatlara görə, 31 yaşlı Kirk 11 sentyabrda Yuta Vadisi Universitetində çıxış edərkən öldürülüb. Polisin açıqlamasına görə, atəş qonşu binanın damından açılıb. Şübhəli şəxs hələ də azadlıqdadır, istintaqı Federal Təhqiqatlar Bürosu aparır.

Çarli Kirk uzun illərdir respublikaçılar arasında ən tanınmış simalardan biri idi. O, 2016-cı ildə Respublikaçılar Partiyasının qurultayında çıxış etmiş, Trampın tərəfdarı kimi ictimaiyyətə tanınmışdı. Onun sosial şəbəkələrdə, ümumilikdə 100 milyona yaxın izləyicisi vardı. Kirk "Charlie Kirk Show" adlı proqramı ilə də geniş auditoriya toplayırdı.

Siyasi fəal ABŞ-ın xarici siyasətində Ukraynaya hərbi dəstəyin əleyhinə çıxış edir, münaqişənin yalnız hakim dairələr və hərbi-sənaye kompleksi üçün sərfəli olduğunu bildirirdi. O, Krımın zorla qaytarılmasının mümkün olmadığını, bu bölgənin Rusiyanın bir hissəsinə çevrildiyini deyirdi.

Çarls Ceyms Kirk 1993-cü il oktyabrın 14-də İllinoys ştatının Arlinqton-Hayts şəhərində doğulub. Harper Kollecində təhsil alsa da, oranı tamamlamayıb. 2012-ci ildə biznesmen Uilyam Montqomeri ilə birlikdə "Turning Point USA" adlı təşkilat yaradıb və qurumun baş direktoru vəzifəsində çalışıb. Daha sonra o, "Turning Point Endowment" (2017), "Turning Point Action" (2019) və "Turning Point Faith" (2021) kimi qurumların əsasını qoyaraq konservativ ideyaların ABŞ təhsil sistemində və kilsələrdə təbliği ilə məşğul olub.

2020-ci ildən radio aparıcısı kimi fəaliyyət göstərən Kirk 2025-ci ildə Tramp tərəfindən ABŞ Hərbi Hava Qüvvələri Akademiyasının İzləyici Şurasına təyin edilmişdi. Bu ilin fevralında isə o, "Trinity Broadcasting Network" telekanalı ilə gündəlik "Charlie Kirk Today" verilişini aparmaq üçün müqavilə imzalamışdı. Beş kitab müəllifi olan Kirk 2019-cu ildə Lberti Universiteti tərəfindən fəxri humanitar elmlər doktoru adına layiq görülmüşdü. Onun "YouTube" kanalının 3,83 milyon abunəçisi vardı.

Çarli Kirkin qəfil ölümü ABŞ siyasi həyatında ciddi rezonans doğurub. Mühafizəkar düşərgə onun itkisini "böyük boşluq" kimi qiymətləndirir, demokrat düşərgə isə qətl faktının ölkədə siyasi ekstremizmin artmasına dair təhlükəli siqnal olduğunu bildirir.

***XQ***

# ABŞ Konqresində UNO dinləmələri

## *Sirli obyektlər nələrdən xəbər verir?*



**ABŞ Konqresində nümayiş etdirilən və Yəmən sahillərində qeydə alınmış naməlum uçan obyektin "Hellfire" raketinə qarşı tam toxunulmazlıq nümayiş etdirdiyi video bütün dünyada rezonans doğurub. Hadisə həm elmi, həm də hərbi təhlükəsizlik baxımından qlobal gündəmin əsas mövzularından birinə çevrilib. 2024-cü il oktyabrın 30-da baş verən bu hadisə MQ-9 Reaper tipli pilotsuz uçuş aparatı tərəfindən lentə alınıb. Kadrlar göstərir ki, ABŞ ordusunun yüksək dəqiqlikli "Hellfire" raketi obyektə dəydikdən sonra istiqamətini dəyişərək kənara çəkilir, naməlum uçan obyekt isə heç bir zərər görmədən əvvəlki trayektoriyası üzrə hərəkətini davam etdirir. Konqresmen Erik Berlison görüntüləri təqdim edərək bildirilib ki, "mən bunu izah etməyəcəyəm, siz öz gözlərinizlə görəcəksiniz". Onun sözlərinə görə, bu hadisə ABŞ ordusunun arsenalındakı ən müasir silahlardan birinə qarşı tam toxunulmazlıq nümayiş etdirən naməlum texnologiyanı əks etdirir.**

Məşhur jurnalist Corc Knapp da videonu izlədikdən sonra bildirib ki, "Hellfire" raketinin obyektə dəydikdən dərhal sonra sanki divara çırpılıb geri sıçraması hərbi texnologiya baxımından izaholunmaz hadisədir. Dinləmələrdə iştirak edən ABŞ Hərbi Hava Qüvvələrinin üç veteranı da şahid ifadəsi verib. Onlardan biri hərbi polis zabiti olmuş Ceffri Nuççetli göstərilən kadrlara "UNO-nun (Uçan Naməlum Obyekt) mövcudluğunun istisnasız sübutu" adını verib. O, xidmət illərində dəfələrlə qeyri-adi uçan obyektlər gördüyünü, o cümlədən nəhəng üçbucaqlı aparatlar, işıqlı kub formalı obyektlər və məşhur "Tic Tac" formalı UNO-lara rast gəldiyini vurğulayıb. Bu hadisə ABŞ Konqresində aparılan UNO və "naməlum anomaliya hadisələri" üzrə dinləmələrdə ən çox müzakirə olunan məqamlardan birinə çevrilib. İlk dəfə olaraq ictimaiyyətə ABŞ silahlı qüvvələrinin döyüş şəraitində naməlum obyektlə qarşılaşması və həmin obyektin müasir silahlara qarşı tam müdafiə qabiliyyəti nümayiş etdirməsi təqdim olunub.

ABŞ-da UNO-larla bağlı açıq dinləmələrin kökləri XX əsrin ortalarına gedib çıxır. "Rosuell hadisəsi" və daha sonra ard-arda baş verən "UFO dalğaları" Vaşinqtonda xüsusi komissiyaların yaradılmasına səbəb olub. Lakin uzun illər ərzində bu məsələ daha çox qapalı şəkildə, Pentaqonun hərbi hesabatlarında saxlanılırdı. Son onillikdə isə vəziyyət dəyişib. 2017-ci ildə "New York Times"ın dərc etdiyi məxfi hərbi pilot videoları – "Tic Tac" adı ilə məşhurlaşan UNO müşahidələri – mövzuya rəsmi yanaşmanı tamamilə yenilədi. Ardınca ABŞ Müdafiə Nazirliyi "UAP Task Force" adlı xüsusi bölmə yaratdı və 2021-ci ildə Konqresə ilk hesabat təqdim edildi. Bu hesabatda qeyd edilirdi ki, 2004–2021-ci illər arasında 140-dan çox UNO hadisəsi qeydə alınıb və onların əksəriyyətinin texnoloji izahı yoxdur.

Yəmən sahillərindəki insidentin xüsusiliyi ondadır ki, ilk dəfə ABŞ silahlı qüvvələrinin müasir silah sistemi naməlum obyektlə qarşılaşıb və təsirsiz qalıb. Bu, təkcə texnoloji yox, həm də strateji suallar doğurur: əgər belə obyektlər insan mənşəli deyilsə, onda bu, beynəlxalq təhlükəsizlik üçün nə deməkdir? Əgər insan mənşəlidirsə, hansı dövlət belə texnologiyaya malikdir və niyə gizli saxlayır? ABŞ ictimaiyyətində mövzuya münasibət ikili qalır. Bir tərəfdən, geniş əhali kütləsi və mediada bu hadisələr "insanlığın kainatda tək olmadığının sübutu" kimi təqdim olunur. Digər tərəfdən, skeptik alimlər və siyasətçilər bunun ya texniki nasazlıq, ya da rəqib dövlətlərin gizli silah sınaqları ola biləcəyini iddia edirlər.

Rusiya uzun illərdir UNO mövzularına şübhə ilə yanaşır. Moskva bu cür məlumatları ya "ABŞ ictimaiyyətini manipulyasiya etmək üçün fantaziya", ya da "yeni texnoloji sınaqların üstünü örtmək üçün uydurma" kimi qiymətləndirir. Bununla yanaşı, Rusiya Müdafiə Nazirliyi 1990-cı illərdə öz pilotlarının da "anlaşılmaz uçan obyektlər" barədə hesabat verdiyini etiraf etmişdi. Lakin Kremlin rəsmi mövqeyi dəyişməz olaraq qalır: "Əslində, bu, sirr pərdəsi altında saxlanılan Amerika texnologiyasıdır". Çin isə bu məsələyə daha praqmatik yanaşır. Pekin son illərdə "UNO-ların öyrənilməsi üzrə milli proqram" başladığını elan edib. Çin alimləri bildirirlər ki, bu cür obyektlər, əgər həqiqətən də mövcuddursa, texnoloji inqilaba yol aça bilər. Eyni zamanda, Çin hərbi dairələri hesab edir ki, ABŞ-ın belə kadrları ictimailəşdirməsi Qərb cəmiyyətində panika yaratmaqla yanaşı, Pekinə qarşı "psixoloji basqı" amili ola bilər.

Avropada isə yanaşma daha neytraldır. Fransa Müdafiə Nazirliyi artıq illərdir "GEIPAN" adlı xüsusi qurum vasitəsilə UNO müşahidələrini toplayır və ictimaiyyətlə paylaşır. Böyük Britaniyada isə Müdafiə Nazirliyi 2009-cu ildə "UFO desk" adlı bölməni bağlasa da, son illərdə yenidən ictimai maraq fonunda bu məsələyə qayıdıb. NATO dairələrində də Yəmən hadisəsi ilə bağlı müzakirələrin aparıldığı və "əgər bu obyektlər real təhlükədirsə, alyansın kollektiv cavab mexanizmləri necə olmalıdır?" sualının gündəmə gəldiyi bildirilir. Elmi dairələrdə də fikir ayrılığı var. Bir qrup alim bunun, sadəcə, texniki səhv və ya optik illüziya olduğunu iddia edir. Digər qrup isə hesab edir ki, artıq hökumətlərin açıq şəkildə qəbul etdiyi müşahidələr təsadüfi deyil və kainatda başqa sivilizasiyaların mövcudluğunu inkar etmək getdikcə çətinləşir.

Yəmən sahillərindəki insident təkcə ABŞ ictimaiyyətini deyil, bütün dünyanı düşündürür. ABŞ Konqresində yayımlanan görüntülər göstərir ki, məsələ artıq, sadəcə, "fantastik hekayə" çərçivəsində deyil, real təhlükəsizlik, texnologiya və beynəlxalq münasibətlər kontekstində müzakirə olunur. Dünya dövlətlərinin fərqli mövqeləri isə onu göstərir: UNO mövzusu yaxın illərdə həm geosiyasi rəqabətin, həm də elmi axtarışların əsas istiqamətlərindən birinə çevrilə bilər.

***Səbuhi MƏMMƏDOV***
***XQ***



# Bəxtiyar Vahabzadə elektron salnaməsi

**AMEA Rəyasət Heyətinin iclasında Xalq şairi Bəxtiyar Vahabzadənin 100 illik yubileyi ilə əlaqədar Mərkəzi Elmi Kitabxana tərəfindən hazırlanmış veb-səhifənin təqdimatı olub.**

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli bildirib ki, ölkə başçısının "Bəxtiyar Vahabzadənin 100 illik yubileyinin qeyd edilməsi haqqında" sərəncamına uyğun olaraq, Xalq şairinin irsinin öyrənilməsi və təbliği üzrə çoxsaylı tədbirlər keçirilib. AMEA-nın Mərkəzi Elmi Kitabxanasında görkəmli ədibin həyat və yaradıcılığına həsr olunmuş yeni elektron resursun hazırlanması da bu sıradandır.

Akademiyanın Mərkəzi Elmi Kitabxanasının direktoru, texnika elmləri doktoru Hüseyn Hüseynov yeni hazırlanmış ere-surslar.info.az elektron resursunu təqdim edib. Vurğulanıb ki, müasir texnologiyaların imkanları ilə hazırlanan platforma böyük sənətkarın zəngin irsini həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə tanıtmaq məqsədi daşıyır.

Resursda şairin avtobioqrafiyası, əsərləri, kitabları və şeirləri geniş şəkildə təqdim olunur. Burada istifadəçilər Bəxtiyar Vahabzadənin müəllifi olduğu və müxtəlif illərdə nəşr edilmiş "Seçilmiş əsərləri", "Axı dünya fırlanır", "Gülüstan" poeması, "Dərin qatlara işıq", "Səməd Vurğun", "Mənim dostlarım" və s. əsərləri, "Gəlin açıq danışaq..." məqalələr toplusu, "Fəryad", "Bir baharın qaranquşu" kimi 80-dən artıq kitabı ilə tanış ola bilərlər. Həmçinin 14 adda əsərin ingilis dilində olan tərcüməsi də resursun "Şairin yaradıcılığı" bölməsində təqdim edilir.

Diqqətə çatdırılıb ki, elektron bazada, həmçinin sənətkarın dövlət mükafatları, fəxri adları, orden və medalları barədə məlumatlar toplanıb. "Fotoyaddaş" bölməsində şairin həyatının müxtəlif mərhələlərini əks etdirən fotoşəkillər, video arxivdə isə çıxışları, müsahibələri və sənədli materiallar sistemləşdirilib. Burada, həmçinin şairin şeirlərinə bəstələnmiş mahnılar da yer alıb.

Təqdimatda qeyd olunanlar əyani nümayiş etdirilib və Bəxtiyar Vahabzadənin 100 illik yubileyinə həsr olunmuş elektron resursu rəyasət heyətinin üzvləri yüksək qiymətləndiriblər.

***Ə.ƏLİYEV***
***XQ***



# Yeni yaranan "qara dəlik"lər

**Alimlər ilk dəfə iki "qara dəliy"in birləşərək nəhəng kosmik obyektə çevrilməsini "eşidə" biliblər. Bu hadisə məşhur fizik Stiven Hokinqin yarım əsrdən çox əvvəl irəli sürdüyü, lakin onun ömrü boyu təsdiqlənməyən nəzəriyyəsinin ən güclü sübutu oldu.**

Maks Plank adına Potsdam Qravitasiya Fizikası İnstitutunun doktorantı Edrian Abakın rəhbərliyi ilə aparılan tədqiqat yanvarın 14-də Lazer İnterferometrik Qravitasiya Rəsədxanasının (LIGO) qeydlərinə əsaslanır. Həmin gün rəsədxana "qara dəlik"lərin birləşməsinə işarə edən qravitasiya dalğalarını qeydə aldı. Nəticədə, yeni yaranmış "qara dəlik" əvvəlkilərdən xeyli böyük oldu.

Birləşmədən əvvəl 2 "qara dəliy"in ümumi səth sahəsi, təxminən, 243 min kvadratkilometr idi. Birləşmədən sonra isə yeni yaranan tək "qara dəliy"in səth sahəsi təqribən, 400 min kvadratkilometr təşkil etdi. Alimlərin sözlərinə görə, bu, Hokinqin 1971-ci ildə irəli sürdüyü "qara dəlik"lərin hadisələrin üfüqü sahəsi haqqında nəzəriyyəsini təsdiqləyir. Hokinq iddia edirdi ki, "qara dəliy"in hadisələr üfüqünün səthi zamanla kiçilir.

"Sadə görünsə də, bu fikir çox böyük nəticələrə malikdir", – araşdırmanın həmmüəllifi, Kolumbiya Universitetinin dosenti və Fletayron İnstitutunun elmi əməkdaşı Maksimiliano İsi bildirib. Tədqiqatçılar vurğulayıblar ki, bu kəşf "qara dəliklər" haqqında anlayışımızı möhkəmləndirir və onların termodinamik obyektlər kimi nəzərdən keçirilə biləcəyini sübut edir. Eyni zamanda bu, "qara dəliy"in daxilindəki məlumatın (və ya entropiyanın) onun səth sahəsinə mütənasib olduğunu göstərir.

Bundan əvvəl alimlər Yer kürəsindən bir milyard işıq ili uzaqlıqda yerləşən bir qalaktikada iki fövqəlnəhəng "qara dəliy"in bir qaz buludunu birgə "udduğunu" müşahidə etmişdilər. Onların ümumi kütləsi Günəşin kütləsindən 40 milyon dəfə çoxdur. "Qara dəlik"lər bir-birinin ətrafında fırlanır və hər 130 gündən bir yaxınlaşırlar ki, bu da həmin qeyri-adi "ortaq ziyafət"ə səbəb olub.

Bu kəşf təkcə Hokinqin fundamental ideyalarını təsdiqləmir, həm də "qara dəlik"lərin təkamülünü və onların qarşılıqlı təsiri ilə bağlı kosmik prosesləri öyrənmək üçün yeni imkanlar açır.

***XQ***

**AZƏRBAYCAN KOOPERASİYA UNİVERSİTETİ**

*ştatda olan boş vəzifələri tutmaq üçün*

**MÜSABİQƏ ELAN EDİR**

**Kompüter mühəndisliyi və informasiya texnologiyaları kafedrası - kafedra müdiri.**

Sənədlər bu elan dərc edildiyi gündən 1 ay müddətində Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi Kollegiyasının 15 noyabr 2017-ci il tarixli 5/5 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları"na uyğun olaraq rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir.

**Telefon: (012) 561-29-72.**

**Ünvan: AZ 1106, Bakı şəhəri, Nəcəf Nərimanov küçəsi 93, otaq 205.**

***Rek ɒ luq***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 194 (30888) 12 sentyabr 2025-ci il, cümə

# İDMAN

## 2 boksçumuz Dünya çempionatının yarımfinalında

**İngiltərədə keçirilən boks üzrə dünya çempionatında bütün yarımfinalçılar məlum olub.**




90 kiloqram çəkidə mübarizə aparan boksçumuz Alfonso Dominqes Liverpul şəhərində keçirilən dünya çempionatının 1/4 final mərhələsində Emrah Yaşarı (Türkiyə) 3:2 (28:29, 30:27, 28:29, 29:28, 29:28) hesabı ilə məğlub edərək finala yüksəlib.

Onun komanda yoldaşı Səidcəmşid Cəfərov (75 kiloqram) da 1/4 final mərhələsini qələbə ilə başa vurub. Boksçumuz Pavlo İlliuşa (Ukrayna) 5:0 (29:28, 29:28, 29:28, 30:27, 29:28) hesabı ilə qalib gəlib. Beləliklə, bu qələbə sayəsində boksçularımız özləri üçün ən azı bürünc medalı təmin ediblər.

Səidcəmşid Cəfərov yarımfinalda özbəkistanlı Fazliddin Erkinboyevlə, Alfonso Dominqes isə braziliyalı Santos Ribeyro Filyo ilə döyüşəcək. Hər iki görüş bu gün keçiriləcək. Mundiala sentyabrın 14-də yekun vurulacaq.

## "Qarabağ" ilk 100-lükdə

**Beynəlxalq Futbol Tarixi və Statistikaları Federasiyası klubların yeni dünya reytinqini açıqlayıb. 506 komandanın daxil olduğu siyahıda Azərbaycanın 4 klubu yer alıb.**



Siyahıda 38 pillə irəliləyən "Qarabağ" (154,75 xal) 96-cı yerdə qərarlaşıb. "Sabah" (79,25 xal) 38 pillə geriləyərək 302-ci, "Araz-Naxçıvan" (70,25 xal) 8 sıra irəliləyərək 355-ci olub. "Zirə" (68 xal) isə 274-cü yerdən 380-ci pilləyə düşüb.

Qeyd edək ki, dünya reytinqinə Fransanın PSJ klubu (543 xal) başçılıq edir.

## Gündüz Formula-1, axşam açıq yolar

**Sentyabrın 19–21-də keçiriləcək Formula 1 Azərbaycan Qran-prisində paytaxt küçələrinin müəyyən hissələri nəqliyyat üçün istifadəyə veriləcək.**



Bakı Şəhər Halqasından verilən məlumata görə, şəhər sakinlərinin rahatlığı üçün tranzit dəhlizlər bu il də fəaliyyət göstərəcək.

Beləliklə, sentyabrın 15–17-də səhər saat 07:00–09:00 və axşam saat 18:00–20:00-da, sentyabrın 18-də isə səhər 07:00–09:00 və axşam 20:00–22:00-da trekin bəzi hissələrindən nəqliyyat vasitələrinin hərəkəti mümkün olacaq.

Məlumatda qeyd olunub ki, bu yollar yalnız tranzit məqsədilə nəzərdə tutulur, dayanma və parklama qadağandır.

***Qabil YUSİFOĞLU***
***XQ***

***✓ 2023-cü il iyunun 25-də Bakı şəhəri, 6 nömrəli məktəb lisey tərəfindən Həsənzadə Mətin Rasim oğlunun adına verilmiş tam orta təhsil haqqında 570618 nömrəli və 9-cu sinfi bitirmək haqqında attestatlar itdiyi üçün etibarsız sayılır.***

# Dərya kənarında balıq dərsi

**Uşaqlıq illərinin xatirələrini vərəqlədikcə səhər tezdən kimisinin tarlaya, kimisinin də çiyinlərində uzanan qarğı balıq ovuna tələsdiyi yada düşür. O vaxt hamı balıq ovunda məhz qarğıdan istifadə edirdi.**



Adətən, yanımızda təcrübəli bir balıqçının olmasını istəyirdik. Bu sarıdan bəxtimiz bir balaca gətirmişdi. Bizdən yaşca böyük və təcrübəsi olan qonşu Mehman, sanki, bizə müəllimlik edirdi. O, bizə ov sarıdan "dərs" keçər və həmişə söyləyərdi ki, balığın da ovlanmaq saatı var. Biz yeniyetmələr də bu fikrə "balıqlar da saat taxır" anlamı verərdik. Mehmansız balıq ovunda isə uşaqlara aramızda bu saat məsələsini müzakirə edər, "yəqin balıqlar növbə ilə" atdığımız tilova yaxınlaşırlar, - deyə düşünərdik. O illərdən biz düz 40 ildən çox vaxt ayırır.



Hazırda Dənizkənarı Bulvarda xüsusi yer ayrılıb ki, bura balıq həvəskarlarının ən çox üz tutduğu ünvandır. Dənizkənarına çatanda dan yeri yenicə işıqlanırdı. Həftənin ikinci günü və səhər saatları olsa da balıqçıların gəlişi gözə dəyirdi.

Estakadaya daxil oluruq. Hələ ki sakitlikdir. Hamı tilovunu atıb "dörd gözlə" ovunu gözləyir. İlk həmsöhbətim Vaqif dayıdır. Əslən bakılıdır. Vaxtilə uşaqlığı "Montin"də keçib. Balıq həvəskarıdır. Məram və məqsədimi bildirirəm. Burada nə qədər balıqçı varsa, hamısının ustadı bax o ağsaqqaldır.

– Talış, ay Talış, "qonağımız var" – deyə ucadan səsləyir. Qısa bir məsafəni asta-asta gedərək özüm özümə "nə yaxşı oldu, cənub zonasında da balıqçılıq həmişə olub. Maraqlı söhbət alınacaq"- deyə yönəldilən ünvana yetişirəm.

– Bizi də yada salan olarmış. Bir vaxtlar çox gəlib, yazı-reportajlar hazırlayardılar. Son illər çox az maraqlanırlar. Həmişə də təcrübəli balıqçı kimi söhbəti mənimlə ediblər.

– Təcrübəniz, yəqin, Lənkəranın, Astaranın dənizə çıxışı ilə bağlı olub. Bunu eşidər-eşitməz ağsaqqalın şaqqanaq çəkərək ürəkdən gülməyi ilə ətrafdakı adamlar bizi əhatəyə aldılar.

– Balıqçılardan biri yenə nə oldu, elə ürəkdən güldün. De biz də gülək, səhər-səhər kefimiz açılsın. Bu qardaş elə bilir ki, mən cənub bölgəsindənəm. Təbəssümlə söhbətə davam edir:

– Yox ay oğul, adım Talışdır. Əslən qarabağlıyam. Uşaqlığımızdan balığa olan həvəs bizi bu gün bura gətirib. Qarabağ kanalında inanın ki, gecədən səhərə kimi balıq ovlayar, gündəlik həm qidamızı, həm də çörək pulumuzu qazanardıq. Uzun illərdir ki, dəniz kənarına gəlirəm. Bu bir adət halını alıb. Bir gün gələ bilməyəndə darıxıram. Xüsusilə yay aylarında. Sübh tezdən gün batana kimi buradayam. Özüm ilə bütün tədarükümü – çayımı-yeməyimi gətirirəm. Yaşım da 80-i haqlayıb. Bura mənim üçün cənnətməkandır. Bu, mənə ruhən istirahət yaşadır, mənalı və unudulmaz anları isə xatirəyə çevirir.



Müəyyən müddət ərzində insan bütün qayğılardan azad olur. Hətta gərginlikdən azacıq da olsa uzaqlaşır və özünü gümrah hiss edir. Bütün dostlarıma sanatoriyalara getməkdənsə kimi balıq tutmağı, kimi özlərinə hobbi məsləhət görürəm. Di gəl ki... Eşidən yoxdur. Həkim insanlara əsasən günəş altında gəzməklə "D" vitamini və təmiz hava qəbul etməyi məsləhət görür. İkisini də burada tapmaq mümkündür.

Bura gələnlərin çoxu uzun illərin balıqçılarıdır. Aralarında dostluq əlaqələri də yaranıb. Balıq tutmaq hamı üçün, sanki, bir hobbidir. Bircə başını qaldır göyə bax. Qağayılar necə də sıraya düzülüb. Onlar da bizim kimi ruzilərini gözləyirlər. Elə bil "dron"durlar. Sanki bizə nəzarət edirlər. "Bıçok"ların da qənimidirlər. Yeyib doydularsa, ətrafımızda dövr edirlər. Hələ onların bir ağızdan nəğmə deməlirini eşidəsiniz. Bu estakadanı da axşama doğru bizimlə birgə tərk edirlər. Hər səhər də qarşılayırlar.

"Heç balıqların "rəqsi"ni görmüsünüzmü?" – həmsöhbətim sual verir. "O necə olur?" – təəccüblə soruşuram. Talış dayının bir iri çörək parçasını dənizə atmağı ilə balıqların doğrudan da "rəqsi" başlayır. Bizim üçün əziz nemət olan çörəyi elə şirin yeyirlər ki, hər tərəfə səs yayılır. Gözümün önündə körpə bir uşağın ilk dəfə çörəyi damağına çəkməsi canlanır. Talış dayı bundan həzz alıb kövrəldiyini gizlətməyə çalışsa da danışığında hiss olunacaq dərəcədə büruzə verir.

Tamaşa etdikcə şirin söhbəti ilə yanaşı gözlərini bir anlıq da olsun tilovdan çəkmir. İndi kütüm, "slyotka" vaxtıdır. Diqqətlə fikir ver, 100 metr məsafəyə atdığım tilov ancaq kütüm balığı üçündür. Biz kütüm balıqlarını məhz o zonaya öyrəşdirmişik. Gələn aydan etibarən kifal balığının mövsümü başlayır. Atalarımız demişkən: "Könlü balıq istəyənin, quyruğu suda ola gərək".

Talış dayı tutduqca tilovuna düşməyən digər balıqçıların nigaranlığı açıq-aşkar sezilir. Vaqif dayı estakadanın o başından səslənir: ay Talış, "Brilyant əl" kinosuna yəqin baxmısan. Yoxsa "vodalazlar" sənin üçün suyun altında tilovuna balıq taxır. Nahaq yerə sənə "ustad" demirik ki... Gərək sənətkar olasan.

Talış dayı balıqçılıqdan elə maraqlı faktlar söyləyir ki... Balıq ovu dünyada ən yaxşı məşğuliyyət növlərindəndir. Tilovun yeminə qədər diqqətli olmalısan. Onu elə yerləşdirməlisən ki, balıq duyuq düşməsin. O, yemi hədəfə alana kimi xeyli müşahidə edir. Gərək balığın "nazı" ilə oynayasan.

Bir azdan Vaqif dayının ucadan səsi gəlir: Hamı eşitsin, iki gün şimal, daha sonra cənub küləyi əsəcək. Deməк ki, dörd gündə balığımız bol olacaq.

Ovunuz rast gətirsin, balıqçı qardaşlar!

***Müşfiq MİRZƏ***
***XQ***

# Gəncəyə yağış yağır…

**Gəncəyə yağış yağır… Göy üzündən süzülən damlalar sanki təkcə torpağı deyil, bu qədim şəhərin yorğun ruhunu da yuyur. O uzun, ağır yay istilərindən sonra şəhər ilk dəfədir belə rahat nəfəs alır. Küçələrin daş döşəməsi səssizcə üzü tündləşən səmanı dinləyir, binaların divarları illərin həsrətiylə yağan yağışa söykənir.**



Yağış Gəncənin üstünü təkcə su ilə deyil, sükutla, sərinliklə örtür. Sanki hər damla bir duadır. Nizaminin misralarından süzülən, Cavad xanın xatirəsində yaşayan dua.

Hələlik adda-budda olsa da yerə tökülən qızılı yarpaqlar yağışın suyu ilə bir-bir yuyulur. Elə bil təbiət özü də bu şəhərin tarixindən, qürurundan, min illər boyu çəkdiyi dərdlərdən xəbərdardır. Gəncə təkcə torpağa deyil, sanki yaddaşına da su verir.

Köhnə küçələrin sükutunda da bir musiqi var bu gün. Yağışla birgə pıçıldayan ağaclar, damlara çırpılan damlaların ritmi, insanların addımlarındakı tələsməyən sabitlik…

Bəlkə də Gəncə bu yağışla təkcə sərinləmək deyil, içindəki təlatümü də bir anlıq susdurmaq istəyir. Axı hər şəhərin arada dincliyə, tənhalığa, bir səssizliyə də ehtiyacı var…Elə bugünkü kimi. Amma bu sükut uzun çəkməyəcək. Gəncə sentyabrın sonu, oktyabrın əvvəlləri yenidən təlatümə qovuşacaq və o zaman…

Gəncəyə yağış yağır. Külək yox, tufan yox, sadəcə yağış… Həm də necə gözəl, necə yaraşan bir yağış… Sanki minillik tarixə, poeziyaya, dözümlü daşlara layiq olan bir şəhərə ən çox lazım olan ilahi bir toxunuş kimi.

Və bu yağışın altında Gəncə yenidən doğulur… Səssiz, sadə və möhtəşəm.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

# Hava

## Payızın gəlhagəlində yağış, dolu, sulu qar

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Yarımadanın ayrı-ayrı yerlərində yağışın leysan xarakterli olacağı, şimşək çaxacağı ehtimalı var. Axşam tədricən kəsiləcək. Güclü şimal-qərb küləyi əsəcək.**

Havanın temperaturu gecə 18-21, gündüz 22-24 dərəcə isti olacaq. Atmosfer təzyiqi 758 millimetr civə sütunundan 763 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət 75-85 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə yağışın leysan xarakterli intensiv və güclü olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə sulu qara keçəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 18-21, gündüz 24-28, dağlarda gecə 6-10, gündüz 12-17 dərəcə isti olacaq.

***Q.ƏLİYEV***
***XQ***

# ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Rəssamlıq Akademiyasının professor, müəllim heyəti Dövlət mükafatı laureatı, Xalq rəssamı, professor

**NAZİM BƏYKİŞİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Teatr Xadimləri İttifaqının sədri, Xalq artisti Hacı İsmayılov Dövlət mükafatı laureatı, Xalq rəssamı, professor

**NAZİM BƏYKİŞİYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının kollektivi Dövlət mükafatı laureatı, Xalq rəssamı, professor

**NAZİM BƏYKİŞİYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının Əməkdar İncəsənət xadimi, professor Məryəm Əlizadə Dövlət mükafatı laureatı, Xalq rəssamı, professor

**NAZİM BƏYKİŞİYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Pirallahı Rayon İcra Şöbəsinin kollektivi Xətai Rayon İcra Şöbəsinin rəisi Abbas Nəsibova anası

**MƏLEYKƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

**BAŞ REDAKTOR**
**ƏFLATUN AMAŞOV**

**TELEFONLAR:**
**Reklam və elanlar: 493-82-21**
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3430
SİFARİŞ 1741
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ
Çapa imzalanmışdır 00:00